Əsrə bərabər 20 il


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 225 (30341) 15 oktyabr 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


# Azərbaycan Türk dünyasının birliyi amalına sadiqdir

## Prezident İlham Əliyev Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarı qəbul edib



**Oktyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarı qəbul edib.**

Görüşdə Türk dünyası xalqlarının bir-biri ilə tarixi bağlılığına söykənən əlaqələrinin genişləndirilməsindən və xalqlarımız arasında humanitar, mədəniyyət, təhsil, idman sahələrində əməkdaşlığın genişləndirilməsi üçün imkanların mövcud olmasından məmnunluq ifadə edilib.

Bu xüsusda, səmərəli platforma kimi Türk Dövlətləri Təşkilatının rolunu xüsusi qeyd edən Azərbaycan Prezidenti Türk dünyası xalqlarının bundan sonra da müxtəlif sahələrdə əlaqələri inkişaf etdirəcəyinə ümidvar olduğunu bildirib. Dövlətimizin başçısı Azərbaycanın həmişə



Türk dünyasının sıx birləşməsinə öz töhfəsini verdiyini və bundan sonra da Türk dünyasının birliyi amallarına sadiq qalacağını qeyd edib.

Görüşdə Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatı çərçivəsində müşahidəçi üzv kimi fəaliyyətindən danışılıb. Qeyd edilib ki, Şimali Kipr Türk Cümhuriyyəti artıq uzun müddətdir İqtisadi Əməkdaşlıq Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı yanında müşahidəçi statusuna malikdir. Ona görə də Türk Dövlətləri Təşkilatı yanında da Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi statusunun olması tam məntiqlidir.

Ersin Tatar, öz növbəsində, Azərbaycanın suverenliyini tam təmin etməsi münasibətilə Prezident İlham Əliyevi təbrik etdi. O, həmçinin Bakıda təşkil olunan Şimali Kiprin Mədəniyyət Günləri çərçivəsində keçirilən tədbirlərdən məmnunluq ifadə edərək, yaradılan şəraitə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi.

Görüşdə turizm, elm, təhsil və tələbə mübadiləsi sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

Sonda Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

***AZƏRTAC***

## “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Özbəkistan Respublikasının Yenidənqurma və İnkişaf Fondu arasında Özbəkistan Respublikasının ərazisində məhdud məsuliyyətli cəmiyyət formasında Azərbaycan–Özbəkistan İnvestisiya Şirkətinin yaradılması haqqında Saziş”in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2023-cü il iyulun 18-də Şuşa şəhərində imzalanmış “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Özbəkistan Respublikasının Yenidənqurma və İnkişaf Fondu arasında Özbəkistan Respublikasının ərazisində məhdud məsuliyyətli cəmiyyət formasında Azərbaycan–Özbəkistan İnvestisiya Şirkətinin yaradılması haqqında Saziş” təsdiq edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 oktyabr 2023-cü il**

# 2003–2023-cü illər çoxəsrlik tariximizin qızıl dövrüdür

## “Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili” mövzusunda konfrans

**Oktyabrın 14-də Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədovun və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevin həmsədrliyi ilə Bakıda, “Gülüstan” sarayında “Vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətin 20 ili” mövzusunda konfrans keçirilib.**



Konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizin qazandığı nailiyyətlərə və tarixi qələbələrə dair məruzələr dinlənilib.

Konfransı açan **Baş Nazir Əli Əsədov** bildirib ki, Azərbaycanın yeni əsrdə yeni lideri olan İlham Əliyevin birinci müddətə Prezident seçilməsinin 20 illiyi tamam olur. Ötən dövrdə əldə olunan uğurları diqqətə çatdıran Əli Əsədov qeyd edib ki, “Güclü iqtisadiyyat ən önəmli şərtdir”,– deyən Prezident İlham Əliyevin hakimiyyəti illərində Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) real ifadədə 3,6 dəfə artıb. Bu, son iki onillikdə qlobal miqyasda əldə olunan ən yaxşı iqtisadi nailiyyətlərdən biridir.

Dövlət başçısı iqtisadiyyatın şaxələndirilməsini milli iqtisadiyyat qarşısında əsas çağırış olaraq qoyub və bu istiqamətdə görülən işlər nəticəsində ötən 20 il müddətində qeyri-neft sektoru üzrə ÜDM 3,4 dəfə, dövlət büdcəsinin xərcləri 30 dəfə artıb.

*(ardı 2-ci səhifədə)*



# İyirmi ilin iki yüz illik hikməti

## İlham Əliyev dövrünün qürur və fəxarət salnaməsi ilə bağlı düşüncələr

**Klassik fransız ictimai fikrinin nümayəndələrindən və tanınmış dövlət xadimlərindən olan Maksimilian Robespyer deyirdi ki, liderin iki vacib xüsusiyyəti var: birincisi, o, özü irəliyə gedir, ikincisi, getdiyi yerə xalqını da aparır. Böyük Britaniyanın qırxıncı baş naziri Benjamin Dizrayeli isə belə fikirdə idi ki, insanlıq ətrafa nəzər salınmasını zəruriləşdirən dövrə çatıb və bu dövrdə liderlər xalqın arxasınca gedirlər.**

Əlbəttə, həm Robespyerin, həm də Dizrayelinin yaşadığı mühitin özəlliklərinə diqqət yetirsək, deyə bilərik ki, liderin irəliyə gedərkən, xalqını da öz arxasınca aparması ilə, xalqa qoşulub hərəkət etməsi mahiyyətcə ikincinin böyüklüyünün, eyni zamanda böyüklüyün formalaşdırdığı cəmiyyətin maraq və mənafelərinin nəzərə alınmasıdır. Yəni, hər bir halda, lider-xalq, xalq-lider birliyi önəmlidir. Hər lider öz xalqına, xalq isə liderinə layiqdir. Çünki lideri yetişdirən xalqın təpəri, xalqı formalaşdıran isə liderin həmin təpərdən irəli gələn keyfiyyətləridir. Bu yerdə istər-istəməz musiqisi Kamala, sözləri Baba Vəziroğluya məxsus “Heydər Xalqım deyəcək, Xalq Heydər söyləyəcək” mahnısı və Ağadadaş Ağayevin ifası yada düşür. Bəli, qətiyyətlə deyə bilərik ki, bu gün Azərbaycana Prezident seçilməsinin iyirmi illiyi tamam olan cənab İlham Əliyev Heydər Əliyevin əzəmət dünyasının davamçısıdır. Bu varisliyin nəticəsidir ki, artıq düşüncələrimizdə Xalq-İlham, İlham-Xalq formulu var.

Bəli, Prezident İlham Əliyev xalqı öz arxasınca aparmanın örnəyidir. O, eyni zamanda, xalqın iç dünyasına, onun duyğu və yaşantılarına dərindən bələdçiliyin nümunəsidir. İlham Əliyev üçün xalq və dövlət bir-birini tamamlayan vahid anlayışlardır. Bu anlayışlar onun fəaliyyət sferasının əhatə dairəsini, real mahiyyətini və əsas istiqamətlərini müəyyənləşdirir. Mövcud anlamda İlham Əliyevin liderliyi həm də xalqın arxasınca getmək, insanların tələb və ehtiyaclarını düzgün dəyərləndirmək, arzularını gerçəyə çevirmək bacarığı ilə ölçülən faktordur. Ötən iyirmi il bu bacarıq səhnələri ilə zəngin tarixi mərhələdir. Elə bir mərhələ ki, özündə dövlətin inkişafını, qüdrətini və hədəflərinə doğru dönmədən, usanmadan irəliləmənin salnaməsini birləşdirir. Xalq-İlham, İlham-Xalq fomulu da elə budur.

İlham Əliyev liderliyi cəmiyyətin sosial rifah hadisəsidir. Bu rifahda Azərbaycan insanının yeni gün uğrunda mübarizə əzmi, daha yaxşı yaşamaq istəyi var. Bu rifah üçün ailə dəyərləri ilə dövlətçilik dəyərləri, bir növ, çulğalaşmış durumdadır. Birinci dəyər ikinci üçün səfərbər olmuş vəziyyətdədir. Mövcud ictimai ab-havada daha yaxşı yaşamaq və yaşayaraq cəmiyyətə fayda vermək əzmi, bir növ, ehkamlaşmış struktura malikdir. Bu strukturda ehkamçılıq ənənələrə sadiqlik ruhu ilə mühafizəkarlıq mahiyyətini də qoruyur, yeni ənənələr də formalaşdırır. Söhbət yeni yaşam ənənələrindən gedir. O ənənələrdən ki, Azərbaycan insanını dünyada tanıdır, ona hörmət və ehtiram qazandırır. İlham Əliyev şəxsiyyəti bu qazancın yaradıcısıdır, xalqla həmahəngdir. O, dünyada söz sahibi olduqca, Azərbaycan insanı da eyni təbiət özəlliyini və xarakterini əxz edir. Ötən iyirmi il bu əxzetmənin çoxsaylı nümunələri ilə zənginlik tarixidir.

*(ardı 3-cü səhifədə)*

# 2003–2023-cü illər çoxəsrlik tariximizin qızıl dövrüdür



(əvvəli 1-ci səhifədə)

Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3 min 500 manatdan çoxdur. Xarici ticarət dövriyyəsi 10,8 dəfə, o cümlədən, ixrac 16,1 dəfə artıb. 2003-cü illə müqayisədə 2022-ci ildə adambaşına düşən ÜDM 3 dəfəyə yaxın artaraq, 13 min 256 manat təşkil edib.

Aparılan çoxşaxəli iqtisadi siyasət nəticəsində davamlı inkişaf təmin olunub. Birbaşa xarici borcun həcmi azalaraq hazırda ümumi daxili məhsulun 9,3 faizini təşkil edir. Azərbaycanın xarici valyuta ehtiyatları son 20 ildə 47 dəfədən çox artaraq 66 milyard ABŞ dollarını keçib və bu, hazırda birbaşa xarici borcumuzu 10 dəfə üstələyir.

Bu dövr ərzində sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onun 190 milyard dolları qeyri-enerji sektoruna yatırılıb. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində son 20 ildə qeyri-neft ixracı 8 dəfədən çox artıb.

Ötən 20 ildə Azərbaycanda qeyri-neft sektorunun davamlı inkişafını reallaşdırmaq, innovativ və yüksək texnologiyalara əsaslanan sənaye müəssisələrini qurmaq, bu sahədə sahibkarlığı dəstəkləmək və istehsal sahəsində məşğulluğu artırmaq məqsədilə yüzlərlə istehsal və emal müəssisələri, iri sənaye mərkəzləri, parkları və məhəllələri yaradılıb.

Baş Nazirin sözlərinə görə, görülən bütün bu işlər Azərbaycan məhsullarının ixrac coğrafiyasını genişləndirmək imkanı verib, yüksək keyfiyyət standartlarına malik yerli məhsulların "Made in Azerbaijan" brendi adı altında xarici bazarlara çıxışını genişləndirib. Qeyri-neft sektorunun prioritet istiqamətlərindən olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinin inkişafı ötən dövr ərzində diqqət mərkəzində saxlanılıb. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində son 20 ildə qeyri-neft ixracı 8 dəfədən çox artıb. Bu dövr ərzində respublika üzrə 51 aqropark yaradılıb.

Əli Əsədov çıxışında Azərbaycan Prezidentinin gərgin fəaliyyəti nəticəsində dünyanın enerji xəritəsində yeni mənzərə formalaşması məsələsinə də toxunub: "Əsrin müqaviləsi" ilə Xəzər hövzəsini xarici investorlar üçün açan, Xəzərlə Qara dəniz və Aralıq dənizini birləşdirəcək enerji infrastrukturunun əsasını qoyan Ulu öndər Heydər Əliyevin neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində yaranan imkanlar qarşıya qoyulan genişmiqyaslı vəzifələrin tam həcmdə yerinə yetirilməsi üçün möhkəm zəmin yaratdı".

Baş Nazir daha sonra qeyd edib ki, 2006-cı il iyulun 13-də Heydər Əliyevin adını daşıyan nəhəng Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin açılışı oldu və həmin ilin dekabrın 15-də "Şahdəniz" yatağında ilk quyu istismara verildi. Sonrakı illərdə "Ümid", "Babək" və "Abşeron" yataqlarının kəşfi Azərbaycanın böyük qaz ehtiyatlarına sahib olduğunu təsdiq etdi. Bununla da, Azərbaycanın təbii resurslar tarixində yeni bir səhifə açıldı. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 20-ci ildönümündə Səngəçalda Cənub Qaz Dəhlizi layihəsinin təməli qoyuldu.

Ə.Əsədov, həmçinin Prezident İlham Əliyevin gərgin fəaliyyəti və ardıcıl səyləri ilə Bakı–Tbilisi–Ceyhan neft kəmərindən sonra, Bakı–Tbilisi–Ərzurum, TANAP, TAP kimi transmilli qaz arteriyalarının yarandığını, bununla da dünyanın enerji xəritəsində yeni mənzərə formalaşdığını bildirib.

"2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyevin şəxsi səyləri nəticəsində Xəzər dənizinin Azərbaycan sektorunda nəhəng Azəri–Çıraq–Günəşli neft yataqları blokunun 2050-ci ilə qədər işlənilməsində yeni dövr başlandı. 2020-ci il dekabrın 31-də Cənub Qaz Dəhlizinin son seqmenti olan Trans–Adriatik boru kəmərinin istismara verilməsi ilə Azərbaycan qazının tarixdə ilk dəfə olaraq Avropaya ixracına start verildi, – deyə Baş nazir vurğulayıb.

**Sonra Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev** çıxışın-



da qeyd edib ki, 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyev Ümummilli liderimizin siyasi irsini davam etdirərək və Ulu öndərin səyləri nəticəsində yaradılan möhkəm təmələ əsaslanaraq ötən 20 il ərzində dövlətimizi strateji hədəflərə doğru uğurla aparıb. Bu dövr ölkəmizin qarşısında duran strateji hədəflərə nail olunması, cərəyan edən proseslərin, baş vermiş hadisələrin zənginliyi, ən əsası, əldə edilən nəticələr baxımından müstəsna önəm daşıyan və çoxəsrlik milli dövlətçiliyimizin ən parlaq səhifəsinə çevrilib.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003–2023-cü illər çoxəsrlik milli dövlətçilik tariximizə bənzəri olmayan qızıl dövr kimi düşüb, əsrlərlə bölünmüş, ağır məhrumiyyətlərə məruz qalmış, amma öz qürurunu və milli dövlətçilik ənənələrini qoruyub saxlamış Azərbaycan xalqının həyatında silsilə qələbələr, misli görünməmiş yüksəliş və tərəqqi illəri olub.

Prezident İlham Əliyevin dövlət başçısı postunda 20 illik fəaliyyətinin təhlili onu göstərir ki, o, hər zaman cəmiyyətin, dövlətin maraqlarını əsas tutaraq siyasi məharəti, yüksək mənəvi keyfiyyətləri, kommunikasiya bacarığı sayəsində sadə insanlardan tutmuş dünyanın nüfuzlu şəxsiyyətlərinə kimi hər kəsin rəğbətini və hörmətini qazanıb, həm ölkə daxilində, həm də beynəlxalq aləmdə böyük nüfuz əldə edib.

Prezident İlham Əliyev ötən 20 il ərzində müəllifi Ulu öndər olan və cəmiyyətimizi birləşdirən milli-ideoloji amil kimi çıxış edən azərbaycançılıq ideologiyasını daha da zənginləşdirib, Azərbaycan xalqının, dünya azərbaycanlılarının vahid ideya ətrafında daha sıx birliyini, milli həmrəyliyimizi gerçəkləşdirib.

Ölkə rəhbəri ötən prezidentlik fəaliyyəti dövründə Azərbaycanın müdafiəsini gücləndirməyi də diqqət mərkəzində saxlayıb. Dövlət büdcəsində müdafiə xərclərinin əhəmiyyətli çəkisinə xüsusi önəm verib. Bu, ölkəmizin



müharibə şəraitində yaşaması, ərazimizin 20 faizdən çox hissəsinin işğal altında olması ilə bağlı olub. Bütün bu qayğı və diqqət nəticəsində müstəqil Azərbaycanın NATO standartlarına cavab verən, şəxsi heyətinin döyüş hazırlığı yüksək olan peşəkar və modern ordusu yaradılıb. Bu ordunun dinamik inkişaf meyillərini isə məhz ölkənin uğurlu daxili və xarici siyasəti, eyni zamanda, dünyada artan nüfuzu şərtləndirib.

Məhz 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi, düşünülmüş siyasəti, qətiyyəti və prinsipiallığı nəticəsində bütün istiqamətlərdə əldə olunan böyük uğurların, güclü dövləti xarakterizə edən bütün komponentlərin və qeyd etdiyim kimi, qüdrətli silahlı qüvvələrin formalaşmasının məntiqi nəticəsi idi.

Azərbaycan xalqı xoşbəxt xalqdır ki, bu gün ölkəmizin müasir tarixinin qısa bir kəsiyində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə öz müstəqil dövlətini qurub və Prezident İlham Əliyevin parlaq liderliyi ilə tarixi qələbələrə imza ataraq güclü, suveren və müstəqil Azərbaycanımızın firavan gələcəyinə doğru zəfər yolunu inamla davam etdirir.

Samir Nuriyev çıxışında Ermənistan rəhbərliyinin, eləcə də Qarabağdakı hərbi xunta başçılarının nə vaxtsa Azərbaycanın təkcə Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın və Şuşada deyil, həm də Xankəndi, Ağdərə, Xocalı və Xocavənddə nəzarəti bərpa edəcəyinə, xalqımıza qarşı cinayətlər törədən separatçıların isə Azərbaycan məhkəməsi qarşısında cavab verməli olacaqlarına belə ehtimal etmədiklərini də diqqətə çatdırıb.

Prezident Administrasiyasının rəhbəri çıxışında daha sonra 2023-cü il sentyabrın 20-də 24 saatdan az vaxt çəkən lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan ordusunun Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisindəki bütün tör–töküntülərini, hərbi infrastrukturunu sıradan çıxardığını, hərbi xuntanı ağ bayraq qaldırmağa məcbur etdiyini vurğuladı və bundan sonra separatçıların özlərini buraxmaq barədə qərar qəbul etməkdən başqa çıxış yolları qalmadığını bildirdi.

Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri həm Vətən müharibəsində, həm də lokal antiterror tədbirləri zamanı peşəkarlığını, qarşısına qoyulmuş vəzifələri ən yüksək səviyyədə icra etmək məharətinə malik olduğunu bir daha nümayiş etdirdi.

Prezident Administrasiyasının rəhbəri bildirib ki, dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan uzun illər iqtisadi inkişaf parametrlərinə görə dünyada lider mövqeyə malik olub. 2003–2022-ci illərdə Azərbaycanda ümumi daxili məhsul 7,3 milyard dollardan 78,7 milyard dollara yüksəlib. 2003–2023-cü illərdə dövlət büdcəsinin xərcləri 1,2 milyard manatdan 36,6 milyard manata çatıb. Strateji valyuta ehtiyatları 2003-cü ildə 1,4 milyard dollardan 2023-cü il oktyabrın 1-nə 66,1 milyard dollara qədər artıb. 2003–2022-ci illərdə ölkə iqtisadiyyatına yatırılan ümumi investisiya həcmi 310,4 milyard dollar təşkil edib. 2003-cü illə müqayisədə 2022-ci ildə yoxsulluq səviyyəsi 44,7 faizdən 5,5 faizə enib, orta aylıq əməkhaqqı 77,4 manatdan 839,4 manata yüksəlib.

"Bütün bu əldə edilən uğurlara görədir ki, ötən dövr ərzində keçirilmiş 4 prezident seçkisində Azərbaycan xalqı öz gələcəyini yalnız Prezident İlham Əliyevə etibar edib. Xalqımız hər zaman Prezident İlham Əliyevə dəstək olub, ətrafında sıx birləşərək ardınca irəliyə doğru addımlayıb", – deyə S.Nuriyev əlavə edib.

Daha sonra konfransda Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini Əli Əhmədov, Xarici İşlər naziri Ceyhun Bayramov, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və Elm və Təhsil naziri Emin Əmrullayev çıxış edib.

Çıxışlarda bildirilib ki, 2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev Ümummilli liderimizin siyasi irsini davam etdirərək və Ulu öndərin səyləri nəticəsində yaradılmış möhkəm təmələ əsaslanaraq dövlətimizi strateji hədəflərə doğru uğurla aparır. Bunun nəticəsində Azərbaycan regionun ən inkişaf etmiş iqtisadiyyatına malik olmaqla yanaşı, həm də söz və nüfuz sahibinə çevrilib.

Diqqətə çatdırılıb ki, ötən illərdə ölkəmizdə 17 min kilometrdən çox avtomobil yolu, 500-dən çox körpü və tunellər, 3300-dək məktəb, 450-dən çox uşaq bağçası, 550-dən çox tibb müəssisəsi, 41 Olimpiya İdman Kompleksi tikilib və ya təmir olunub. Dövlət başçısının tapşırığına əsasən, Naxçıvanın sosial-iqtisadi inkişafına dair proqramın və strateji layihələrin icrasına başlanılıb, bu da muxtar respublikada rifahın yüksəlməsinə, biznes fəaliyyətinin genişlənməsinə münbit şərait yaradacaq.

Çıxışlarda Prezident İlham Əliyevin şəhid ailələri və müharibə əlillərinə xüsusi qayğısından danışılıb, onların təqaüdünün ötən dövrdə 6 dəfə artırıldığı qeyd olunub. Həmçinin şəhid hərbçilərin ailələrinə və müharibə əlillərinə birdəfəlik ödəmələr verilib. Bildirilib ki, şəhid ailələri və müharibə əlilləri üçün mənzil təminatı proqramı da 5 dəfə genişlənib. Son 3 ildə bu qəbildən onlar şəxslərə 5300, ümumilikdə isə 14100 mənzil və fərdi ev təhvil verilib. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 7500 avtomobil verilib. Bundan başqa, postmüharibə dövründə Prezidentin göstərişi ilə 124 min şəxsə 309 min xidmət göstərilib. O cümlədən, 103 min şəxsə sosial ödəniş təyin olunub, 20 min şəxsin məşğulluğu təmin edilib, 51 min şəxsə reabilitasiya xidməti (o cümlədən, 458 yüksək texnologiyalı protez) təqdim olunub.

Vurğulanıb ki, Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin nəticəsi olaraq ötən 20 ildə ölkəmizdə dövlət büdcəsinin illik sosial müdafiə xərcləri 20 dəfədən çox artıb. Bu dövrdə minimum əməkhaqqı 38 dəfə, orta aylıq əməkhaqqı 12 dəfə, minimum pensiya 14 dəfə, orta aylıq pensiya 18 dəfə, yaşa görə orta aylıq pensiya 19 dəfə, əlilliyə görə pensiya 14 dəfə, ailə başçısını itirməyə görə pensiya 19 dəfə artıb. Pensiya üzrə ödənilən illik vəsait həmin dövrdə 30 dəfə artaraq 6 milyard manata çatıb.

Sonda Azərbaycan Televiziyası (AzTV) tərəfindən hazırlanan və Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizin qazandığı nailiyyətlərə həsr olunan sənədli film nümayiş etdirilib.

**XQ**

# Prokurorluq orqanları Prezidentin daimi qayğısı ilə əhatə olunub

**Oktyabrın 14-də Baş Prokurorluqda Prezident İlham Əliyevin ölkə rəhbəri seçilməsinin 20-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.**

Baş prokuror Kamran Əliyev çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin canından çox sevdiyi xalqına sonuncu müraciətində "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" – deyə bildirməsi bugünkü tarixi gerçəkliyimizin aydın mənzərəsinin tərənnümü olub.

Vurğulanıb ki, milli təfəkkürlə başəri düşüncəni birləşdirən, gerçəkliklə qlobal baxışları uzlaşdıran görkəmli siyasi lider İlham Əliyev nəinki Ümummilli liderin etimadını doğruldub, eləcə də bütün Azərbaycan xalqının növbəti onilliklər üçün əbədi inamını və sarsılmaz dəstəyini qazanıb.

Dövlətimizin başçısının rəhbərliyi altında Azərbaycanın ötən 20 ildə






keçdiyi inkişaf yoluna nəzər salan Baş prokuror qeyd edib ki, bu illərdəki fəaliyyəti ilə hər bir azərbaycanlının Zəfər və tərəqqi rəmzinə çevrilən Prezident İlham Əliyevin 2003-cü il oktyabrın 15-də ölkə rəhbəri seçilməsi ilə başlanan möhtəşəm qələbə yolu tarixin ən qüdrətli, ən xoşbəxt və ən qürurlu Azərbaycanını ərsəyə gətirib.

Bildirilib ki, prokurorluq orqanları daim Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub.

Qeyd olunub ki, dövlət başçısının dəstəyi ilə prokurorluqda hesabatlılığın və şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, işin səmərəliliyinin artırılması və çatışmazlıqların təxirə salınmadan aradan qaldırılması istiqamətində mütəmadi islahat tədbirləri həyata keçirilməkdədir.

Baş prokuror Kamran Əliyev həm "Heydər Əliyev İli", həm də Prezident İlham Əliyevin ölkə rəhbəri seçilməsinin 20-ci ildönümü ilə əlaqədar məsuliyyətini dərindən dərk edən prokurorluq işçiləri tərəfindən bu müddətdə üzərlərinə düşən vəzifələrin layiqincə icrası hədəf seçilməklə ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunması, qanunçuluğun möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi naminə lazımi tədbirlərin görüləcəyini vurğulayıb. Həmçinin milli iradənin təntənəsi olan qalib liderin rəhbərliyi ilə növbəti onilliklərdə də Azərbaycan xalqının öz tarixinin yeni, şanlı səhifələrini yazacağına, bütün sahələrdə möhtəşəm inkişaf naminə yüksək zirvələr fəth edəcəyinə əminliyini bildirib.

Tədbirdə, həmçinin Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli, prokurorluğun veteranı Pənah Abbasov, prokurorluqda ictimai köməkçi qismində fəaliyyət göstərən könüllü Telman İsmayılov çıxış ediblər.

Daha sonra Bakı Media Mərkəzi tərəfindən ərsəyə gətirilmiş, dövlət başçısının 2003-cü ildən başlayaraq apardığı məqsədyönlü siyasət və nəticədə torpaqlarımızın işğaldan azad olunması ilə bağlı tarixi missiyasına həsr olunmuş "İlham" sənədli filmi nümayiş etdirilib.

**XQ**




# İyirmi ilin iki yüz illik hikməti

*(əvvəli 1-ci səhifədə)*

İlham Əliyev liderliyi böyük siyasi şəxsiyyətlərin politoloji ədəbiyyatlardakı təsvir düzəninə uyğun, eyni zamanda, uyğun gəlməyən məxsusi obrazdır. Uyğundur, ona görə ki, həmin təsvirlərdəki kimi davranır, hərəkət edir, rasionaldır, praqmatikdir və sair. Uyğun deyil, ona görə ki, yuxarıda sadalanan prinsiplər heç də hər topluma və xalqa bütövlükdə şamil edilə bilməz. İlham Əliyev liderliyi üçün toplumu duyan hərəkət özəlliyi var. Bu duyumda prinsipləri formalaşdıran səmimiyyətdir. Axı, əksər siyasi ədəbiyyatlar səmimiyyət faktoruna o qədər də önəm vermir. İlham Əliyevin gücü bu faktora məxsusi ahəngdarlıq və dinamizm qazandırmasındadır. Əlbəttə, bu xarakter səmimiyyətə zor tətbiqini, ondan sui-istifadəni heç cür qəbul etmir. Müvafiq olaraq, meydana çıxan kompromissizlik xalqın da daxili dünyasının, taleyüklü məsələlərə münasibət tərzinin formalaşmasına təsirini göstərir.

Qətiyyətlə söyləyə bilərik ki, yola saldığımız iyirmi il xalqımızın dünyaya səmimiyyət axınını gücləndirdiyi mərhələdir. Dünya İlham Əliyev liderliyindəki səmimiyyətə nəzərən xalqımızı da eyni keyfiyyətdə gördü və tanıdı. Xalq imkan tapdı ki, səmimiyyəti ilə cilalanmış mədəniyyətini, incəsənətini, söz-sənət, musiqi xəzinəsini dünyanın ayrılmaz parçası etsin. Bu baxımdan tariximizin heç bir dönəmində beynəlxalq aləmə indiki qədər yaxın olmamışdıq. Yaxınlığımız ötən iyirmi ilin müstəsna olayı, misilsiz yaşantısıdır.

Əlbəttə, səmimiyyət, dediyimiz kimi, güzəştsiz təbiətə malikdir. Həm güzəştsiz, həm də barışmaz təbiətə. İlham Əliyevin Prezidentliyinin 20 ili xalqımızın barışmazlıq mübarizəsinin və əzmkarlığının tarixidir. Biz əzmkarlıq olduqca səmimiyyətimizdən sui-istifadə edənlərin də meydana atıldıqlarını gördük. Bəzən üzərimizdə üstünlük qazanmış kimi oldular. Məhz belə anlarda xalqın gözünü dikdiyi liderdir İlham Əliyev. Bəlkə heç kəs bilmədi ki, o, vəziyyətdən çıxmaq üçün nə edəcək, amma hamı əmin oldu ki, o, mütləq nə isə edəcək. Etdi də. Ötən 20 il İlham Əliyev şəxsiyyətinin xalqı üçün etdiklərinin, ölçüyə, müqayisəyə gəlməz xidmətlərinin tarixidir.

İlham Əliyev şəxsiyyəti Azərbaycan dövlətinin qlobal çətinliklərə sinə gərmək, ciddi müqavimət immunitetidir. Azərbaycan dövlətçiliyi tarixin heç bir dönəmində bu qədər çətinliklə üzləşməmişdi və bu qədər çətinlik qarşısında duruş gətirmək əzminə malik olmamışdı. Bütün bunlar isə heç şübhəsiz, dövtlətçiliyimizin əbədilik formulu üçün müstəsna təminatdır. Necə deyərlər, çəkişməsən bərkişməzsən. Tam əminliklə vurğulaya bilərik ki, İlham Əliyevin prezidentliyinin ötən iyirmi ili dövlətçiliyimizin əbədiyyət təminatıdır.

İlham Əliyevin Prezidentliyi bənzərsiz və təkrarsız varislik xəttidir. Dövlət idarəçiliyində varisliyin ən böyük nümunəsidir İlham Əliyev. Onun varisliyi ənənəvi klişelərdən tam uzaqdır. Çünki, o, varisliyə qanunauyğunluq obrazı biçmiş liderdir. Cənab İlham Əliyev əməli fəaliyyəti ilə sübut etdi ki, Heydər Əliyev dühasının dövlət idarəçiliyi baxımından irəli sürdüyü harmonik düzən məhz varislik prinsipi əsasında böyük uğurlar əldə etmək iqtidarındadır. Bu, müasir dünyamızda analoqu olmayan siyasi baxış trayektoriyasıdır. Geridə buraxdığımız iyirmi il mövcud baxışın təntənə səhnələri ilə zəngin mərhələdir.

İlham Əliyev fenomenal şəxsiyyətdir. Hərtərəfli hazırlığı, müstəqil siyasət yürütməsi onu dünya liderlərinin ön cərgəsinə çıxarıb. Məhz Prezident İlham Əliyevin sayəsində həm ümumən beynəlxalq münasibətlərdə, həm də regional siyasətdə ölkəmiz əsas söz sahiblərindəndir. İlham Əliyevin fenomenallığı ümummilli mənafeləri digər xalqlar üçün də faydalı ola biləcək ümumi maraqlarla uzlaşdırmaq bacarığındadır. Ötən iyirmi ildə onun liderliyi sayəsində uzlaşmış maraqların, baxışların, aradan qalxmış ziddiyyətlərin sayı-hesabı yoxdur. Ona görə də geridə qoyduğumuz müddət həm də Vətənimizi dünyada barış ünvanı kimi xarakterizə etmək üçün əsaslar verməkdə, bəşəri ünvan kimi səciyyələndirməkdədir. İlham Əliyevin ən böyük uğurlarından biri də elə budur.

Əlbəttə, yuxarıda sadaladığımız xüsusiyyətlər və şəxsi keyfiyyətlər məcmusu, habelə ondan irəli gələn nailiyyətlərdə bir hədəf, müqəddəs amal olub – QARABAĞ. Xalqımız üçün Füzuli, Ağdam, Kəlbəcər, Xocalı, Zəngilan, Qubadlı, Laçın, Əsgəran, Ağdərə, Xankəndi, Xocavənd və nəhayət Şuşa da Qarabağ idi. Biz bu yurdlarımızın işğalda, düşmən tapdağı altında qalmasının acısını Qarabağ dərdi kimi otuz ilə yaxın müddətdə içimizdə daşıdıq. İlham Əliyev hər birimizdən daha çox daşıdı bu dərdi. İlham Əliyev hər bir azərbaycanlıdan daha artıq düşündü Qarabağın qurtuluşunu. İlham Əliyev Qarabağ davasını sürdürmənin də müstəsna varislik örnəyidir. Ona görə də 2020-ci ilin noyabrın 8-də – Şuşanın düşmən tapdağından qurtulduğu gündə ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etdi. Bu ziyarət ziyarətlərin bəşərisi və ülvisi idi. Bir övladın ata vəsiyyətinə əməl etməsinin ən böyük təntənə anı idi bu ziyarət. İlham Əliyevin prezidentlik fəaliyyətinə möhür vuran ən böyük an idi.

Bəli, o ziyarət üzərimizdəki ləkədən qurtulduğumuzun müjdəsi idi. Hər cür irəliləyişlərə, inkişafa və tərəqqiyə rəğmən, üzərimizdəki torpaq itirmək utancından xilasın qürur və fəxarət anı yaşandı 2020-ci ilin noyabrın 8-də. Əminik ki, yalnız Heydər Əliyevin deyil, Fəxri xiyabanda uyuyan, torpağı Vətən, toplumu Xalq edən, bu yolda xidmətləri olan bütün şəxsiyyətlərimizin ruhları şad idi həmin gün. Heç şübhəsiz, onların hər biri üçün Şuşa yalnız bir şəhər deyildi. Şuşa, eyni zamanda, böyük dünya, əzəmət və varlıq simvolu, məbədi idi. Noyabrın 8-də varlığımız, ləyaqətimiz özümüzə qayıtdı. Bu qayıdışın müzəffərlik simvoludur İlham Əliyev.

İlham Əliyev Qarabağ uğrunda müqəddəs mübarizəni hərtərfli diri tutan, bu mübarizənin Zəfər nöqtəsinə yetişəcəyinə inamı ölməyə qoymayan mübarizlik rəmzidir. Hazırda Ermənistanın, dünya ermənipərəstliyinin, eləcə də xaricdəki anti-Azərbaycan qüvvələrin həyata keçirdikləri mənfur fəaliyyətlərin, çeşidli manipulyasiyaların ayrı-ayrı detallarına diqqət yetirəndə görürsən ki, İlham Əliyev prezidentliyinin ötən iyirmi ilində hansı çətinliklərə, hansı məhrumiyyətlərə qatlaşıb. Həqiqətən, təsvir etmək və təsəvvürə gətirmək olduqca çətindir. Onun ölkəmizə qarşı hansı məkrli oyunları pozduğunu, necə bir direniş göstərdiyini da hiss etmək çətin, çətin olduğu qədər də ağırdır. İlham Əliyev ağırlıqları çiyinlərində daşımış liderdir.

Bəli, 44 günlük müharibə bizi özümüzə qaytardı. Bu qayıdış yaxın iki yüz illik tariximizdə olmayan bir hadisədir. Biz artıq "torpaqdan pay olmaz" deyimini əməli fəaliyyəti ilə sübuta yetirmiş xalqıq. Kim nə deyirsə desin, hansı formada qələmə alırsa-alsın, yaşadığımız dünya güc amili ilə hesablaşır. İlham Əliyev gücdən səriştəli, səmərəli bəhrələnmənin, gücü ilə hesablaşılması məcburi xarakter daşıyan siyasət amilinə çevirmənin misilsiz örnəyidir.

44 günlük müharibədə əldə etdiyimiz müqəddəs Zəfər sayəsində ərazi bütövlüyümüzün, bu il sentyabrın 19-da başladığımız və cəmi 23 saat 43 dəqiqə davam etmiş lokal xarakterli uğurlu anti-terror tədbirləri ilə dövlət suverenliyimizin bərpası, heç şübhəsiz, Prezident İlham Əliyev şəxsiyyətinin dünya siyasəti meydanındakı nəhənglik göstəricisidir. Bu, elə bir nəhənglikdir ki, ona tapınmaq, ona sığınmaq Azərbaycan üçün yeni üfiqlər, yeni daha böyük başlanğıclar açır. Xalqımız əmindir ki, müstəqil, azad, suveren Azərbaycanımız İlham Əliyev müdrikliyinin sayəsində bundan sonra da yeni başlanğıcların gətirəcəyi müvəffəqiyyətlərə qovuşacaqdır. Ulu öndər Heydər Əliyevin təbirincə desək, dünyaya doğmuş Azərbaycan Günəşi Prezident İlham Əliyevin rəhbərliyi, kamil sərkərdəlik bacarığı ilə daha parlaq işıq saçacaqdır.

"Xalq qəzeti"nin kollektivi olaraq Prezident İlham Əliyevi prezidentlik fəaliyyətinin iyirmi illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona Uca Tanrıdan möhkəm cansağlığı, Vətənimiz Azərbaycanın maraq və mənafelərinin qorunması yolundakı dönməz fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayırıq.

***Əflatun AMAŞOV,***
***baş redaktor***

# İki əsrlik tariximizə Qələbə möhürünün vurulduğu gün

**2003-cü ilin 15 oktyabrı birmənalı şəkildə nəinki müstəqil Azərbaycanın, bütövlükdə son 200 illik tariximizə yeni mərhələnin başlanğıcı kimi yazılacaq. Həmin gün xalqımız prezident seçkilərində ən doğru seçimini edərək, Azərbaycan Respublikasının Prezidenti kimi ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun layiqli davamçısı olan İlham Əliyevə səs verdi. O gündən bizi 20 il ayırır.**

Tarix üçün çox qısa bir zaman kəsiyi olan bu dövrdə, əslində 200 ildir davam edəm məğlubiyyət və facie ardıcıllığına nöqtə qoyuldu. Qələbə, qürur və sevinc salnaməsi yazıldı. Öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallığı budur: Qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bir xalq olaraq qürurla yaşadığımız bu tarixin altında isə tək bir imza var: Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev!

Dünya reallığı qüdrətli və böyük dövlətlərin liderlərinin daha çox nüfuza malik olduğunu həmişə göstərib. Kiçik dövlətlərin liderləri çox nadir hallarda dünya səviyyəsində tanınır, nüfuzlu şəxsiyyətlər olurlar. Belə azsaylı istisnalardan biri də Azərbaycan Prezidenti İlham Əliyevdir. İlham Əliyev öz fəaliyyəti ilə göstərdi ki, dövlətin kiçik və ya böyük olması onun liderinin beynəlxalq aləmdə nüfuz və hörmət sahibi olmasına o qədər də təsir göstərmir.

Lider, həmçinin mənəvi birliyi təmin edən, cəmiyyətdə müəyyən əhval-ruhiyyənin, ideya və dəyərlər sisteminin formalaşmasına təsir göstərən mühüm qüvvədir. Xalqın lideri, ilk növbədə, insanları ümumi ideya, prinsip, məqsəd ətrafında birləşdirməyi bacarmalıdır. Heydər Əliyevin yetkin bir məfkurə kimi xalqımıza təqdim etdiyi azərbaycançılıq ideologiyasının əsasını təşkil edən dövlətçilik, vətənpərvərlik, ənənələrə bağlılıq prinsipləri bu gün milli birliyin əsas təminatçısı kimi çıxış edir. Bu prinsiplərə sadiqliyini qoruyub saxlayan Prezident İlham Əliyev isə öz fəaliyyəti ilə Heydər Əliyev ideyalarının layiqli davamçısı olduğunu göstərməklə yanaşı, innovasiyalara tez uyğunlaşmaq bacarığı, dəyişən qlobal və regional reallıqlar şəraitində ölkənin stabil milli maraqlarını qoruya bilmək qabiliyyəti ilə özünün əsl siyasi lider olduğunu isbatlayıb.

Liderin gücü, nüfuzu həm də onun təsir imkanlarının coğrafi əhatə dairəsi ilə ölçülür. Güclü siyasi liderin fəaliyyətinin təsir dairəsi bir ölkə ilə məhdudlaşmır, bütövlükdə regional, hətta qlobal əhəmiyyət daşıya bilir. Bu baxımdan, bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət regionda gedən siyasi, iqtisadi proseslərin axarına həlledici təsir göstərir. Məhz dövlət başçısının liderlik keyfiyyətləri əsasında bu gün Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb, fəal aktorlardan birinə çevrilib. Azərbaycan Avropa ilə Asiya qitələrini siyasi, iqtisadi, mədəni nöqteyi-nəzərdən birləşdirən regional güc mərkəzidir. Azərbaycanı Prezident İlham Əliyev lider dövlətlər sırasına yüksəldib.

Tariximizin son 20 ili bütün sahələri əhatə edən, genişmiqyaslı və davamlı islahatlarla xarakterizə olunur. Dövlətimizin başçısı tərəfindən "tərəqqi, təkamül və yeni şəraitə uyğunlaşma" kimi qiymətləndirilən dərinləşən islahatlar kursu sosial-iqtisadi, hüquq-məhkəmə, siyasi, struktur və kadr istiqamətlərini əhatə etməklə çoxşaxəli və dinamikdir. Bütün bunlar nəticə etibarilə ölkəmizin daxili siyasi uğurlarını şərtləndirir, səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyini möhkəmləndirir, siyasi sabitlik və təhlükəsizlik mühitinin dönməzliyini təmin edir. Bu xüsusda xalq-hakimiyyət birliyi istənilən dövlətdə siyasi sabitliyi və təhlükəsizlik mühitini şərtləndirən həlledici amildir. Bu birlik təsadüfən, öz-özünə formalaşmır. Onun üçün əsas şərt xalqını arxasınca aparmağı bacaran güclü və görkəmli lider amilinin olmasıdır. Elə bir lider ki, müstəqil siyasət aparmaq iqtidarında olsun. Elə bir lider ki, xalqı və dövlətinin milli maraqlarını bütün mənafelərin fövqünə yüksəltsin. Elə bir lider ki, sözü ilə əməli üst-üstə düşsün. Belə liderləri tarixə bəxş edən xalqlar və dövlətlər böyük, əzəmətli və bəxtəvərdir.

Öz əməlləri ilə xalqının və dövlətinin sevgisini qazanmış liderlər isə xoşbəxtdir. Məsələyə bu kontekstdə yanaşdıqda, böyük qürur və fəxarət hissi ilə deyə bilərik ki, möhtərəm Prezidentimiz İlham Əliyev xoşbəxt dövlət başçısıdır. Cənab İlham Əliyev mümkünsüzü mümkünə çevirən, Xalq Qəhrəmanı, düşməndən qisasımızı alan qüdrətli sərkərdədir. Ali Baş Komandanımızın rəhbərliyi ilə şanlı ordumuzun düşmənə vurduğu sarsıdıcı zərbələr, uğurlu döyüş əməliyyatları, qazanılmış qələbələr ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin tam bərpa olunmasını təmin edib. Xalqının qürur mənbəyinə çevrilmiş Prezident İlham Əliyevin müəllifi olduğu dayanıqlı inkişaf siyasətinin təntənəsi təkcə Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, uğurlu xarici siyasətində deyil, xüsusilə də tarix yazan güclü ordusunda öz təsdiqini tapır. Bu gün müzəffər Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirmişdir.

Azərbaycanın Qələbəsi yalnız ərazi bütövlüyümüzün təmin olunması deyildi, bu, həm də Cənubi Qafqazda sabitlik və inkişafın təməl prinsipinə çevrildi. Bu anlamda regionumuzun yeni siyasi reallığının müəllifi kimi, Prezident İlham Əliyev müasir dünya düzənində yaradıcı lider kimi qəbul olunur. O, həm də Ümummilli liderin layiqli varisi kimi, "Bir millət, iki dövlət" kəlamını Asiyadan Uzaq Şərqədək böyük bir arealı əhatə edən Türk zolağının yeni dünya gücünə çevrilməsinin önündə duran sərkərdədir.



İlham Əliyevin ölkəmiz, xalqımız qarşısında gördüyü işlərin sadəcə adlarını belə bir kiçik yazıya sığışdırmaq olmaz. Məqsədimiz hamısını burada sadalamaq da deyil. Ən böyük qiyməti ona həmişə Azərbaycan xalqı verib – özünə dövlət başçısı seçməklə və onun siyasətinə inandığını göstərməklə. Onu təkcə Prezident kimi deyil, milli lider və sərkərdə kimi qəbul etməklə. Onun arxasında vahid bir yumruq kimi birləşməklə. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət Azərbaycanı xoş gələcəyə aparır. Bunu görməmək, qiymətləndirməmək və buna sevinməmək mümkün deyil. Bunun üçün sadəcə, azərbaycanlı olmaq yetər...

***Tənzilə RÜSTƏMXANLI,***
***Azərbaycan–Türkiyə Qadınlar Cəmiyyəti və Azərbaycan–Türkiyə evinin sədri***



# Tarix yazan və adını tarixə yazdıran lider

**Müasir beynəlxalq koordinatlar sisteminin nizamı pozulubdur. Beynəlxalq hüquq "erroziya"ya uğrayıb. Bu reallığı şərtləndirən çoxsaylı motivlər və səbəblər mövcuddur. Onların sırasında bir amilin rolunu xüsusi qeyd etmək istərdim. Bu, ilk növbədə, planetimizdə qlobal lider kəsiri – məhdudluğu ilə bağlı məsələdir. Bu gün ABŞ-a heç də Franklin Delano Ruzveltlər, Böyük Britaniyaya Uinston Çerçillər, Fransaya Şarl de Qollar və Almaniyaya Konrad Adenauerlər rəhbərlik etmirlər. Həmin qlobal siyasi liderlərin müasir varisləri heç bir halda sələflərinə adekvat deyillər. Xələflər nəinki dünya miqyasında təhlükəsizliyin təminatına töhfə verə bilmir, bir çox hallarda öz davranışları ilə lokal, regional və beynəlxalq səviyyələrdə qarşıdurma mühitinin formalaşmasına çalışırlar. Bu baxımdan planetimiz, bəlkə də, heç vaxt indiki qədər təhlükəli olmamışdır. Təhlükənin olduğunu hiss etməməyin özü isə ən böyük təhlükədir.**

Müasir dünyamızın sadalanan acı reallıqları fonunda Prezident İlham Əliyev elə də böyük olmayan dövləti – Azərbaycanı beynəlxalq siyasətin subyektindən onun aktoruna çevirmişdir. Qlobal təhlükəsizliyin, o cümlədən, qitəmizdə enerji və nəqliyyat təhlükəsizliyinin təminatında Azərbaycanın rolu misilsizdir. Azərbaycan "dünyaya təkcə neft və qaz deyil, eyni zamanda, multikultural dəyərlər də" ixrac edir. Bu xüsusda, Prezident İlham Əliyevin fikirləri aforizm tutumuna malikdir: "Azərbaycan dünya miqyasında elə də böyük dövlət olmasa da, sözünün məna və çəkisi böyükdür."

Dövlətimizin rəhbəri son dərəcə təvazökar insan olduğundan Azərbaycanın dünya miqyasında sözünün izafi çəkiyə malikliyinin real səbəbi qismində öz adını və tarixi fəaliyyətini vurğulamır. Xalqın gözü tərəzidir. Xalq öz liderini sevir. Öz əməlləri ilə xalqı və dövlətinin sonsuz sevgisini qazanmış lider xoşbəxtdir. Məsələyə bu xüsusda yanaşdıqda, böyük qürur və fəxarət hissi ilə deyə bilərik ki, möhtərəm Prezidentimiz İlham Əliyev xoşbəxt dövlət rəhbəridir. Xalqı öna görə cənab Prezidenti sevir ki, o, müasir Azərbaycan dövlətçiliyinin banisi ulu öndər Heydər Əliyev müəyyən etdiyi siyasi kursa sadiqdir və son 20 il ərzində ölkəmizi uca zirvələrə yüksəltməkdədir. Xalqı ona görə Prezidentini sevir ki, o, heç bir vaxt hər hansı böyük dövlət və ya beynəlxalq təşkilatın diktəsi ilə deyil, məhz lideri olduğu çoxmillətli və çoxkonfessiyalı Azərbaycan dövlətinin milli maraqlarından irəli gələn müstəqil siyasətin müəllifidir. Həmin siyasətin təntənəsi Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, uğurlu xarici siyasətində, xüsusilə də tarix yazan güclü ordusunda öz təsdiqini tapır.

Zəmanəmizin dühası Heydər Əliyevdən "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", – qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan son 20 il ərzində özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır.

Prezident İlham Əliyev Azərbaycan tarixinə yeni missiya ilə qədəm qoymuşdur. Bu missiyanın fəlsəfəsi daha əvvəl "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" – deyərək ictimai fəaliyyətə başlayan cənab İlham Əliyevin hələ 2003-cü ildə söylədiyi "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəyəm", – fikirləri ilə real məzmun kəsb etməyə başladı.

Bu mərhələnin başlanğıc nöqtəsi 2003-cü il 15 oktyabr tarixli prezident seçkilərində cənab İlham Əliyevin xalqın mütləq əksəriyyətinin səsini toplayaraq (76,86 faiz) dövlətin ali rəhbəri seçilməsi ilə qoyuldu. 31 oktyabr 2003-cü ildə keçirilən andiçmə mərasimindəki çıxışında Azərbaycan Prezidenti İlham Əliyev ölkədə Heydər Əliyev siyasətini davam etdirəcəyini bir daha bəyan etdi: "Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır. Beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünə layiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir".

Prezident İlham Əliyevin, bütövlükdə, 20 il ərzində həyata keçirdiyi uğurlu daxili siyasət nəticə etibarilə Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi mənafeyinə xidmət göstərmişdir. Təkcə daxili siyasətdə deyil, xarici siyasətdə də varislik prinsipi qorunub saxlanılmışdır. Başqa sözlə, Prezidenti İlham Əliyev Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu coxvektorlu, müstəqil və milli maraqlara əsaslanan xarici siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq cevik, innovativ və hücum taktikasına əsaslanmaqla davam etdirir. Milli dövlətçilik maraqlarının müdafiəsi həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən bu siyasətin başlıca məzmununu təşkil edir. Həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsi reallığı ilə bağlıdır. Bu statusuna tam adekvat olaraq İlham Əliyev həm daxili, həm də xarici siyasət kursunun həyata keçirilməsi prosesində dərin zəka, iti fəhm, analitik və innovativ düşüncə tərzi, sistemli analiz qabiliyyəti, prinsipiallıq və qətiyyət nümayiş etdirir.

2009-cu ildə ABŞ başda olmaqla Qərb dövlətlərinin təzyiqi nəticəsində Türkiyə–Ermənistan sərhədlərinin açılması prosesi kritik mərhələyə daxil olmuşdu. Hətta, iş o yerə gəlib çatmışdı ki, Qərb siyasi dairələri həmin il aprelin 6-7-də İstanbul şəhərində "Sivilizasiyalar alyansı" adlanan bir tədbir təşkil edib, orada ABŞ-ın yeni Prezidenti Barak Obama və Dövlət katibi Hillari Klintonun Prezident İlham Əliyevlə görüşünü keçirməyi nəzərdə tutmuşdular. Məqsəd bu görüş çərçivəsində Azərbaycanın dövlət başçısının məlum məsələdə tutduğu güzəştsiz mövqeyinə təsir edib, onu istədikləri istiqamətdə dəyişməkdən ibarət idi. Azərbaycan Prezidenti dünyanın fövqəldövlətinin rəhbəri ilə görüşdən unikal diplomatik manevr hesabına faktiki olaraq imtina etdi. Bununla da hələ 23 yaşında ikən SSRİ Xarici İşlər Nazirliyinin məşhur Beynəlxalq Münasibətlər İnstitutunda diplomatiya ixtisasının incəliklərini tədris etməsinin təsadüfi olmadığını bir daha sübut etdi. Əslində, bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycanın qətiyyəti və iradəsi böyükdür. Son nəticədə, böyük dövlətlər arxasında xalqı dayanan Prezident İlham Əliyevin siyasi iradəsini nəzərə almaq məcburiyyətində qaldılar. Türkiyə–Ermənistan sərhədləri bu günə kimi bağlıdır. Onların açılması baglanmasına səbəb olan amillər tam aradan qaldırıldıqdan sonra mümkün ola bilər. Bu, iki qardaş dövlətin rəhbərləri olan cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın zamanın sınağından şərəflə çıxmış ortaq mövqeyidir.

Prezident İlham Əliyevin bütün diplomatik addımları millli maraqlardan çıxış etməklə zərgər dəqiqliyi ilə hesablanmışdır və bir çox hallarda siyasi opponentlərin intellekti imkan vermir ki, onlara vaxtında düzgün adekvat reaksiya versinlər. Belə unikal siyasi məqsəd daşıyan addımlardan birini Prezident İlham Əliyev 2011-ci ilin iyun ayında atdı. Azərbaycan Qoşulmama Hərəkatına üzv oldu. Tərkibində 193 dövlətin olduğu BMT-dən sonra sayca ikinci mövqedə dayanan Qoşulmama Hərəkatına (QH) üzvlük həmin məqsədin reallaşması üçün əlavə və geniş imkanlar pəncərəsi aça bilərdi. Elə belə də oldu. 2011-ci il oktyabrın 24-də BMT TŞ-yə keçirilən seçkilərdə QH üzvləri Azərbaycanın lehinə səs verdilər. Azərbaycan 155 səslə iki il müddətinə BMT TŞ-nin qeyri-daimi üzvü seçildi. Azərbaycan Respublikası müstəqilliyinin 20-ci ildönümündə tarixinin növbəti şanlı səhifəsini yazdı. Onun müəllifi boyük intellekt, iradə və qətiyyət sahibi olan Prezident İlham Əliyev idi.

Məhz iti fəhmi və diplomatik məharəti hesabına Prezident İlham Əliyevin son 20 il ərzində ölkəmizin və eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatı istiqamətində atdığı çoxkombinasiyalı siyasi gedişləri heyranlıq doğurur. Dövlət başçımızın uzaqgörən müdrik siyasəti sayəsində Azərbayacan son 20 il ərzində təkcə dünyanın enerji və nəqliyyat xəritəsini yenidən tərtib etmir, eyni zamanda, dünyada ümumbəşəri dəyərlərin qorunması və təbliği istiqamətində fantastik nailiyyətlərə imza atır. Dünyada sivilizasiyalararası dialoq sahəsində ciddi problemlərin yaşanması, bu fonda konfliktlərin artması tendensiyasının müşayiət olunması, xüsusilə də islamofoboya kimi təhlükəli meyillərin bir sira dövlətlərin və digər subyektlərin siyasətində özünə geniş yer alması reallığında Azərbaycanın mədəniyyətlərarası dialoq məkanına çevrilməsi faktı da qlobal əhəmiyyət kəsb edən məsələdir. Bu məsələlərin həlli istiqamətində Azərbaycanın təcrübəsi digər ölkələr üçün örnək ola bilər.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan paytaxtı ikiillik fasilə ilə iki müxtəlif mədəniyyətin daşıyıcılarının böyük idman bayramlarına evsahibliyi etmişdir. 2015-ci ildə tarixdə ilk dəfə olaraq I Avropa Oyunlarını keçirən Azərbaycan Respublikası, 2017-ci ildə IV İslam Həmrəylik Oyunlarına evsahibliyi etməklə mədəniyyətlər arasında unikal körpü rolunu oynamış və idman vasitəsilə sivilizasiyalararası barışıq və dialoqa böyük tohfə vermişdir. Eyni məntiqdən qaynaqlanaraq, Prezident İlham Əliyev 2017-ci ili "İslam Həmrəylik İli" elan etmişdir. Cənab İlham Əliyevin İslam həmrəyliyinə xidmət edən bu və digər təşəbbüsləri müsəlman dünyasında rəğbətlə qarşılanmış və böyük siyasi rezonans doğurmuşdur.

Bu gün müzəfər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında yenilməz Azərbaycan Ordusu torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirmişdir. 2020-ci il noyabr ayının 8-də qədim Azərbaycan şəhəri, Qarabağın incisi Şuşanın müasir hərb elminin ən nadir və unikal əməliyyatlarından birinin həyata keçirilməsi nəticəsində azad olunması düşmənin müqavimət potensialını heçə endirdi. Nəticədə noyabrın 10-da prezidentlər İlham Əliyev, Vladimir Putin və baş nazir Nikol Paşiyanın imzaladığı üçtərəfli Bəyanat regionda uzunmüddətli münaqişənin hərbi fazasını başa çatdırdı və faktiki olaraq işğalçı Ermənistan dövlətinin kapitulyasiyası aktı oldu. Noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonu bir güllə belə atılmadan, şəhid vermədən işğaldan azad olundu.

Azərbaycan dövləti müharibənin acı reallıqlarını nəzərə alaraq, informasiya siyasətini də yenidən qurdu. Bu prosesdə hücum taktikasına üstünlük verildi. Uğurlu informasiya siyasətinin də müəllifi Prezident İlham Əliyev idi. Ali Baş Komandan müharibə zamanı müxtəlif nüfuzlu əcnəbi televiziya kanallarına müsahibələr verdi və beynəlxalq aləmdə formalaşmış yanlış təsəvvürləri büsbütün dağıtdı.

8 Noyabr–Zəfər Günü xalqımızın qürur mənbəyinə çevrilmiş şanlı tarixdir. Həmin tarixin üç qəhrəmanı vardır: Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan, onun formalaşdırdığı yenilməz ordu və dəmir yumruğa çevrilmiş xalq. Bu reallıqda Prezident–Ordu –Xalq sözləri sinonimləşmiş, tarixi Zəfərin simvollarına çevrilmişdir. Bu tarixi Zəfəri ilə Prezident İlham Əliyev öz adını müzəffər sərkərdə olaraq təkcə mənsub olduğu ölkənin deyil, əslində, dünyanın hərb tarixinə əbədi olaraq həkk etdi. Bu tarixi qalibiyyətin nəticəsində ordumuzun yenilməzliyi, qüdrəti və vətənpərvərliyi sözdə deyil, döyüş meydanlarında sübuta yetirildi. Qəddimiz düz, başımız uca oldu. Qürurumuz özümüzə qaytarıldı. Alnımızdan xəcalət təri birdəfəlik silindi. Birləşdik, bütövləşdik. Ən qatı əleyhdarlarımız belə bu həqiqəti etiraf etmək məcburiyyətində qaldılar.

Tarixi zəfər nəticəsində təkcə ərazi bütövlüyümüz və suverenliyimiz təmin olunmadı, həm də erməni faşizminə ölümcül zərbə endirildi. Eyni zamanda, Ermənistanın və dünya ermənilərinin son 30 il ərzində sitayiş etdikləri "Miatsum" ideologiyası–İrəvan və Qarabağ ermənilərini vahid dövlət tərkibində görməyi hədəfləyən, bu prosesdə qonşu Gürcüstan ərazisinə də ilhaq zonası kimi yanaşan irticaçı ideya iflasa uğradı.

Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı. Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur. Prezidentin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları yaradıldı.

Təəssüf hissi ilə qeyd edək ki, Ermənistanın siyasi-hərbi rəhbərliyi və onun himayəsi altında Qarabağdakı xunta rejimininin tör-töküntüləri, görünür, hələ də strateji məğlubiyyətlərindən lazımı nəticə çıxara bilməyiblər. Əks halda, Ermənistanla şərti sərhədlərimizdə törətdikləri hərbi insidentlərə, doyüş mövqelərimizi iriçaplı silahlarla atəşə tutmalarına, mülki şəxslərə və polis nəfərlərinə qarşı mina terroru siyasəti həyata keçirmələrinə nə ad vermək olar?!

Prezidenti İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 53-cü iclasının iştirakçılarını qəbul edərkən qeyd etdi ki, "Təxribat hərəkətlərinə son qoymaqla bağlı Azərbaycanın etdiyi çoxsaylı çağırışlar təəssüf ki, bütün ciddiliyi ilə qəbul edilmədi. Vəziyyət daha da gərginləşdi, çünki bu il sentyabrın 2-də Ermənistan baş naziri qondarma "Dağlıq Qarabağ respublikasının" yaradılmasının ildönümü ilə bağlı təbrik məktubu göndərdi. Bu, "qırmızı xətti" keçmək demək idi və təbii ki, Azərbaycan buna dözə bilməzdi. Bu, bizim ərazimizə qarşı açıq-aşkar iddia irəli sürülməsi idi. Sentyabrın 9-da qondarma "Dağlıq Qarabağ"ın qondarma hakimiyyət orqanları "seçki" keçirdilər, özlərinə yeni başçı seçdilər, bu isə mövcud reallıqların tam şəkildə inkar edilməsi demək idi."

Formalaşmış şəraitdə sentyabrın 19-da Azərbaycana antiterror tədbirləri keçirmək və öz suverenliyini tam şəkildə bərpa etmək üçün başqa seçim yolu qalmadı. Bir sutkadan da az davam edən antiterror tədbirləri nəticəsində Ermənistanın Qarabağdakı ordusu tamamilə tərksilah edildi, 10-15 min nəfərlik çoxminli kontingent silahsızlaşdırıldı və ərazimizin üzərində tam nəzarət bərpa olundu. Qeyd olunan tədbirdə Prezident İlham Əliyevin vurğuladığı kimi, "Buna paralel olaraq, biz artıq Qarabağın erməni əhalisinin reinteqrasiya planını açıq şəkildə dərc etdik, bu plan internetdə də mövcuddur. Erməni əhalisinə öz evlərində qalmaqla bağlı çağırış edildi, çünki bizim tədbirlərin hədəfləri dəqiq xarakter daşıyırdı. Mülki infrastruktur, mülki obyektlər və mülki şəxslər zərər çəkmədilər. Artıq dediyim kimi, bütün tədbirlər 24 saatdan da az davam etdi. Bu müddət Ermənistanın qanunsuz hərbi birləşmələrinin tam şəkildə demoralizasiyası və mahiyyət etibarilə, təslim olması üçün kifayət etdi".

Uzun illər ərzində ilmə-ilmə işlənən, müxtəlif dövrlərdə Cənubi Qafqazla bağlı planları olan qüvvələrin dəstəyi ilə reallaşdırılmağa çalışılan "böyük Ermənistan" planı Azərbaycan liderinin uzaqgörən siyasəti, qətiyyəti və iradəsi sayəsində süquta uğradı, darmadağın edildi. Ermənilərin "ikinci erməni dövləti" xəyalları birdəfəlik məhv edildi.

Qarabağda Azərbaycan xalqının qanını tökmüş, Xocalıda soyqırımı törətmiş hərbi canilər artıq əli qandallı Bakıya gətirilmiş, onalara qarşı istintaq hərəkətlərinə başlanılmışdır. İnsanlıq əleyhinə ağır cinayətlər törətmiş bu müharibə canilərinə qarşı sərt və ədalətli cəzanın tətbiq olunacağı labüddür.

Son iyirmi il Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olmuşdur. Ölkə həyatının bütün sahələrində böyük uğurlar, misilsiz və qürurverici qələbələr əldə edilmişdir. Azərbaycanın zəngin iqtisadi, siyasi və hərbi potensialı yaradılmışdır. Bütün bu nailiyyətlərin təməlində ulu öndər Heydər Əliyevin başladığı və möhtərəm Prezident İlham Əliyevin inamla davam etdirdiyi uzaqgörən daxili və xarici siyasət xətti dayanır.

Bu məqamda Rusiyanın tanınmış ictimai xadimi, Beynəlxalq Avrasiya Hərəkatının rəhbəri Aleksand Duginin fikirlərinə istinad etmək yerinə düşər: "Düşünürəm, hal-hazırda İlham Əliyev dünyada bir nömrəli siyasətçidir. Son illər, ərzində, heç bir siyasi liderə İlham Əliyev qədər öz xalqı və dövlətinin milli maraqlarının müdafiəsi işinin öhdəsindən belə parlaq səviyyədə gəlmək nəsib olmamışdır."

***Elman NƏSİROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru, Milli Məclisin deputatı***

# 20 illik yüksəliş və tərəqqi marafonu

## *Bu davamlı yürüşdə ÜDM 22, iqtisadiyyat isə 4 dəfə artıb*




**Prezident İlham Əliyev ölkəyə rəhbərliyinin 20 ili ərzində fəaliyyətində "güclü iqtisadiyyat–güclü dövlət" prinsipinə əsaslanıb. Bunun üçün, ilk növbədə, iqtisadi strategiyanın imkanlarından maksimum yararlanıb. Hələ 2003-cü ildə Azərbaycan Prezidentinin səlahiyyətlərinin icrasını həyata keçirdiyi çox qısa bir müddətdə respublikamızın inkişaf prioritetlərini müəyyənləşdirən "Azərbaycan Respublikasında sosial–iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərman imzalayıb, az sonra davamlı və tarazlı inkişafın gerçəkləşməsinə yönələn "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nı (2004–2008-ci illər) təsdiqləyib.**

Prezident İlham Əliyev neft gəlirlərinin artdığı bir vaxtda makroiqtisadi sabitlik üçün müəyyən təhlükələrin, o cümlədən inflyasiya potensialının yarana biləcəyini nəzərə alaraq, "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" 2005-ci il 31 may tarixli Fərman imzalayıb. Milli iqtisadiyyatımızın neft bumu mərhələsinə hazırlığını reallaşdıran bu sənəddə dövlət büdcəsi xərclərinə nəzarətin gücləndirilməsi, neft ixracından əldə ediləcək vəsaitlərin səmərəli idarəsi və istifadəsi ilə bağlı məsələlər öz əksini tapıb.

Dövlət başçısının respublikaya rəhbərliyinin ilk illərində neft gəlirlərinin prioritet istiqamətlər üzrə səmərəli istifadə edilməsi zərurəti yaranmışdı. Elə buna görə də Prezident İlham Əliyev 2004-cü ildə "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"nı (2005-2025) təsdiq etməklə bu narahatlığı aradan qaldırdı, adıçəkilən sahədə gəlirlərin kəskin artması şəraitində makroiqtisadi sabitliyin qorunmasına, gəlirlərin bir hissəsinin gələcək nəsillər üçün saxlanmasına, onlardan əhalinin rifahının yüksəldilməsi üçün səmərəli istifadə edilməsinə, eyni zamanda, qeyri-neft sektorunun inkişafına yönəldilməsinə nail oldu.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli Fərmanı isə ölkədə iqtisadi potensialın hərəkətə gətirilməsində önəmli rol oynadı. Belə ki, adıçəkilən sənədin imzalanması ilə ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsi, bu sahəyə investisiyaların cəlb olunması, yeni emal müəssisələrinin yaradılması, ixracın stimullaşdırılması və alternativ enerji mənbələrindən istifadənin gerçəkləşdirilməsi prioritet vəzifələr kimi önə çıxdı.

Həmin dövrdə sahibkarlığın inkişafı və bazar mühitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirildi, dövlət müəssisələrinin özəlləşdirilməsi və idarəetməyə verilməsi sürətləndirildi, inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması və haqsız rəqabətin qarşısının alınması, kreditlər üçün girov təminatının təkmilləşdirilməsi, aqrar sektorda islahatların ikinci mərhələsinin başlanılması ilə bağlı layihələrin icrasına başlanıldı.

Belə bir vaxtda ölkənin maliyyə sisteminin təkmilləşdirilməsi də vacib məsələlərdən biri idi. Dövlət başçısı bu zərurətin gerçəkləşməsi məqsədilə hökumətin müvafiq qurumlarına dövlət büdcəsi xərclərinin strukturunun təkmilləşdirilməsi, dövlət büdcəsi vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə edilməsi, dövlət satınalmalarına nəzarətin gücləndirilməsi, dövlət müəssisələrində maliyyə intizamının möhkəmləndirilməsi ilə bağlı tapşırıqlar verdi və həmin istiqamətlərdə həyata keçirilən tədbirlərin icra vəziyyətini diqqətdə saxladı.

Bu məqamda onu da qeyd edək ki, həmin vaxt bazar iqtisadiyyatı şəraitində ölkənin dinamik inkişafı özəl bölməyə diqqət və qayğı tələb edirdi. Buna görə də, ilk növbədə, inhisarçılıq aradan qaldırılmalı idi. Əks halda, sahibkarlığı inkişaf etdirmək, bununla bağlı islahatları sürətləndirmək, qeyri-neft sektorunun və regionların inkişafını gerçəkləşdirmək, eyni zamanda, işsizliyi azaltmaq mümkün deyildi.

Beləliklə, dövlət başçısı İlham Əliyevin prezidentlik fəaliyyətinin ilk mərhələsində yuxarıda sadalanan bu və digər tədbirlər, eləcə də qarşıya qoyulan strateji məqsəd və vəzifələr, habelə orta və uzunmüddətli dövr üçün inkişaf istiqamətlərinin uğurla həyata keçirilməsi gələcək fəaliyyətin dəqiq müəyyənləşdirilməsini, müxtəlif sahələr üzrə fəaliyyət proqramlarının hazırlanmasını, nəticədə isə həyatın bütün sahələrində tarixi göstəricilərin əldə olunmasını şərtləndirdi.

Sonrakı mərhələlərdə isə dünyada cərəyan edən proseslərin yaratdığı yeni çağırışlara uyğunlaşmaq və mövcud qlobal iqtisadi böhranın ölkəmizə təsirini minimuma endirmək üçün iqtisadi islahatların əsas strateji hədəflərinə uyğun sistem xarakterli bir sıra tədbirlər həyata keçirildi, sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri üçün keyfiyyətcə yeni iqtisadi inkişaf modeli formalaşdırıldı. Bu isə makroiqtisadi sabitliyin qorunub saxlanılmasına, qeyri-neft sahələrinin, bütövlükdə regionların tarazlı inkişafının sürətlənməsinə, əlverişli biznes və investisiya mühitinin formalaşmasına, əhalinin sosial rifahının davamlı olaraq yaxşılaşmasına öz müsbət təsirini göstərdi.

Bu fikrin təsdiqi olaraq son 20 ilin müvafiq göstəricilərinə nəzər salaq: ötən müddət ərzində ÜDM-in nominal həcmi 22 dəfə artaraq, 133,8 milyard manat təşkil edib. İqtisadiyyat 4 dəfə böyüyüb, dövlət büdcəsinin gəlirləri 30 dəfədən çox artıb, xarici ticarət dövriyyəsində 10 dəfə artım qeydə alınıb.

Əhalinin gəlirləri 13,7 dəfə, strateji valyuta ehtiyatları isə 41 dəfədən çox artaraq 1,6 milyard dollardan 65,9 milyard dollara çatıb. Nəqliyyat, təhsil, enerji, turizm və digər sahələr üzrə infrastuktur yenidən qurularaq genişləndirilib, iqtisadiyyata 250 milyard dollardan artıq vəsait yatırılıb.

Bu müddətdə həyata keçirilən artım strategiyası sayəsində milli iqtisadiyyatın real həcmi 4 dəfə, ixrac isə 15,6 dəfə artıb. İqtisadiyyatın orta artım tempi dünya üzrə orta səviyyədən 4 faiz yüksək olub və Azərbaycan yuxarı orta gəlirli ölkəyə çevrilib. Neft gəlirləri sosial-iqtisadi inkişafa uğurla transformasiya edilib, iqtisadiyyatın fiziki və texnoloji infrastrukturu tamamilə müasirləşdirilib. Sürətli artım sayəsində əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlib, yoxsulluq səviyyəsi xeyli azalıb: 2003-cü ildə 383,1 manat təşkil edən orta aylıq əməkhaqqı hazırda 900 manat səviyyəsində qərarlaşıb. Bu illər ərzində 2 milyondan artıq iş yeri açılıb. Yoxsulluq həddi 49 faizdən 5 faizə qədər azalıb. Postmüharibə dövründə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 5250, bu il isə 750 mənzil və fərdi ev təqdim olunub.

Son 20 il ərzində ölkəmizdə əhalinin fasiləsiz elektrik enerjisi ilə təminatı, eləcə də bu sahə üzrə müasir infrastruktur quruculuğu siyasəti uğurla davam edib. Nəticədə 34 elektrik stansiyası inşa olunub və həmin stansiyaların generasiya gücü, təqribən, 3400 meqavata çatıb.

Azərbaycanın hazırda ümumi generasiya gücü 7200 meqavatdır, onun 3400 meqavatı son 20 ildə yaradılıb. Bu göstəricilər isə deməyə əsas verir ki, artıq ölkənin həm elektrik enerjisinə olan daxili tələbatı tam olaraq yerli istehsal hesabına ödənilib, həm də müəyyən həcmdə ixrac üçün potensial reallaşdırılıb. Beləliklə, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində elektrik enerjisində idxal çətinliyi aradan qaldırılıb, enerji sisteminin təhlükəsizliyi təmin edilib. Eyni zamanda, mövcud stansiyalar modernləşdirilib, dünya standartlarına cavab verən müasir qurğu və avadanlıqla təchiz olunub. Nəticədə stansiyaların faydalı iş əmsalı artıb.

Azad edilmiş torpaqlarda da bərpa-yenidənqurma işlərinə ilk növbədə, elektroenergetika sahəsindən başlanılıb və artıq 10-dan çox yarımstansiya, təqribən, bir o qədər də su elektrik stansiyası istifadəyə verilib. Ümumiyyətlə, Şərqi Zəngəzur bölgəsində 50 meqavatdan çox generasiya gücü yaradılıb və bu rəqəmin ilin sonuna qədər 200 meqavata çatdırılacağı planlaşdırılıb.

Hazırda sürətlə modernləşməkdə olan elektroenergetika sahəsi üzrə müasir infrastrukturun yaradılması, yeni texnologiyaların tətbiqi, enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirlər davam etdirilir, Azərbaycan regionda elektrik enerjisi ixrac edən aparıcı dövlətə çevrilir.

Prezident İlham Əliyevin 20 il ərzində həyata keçirdiyi enerji siyasəti də ölkəmizə böyük uğurlar qazandırıb. Neft hasilatının 63 faizini təşkil edən "Azəri-Çıraq-Günəşli" (AÇG) və əmtəəlik qazın təxminən 70 faizinin hasil olunduğu "Şahdəniz" yataqlarından indiyə kimi 580 milyon ton neft, 43 milyon ton kondensat çıxarılıb, 621 milyon ton neft-kondensat ixrac olunub. "Şahdəniz" yatağından hasil edilən 202 milyard kubmetr qazın isə 143 milyard kubmetri xarici bazarlara yönəldilib.

Dövlətimizin başçısının ölkəmizin təbii sərvətlərinin dünya iqtisadiyyatındakı yeri və rolunu düzgün dəyərləndirməsinin nəticəsidir ki, bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm önəm daşıyr. Ölkə rəhbərinin Cənub Qaz Dəhlizi (CQD) təşəbbüsü ilə respublikamız hazırda dünyada siyasi nüfuz sahibi və etibarlı tərəfdaş kimi tanınır.

Burada son 20 ilin ən mühüm hadisələrindən birini də xatırlatmaq yerinə düşərdi. Belə ki, bu dövrdə xatırlatdığımız CQD-nin 4 komponenti – "Şahdəniz-2", Azərbaycandan başlayaraq Gürcüstan-Türkiyə sərhədinə kimi uzanan Cənubi Qafqaz Boru Kəməri, qardaş ölkə ərazisindən keçən TANAP və Yunanıstan, Albaniya və İtaliyanı birləşdirən TAP-la bağlı prinsipial razılaşmalara əsasən, bu beynəlxalq əhəmiyyətli layihə uğurla tamamlanıb. Layihə dəyəri 40 milyard dollar həcmində dəyərləndirilən, uzunluğu 3,5 min kilometr olan CQD-nin 1,2 trilyon kubmetr ehtiyata malik "Şahdəniz" yatağından qazın hasilatını və Avropa bazarına ötürülməsini təmin etmək qarşıya mühüm vəzifə kimi qoyulub. Məhz Prezident İlham Əliyevin qətiyyəti, milli maraqlara əsaslanan düşünülmüş və prinsipial siyasəti ilə bu möhtəşəm tarixi layihə-CQD-nin icrası gerçəkləşdirilib.

CQD layihəsinin reallaşması nəticəsində Azərbaycanla bərabər, region ölkələri də hazırda sürətli iqtisadi inkişaf dövrünü yaşayır. Hazırda CQD vasitəsilə respublikamız Avropaya 10 milyard kubmetr qaz ixrac edir. Bu göstəricinin gələcəkdə 5 milyard kubmetr də artırılacağı nəzərdə tutulur.

Transanadolu (TANAP) və Transadriatik (TAP) kəmərləri vasitəsilə ixrac olunan qazın həcminin isə 2025-ci ildə "Şahdəniz" yatağından hasil olunan "mavi yanacağ"ın hesabına artırılacağı planlaşdırılır. Eyni zamanda, Azərbaycan yalnız öz qazının deyil, Türkmənistan "mavi yanacağ"ını da Avropaya nəql etməklə mühüm tranzit mövqeyə sahib ölkə kimi tanınır.

Azərbaycanda neft-qaz sahəsinin genişləndirilməsi ilə bərabər, həm də "yaşıl enerji" layihələrinin inkişafı diqqətdə saxlanılır. Bu, respublikamızın beynəlxalq tərəfdaşlarının ölkəmizlə əlaqələrini daha da gücləndirir. Yeri gəlmişkən, Azərbaycanın bərpaolunan enerji potensialı 27 qiqavatdan çox sahildə külək və günəş enerjisi və Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavat külək enerjisi təşkil edir. İşğaldan azad edilən Qarabağ və Zəngəzur iqtisadi zonalarında isə külək, günəş və hidroenergetika potensialı 10 qiqavatdan çoxdur. Bu əraziləri, eləcə də Naxçıvan Muxtar Respublikasını "yaşıl enerji" zonalarına çevirmək qarşıda mühüm vəzifə kimi dayanır. 2027-ci ilədək ölkəmiz 3 qiqavat külək və 1 qiqavat günəş enerjisi istehsal etməyi planlaşdırır ki, bunun da 80 faizinin ixraca yönəldiləcəyi nəzərdə tutulur. Azərbaycan 2037-ci ilədək əlavə enerji imkanlarının ən azı 6 qiqavat təşkil edəcəyini gözləyir.

Prezident İlham Əliyevin diqqət və qayğısı ilə respublikamızda kosmos sənayesi də sürətlə inkişaf edib. 2013-cü ildən başlayaraq ölkəmizin kosmosa buraxığı 3 peykdən 2-si telekommunikasiya məqsədləri üçün, digər 1-i isə yer səthini müşahidə funksiyasını həyata keçirib, 45-dən çox ölkə isə bu peyklərin xidmətlərindən istifadə edib.

Peyklərin kommersiya faydalarına gəldikdə isə deyə bilərik ki, dəyəri 233 milyon dollar olan "Azərspace-1" resurslarının 80 faizi kommersiya istismarındadır. Dəyəri 190 milyon dollar olan "Azərspace-2" isə Azərbaycan iqtisadiyyatına 400 milyon dollar gəlir gətirəcəyi gözlənilir.

"Azərkosmos"un gəlirlərinin əsas hissəsi peyk xidmətlərinin ixracından formalaşır. Bu qurum dövlət və qeyri-dövlət ixracatçı subyektləri arasında xidmət sektorunda ixrac həcminə görə ən yüksək nəticə ilə ilk sıralarda qərarlaşır.

Son 20 il ərzində ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən biri də yol infrastrukturunun müasir standartlara cavab verən səviyyədə yenidən qurulması olub. Bu mühüm vəzifənin uğurla icrası məqsədilə dövlət büdcəsindən hər il böyük həcmdə vəsaitlər ayrılıb. Həmin məbləğ hesabına respublikamızda dünya standartlarına cavab verən yüksək keyfiyyətli avtomobil yolları salınıb. Təkcə paytaxtımızda 2 min kilometrdən çox yol çəkilib, yenidən qurulub və təmir edilib. Bu dövrdə Bakı şəhərində 83 yol ötürücüsü, 99 yeraltı və yerüstü piyada keçidi inşa olunub.

Azərbaycanın şəhər və kəndlərində də yol infrastrukturunun yenidən qurulması diqqətdə saxlanılıb. 2003-cü ildən indiyə kimi respublikamızda 6,2 milyon nəfər əhali yaşayan, 2 min 210 yaşayış məntəqəsini birləşdirən kəndlərarası 5 min 100 kilometr uzunluğunda avtomobil yolu tikilib, yenidən qurulub və təmir olunub.

Bütövlükdə, 20 il ərzində ölkədə 21 min kilometrə yaxın avtomobil yolu, prospekt və küçədə yol infrastrukturu ilə bağlı çoxsaylı layihələr reallaşdırılıb. Bu dövrdə 499 körpü və yol ötürücüsü, 114 yeraltı və yerüstü piyada keçidi inşa edilib. Respublikada birinci texniki dərəcəli avtomobil yolunun uzunluğu 2003-cü ildəki 115 kilometrdən 1025 kilometrə çatdırılıb.

Hazırda işğaldan azad edilmiş ərazilərdə müasir yol-nəqliyyat infrastrukturunun yaradılması Prezident İlham Əliyev tərəfindən işğaldan azad edilən ərazilərin bərpası proqramı çərçivəsində əsas prioritetlərdən biri kimi müəyyənləşdirilib, düşməndən təmizlənən torpaqlarda qısa müddətdə minlərlə kilometr avtomobil yolu çəkilib.

Prezident İlham Əliyevin fəaliyyətində ölkənin etibarlı ərzaq təminatı prioritet istiqamət kimi diqqət çəkir. Bu məqsədlə davamlı tədbirlər həyata keçirilir. Dövlət başçısının "Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin yaradılması haqqında" 2021-ci il 7 oktyabr tarixli Fərmanı əsasında yaradılan Dövlət Ehtiyatları Agentliyi respublikanın strateji əhəmiyyətli mallarla, o cümlədən ərzaqlıq buğda ilə təchizatının dayanıqlılığını təmin etmək və daxili bazarda qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq istiqamətində səmərəli fəaliyyət göstərir.

Sonda ölkəmiz üçün taleyüklü bir hadisəyə də nəzər salmaq istərdik. Vətən müharibəsində əldə edilən tarixi zəfərdən sonra Azərbaycana qovuşan Qarabağımızın bərpası, dirçəldilməsi yolunda 3 il ərzində Prezident İlham Əliyevin tapşırıq, göstəriş və tövsiyələri ilə mühüm addımlar atılıb. Dövlətimizin başçısının imzaladığı müvafiq fərmanla işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri açılıb. Düşməndən təmizlənən yaşayış sahələri üzrə Strateji Fəaliyyət Planı hazırlanıb və vahid konsepsiya əsasında bütün ərazilərin və şəhərlərin bərpasına başlanılıb. Bütün bunlarla bərabər, bu ərazilərdə torpaq islahatının aparılması üçün yeni mexanizm və meyarlar öyrənilib, torpaqların su ehtiyatlarından səmərəli istifadə məsələləri araşdırılıb, həmçinin ölkə rəhbərinin tapşırığı ilə yaşayış məntəqələrimizin "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası əsasında qurulması istiqamətində mühüm layihələr gerçəkləşdirilib, keçmiş köçkün əhalinin öz dəbə-baba yurdlarına qayıdışına başlanılıb.

Azərbaycanın əzəli-əbədi bu yaşayış sahələrində sənayeləşmə prosesinin mərhələli şəkildə aparılacağı planlaşdırılıb. Abadlıq və quruculuq işlərinin həyata keçirilməsi üçün ilkin mərhələdə tikinti şirkətləri prosesə qoşulub. Əhalinin tezliklə işğaldan azad edilən yaşayış sahələrinə qayıdacağı nəzərə alınaraq, bu ərazilərdə məskunlaşan keçmiş məcburi köçkünlərin məşğulluğu, onların ərzağa olan tələbatının ödənilməsi xüsusi diqqətdə saxlanılıb. Bu baxımdan, növbəti mərhələdə kənd təsərrüfatı məhsullarının emalı, yüngül və qida sənayesinin formalaşdırılması prosesinin həyata keçiriləcəyi planlaşdırılıb. Laçın Aqro və Sənaye Parkının yaradılması istiqamətində layihələrin icrasına başlanılıb. Artıq innovativ və yüksək texnologiyalar əsasında qurulan "Ağdam Sənaye Parkı" və "Araz Vadisi İqtisadi Zonası" Sənaye parklarında da qarşıya sahibkarlığın dəstəklənməsinə nail olmaq, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunu təmin etmək kimi mühüm vəzifələr qoyulub.

Yuxarıda qeyd edilənlər bir daha onu göstərir ki, son 20 il ərzində ölkəmiz uğurla inkişaf edib, bütün istiqamətlər üzrə qarşıya qoyulan vəzifələr yüksək səviyyədə həyata keçirilib. Sosial, hərbi sahələrdə, eləcə də Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan genişmiqyaslı bərpa-quruculuq layihələrinin reallaşdırılmasında isə iqtisadi potensial mühüm rol oynayıb.

***Vaqif BAYRAMOV***
***XQ***

# İlham Əliyev söz savaşının da qalib komandanıdır

**Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 2020-ci ilin payızında aparılan Vətən müharibəsinin çoxdan gözlənilən böyük bir zəfərlə başa çatdırılmasında Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin televiziya vasitəsi ilə xalqa müraciətləri və xarici mediaya müsahibələri qələbənin zəruri informasiya təminatı olmaqla yanaşı, həm də çağdaş söz savaşının misilsiz örnəyi oldu.**



**Bu mövzuda müsahibimiz görkəmli dilçi akademik, Milli Məclisin deputatı, Atatürk mərkəzinin rəhbəri Nizami Cəfərovdur.**

***– Nizami müəllim, tarixən, Ana dilimiz milli varlığımızı yaşadıb, xalqın tale savaşında misilsiz söz silah olub. Tariximizin ən çətin və şərəfli davası olan Qarabağ uğrunda Vətən müharibəsində də söz savaşı mütəşəkkilliyi və mübarizliyi ilə ən yüksək səviyyədə aparıldı. Prezident İlham Əliyevin savaş əmrindən Qələbə təbrikinədək hər sözü, hər cümləsi çağdaş söz savaşının da parlaq örnəyi oldu.***

– Prezident İlham Əliyev, ümumiyyətlə, bütün çıxış və açıqlamalarında ana dilimizə sevgi və sayğının, dil normalarına əməl edilməsinin ən yüksək nümunəsini sərgiləyir. Onun Ali Baş Komandan kimi müharibə dövrü nitqi isə müasir söz silahları, dil sursatı cəbbəxanası təsiri bağışlayırdı. Onun ana dilimizdə ifadə olunmuş irili-xırdalı bütün açıqlamaları, bir neçə baxımdan tarixi önəm daşıyırdı. Onlardan biri də ana dilimizin həmin müraciətlərdə öz zəngin fonetik, leksik və qrammatik imkanları səviyyəsində təzahürü və ya iştirakı idi.

Prezidentin müraciətləri, bir tərəfdən, cəbhədə gedən proseslər, əldə edilən qələbələr barədə ətraflı məlumatlar verir, digər tərəfdən, xalqın mübarizə ruhunu, qələbə əzmini yüksəldir və nəhayət, üçüncü tərəfdən, gözlərimiz qarşısında cərəyan edən tarixi hadisələri idarə edə-edə siyasi, ictimai və fəlsəfi mahiyyətini anladırdı. Və milli dövlətçilik mədəniyyəti baxımından çox rəmzi və heyranedici idi ki, Azərbaycan Respublikasının dövlət dili – Azərbaycan dili respublikanın ərazi bütövlüyü uğrundakı mübarizəyə ilk günlərdən səfərbər olunmuşdu! Daha doğrusu, bu müharidə Ali Baş Komandanın ana dili ilə ifadə olunmuş əmri ilə başlanmışdı.

Ümumiyyətlə, dilin zənginliyi, refleksiya imkanlarının genişliyi ondadır ki, xalqa düşdüyü hər hansı fövqəladə hərəkət və idrak situasiyasında inamla xidmət edə, lazımi sözü, ifadəni, sintaktik konstruksiyanı rahatlıqla ortaya qoya, dinləyənlərin – cəmiyyətin şəxsində isə rezonans verərək sosial əhval-ruhiyyə yarada bilsin. Prezident İlham Əliyevin xalqa müraciətləri içərisində eləsi olmadı ki, öz ifadə texnologiyaları baxımından geniş reaksiya doğurmasın. Kommunikasiya nəzəriyyəsinə görə, nitq ünsiyyəti o halda uğurludur ki, adresantla adresat arasında söhbətin nədən getdiyi barədə tam miqyaslı anlaşma var.

***– Əslində, II Qarabağ müharibəsi düşmən tərəfin söz savaşı açmasından qaynaqlanmışdı. Erməni baş nazir sərsəmləyib demişdi: "Qarabağ Ermənistandır və nöqtə". Düşmənin müdafiə naziri ABŞ-da lovğalanıb bildirmişdi ki, Azərbaycan müharibəyə başlasa yeni ərazilər itirəcək.***

– Bəli düşmənin açdığı söz savaşı bu müharibənin detanatoru rolunda çıxış etdi. Üstəlik, irimiqyaslı hərbi təxribat da törədildi. Azərbaycan cəmiyyətinə uzun illərin təcrübəsindən aydın idi ki, ermənilərin orta əsrlərin sonlarından etibarən məlum etnik separatçılıq hərəkətlərinin davamı olaraq gəlib çıxdığı şovinist təcavüzkarlığın nəticəsi kimi Ermənistan artıq həddini aşmışdı. Məsələni həll etməli olan beynəlxalq missiyaların siyasi deqradasiyaya uğraması imkan vermişdi ki, Ermənistanın ölkə başçısı məsuliyyətini itirərək sərsəmləsin...

Azərbaycan Prezidentinin xalqa müraciətləri Prezident – Xalq qarşılıqlı anlaşma-ünsiyyətinin bir də ona görə klassik nümunəsi idi ki, praktik olaraq Vətən müharibəsinin hüdudlarını da aşaraq, başlanğıcdan sona qədər öz kommunikativ effektini nəinki itirmədi, əksinə, bu gün də Xalqda belə bir təsəvvür var ki, həmin müraciətlər heç zaman bitməyəcək...

Azərbaycan Prezidenti, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin xalqa ilk müraciəti sentyabrın 27-də oldu. Müraciət belə başladı: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən, ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir".

Prezident sonra əlavə etdi: "Ermənistanın bizə qarşı təxribatları bu faktlarla bitmir. Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının "andiçmə" mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər. Bu yaxınlarda qondarma "Dağlıq Qarabağ respublikası" parlamentinin qədim Azərbaycan şəhəri – Şuşaya köçürülməsi haqqında qərar qəbul edildi. Bu, növbəti təxribatdır. Mən artıq bir neçə dəfə demişdim, o cümlədən, bu yaxınlarda BMT kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır və dayandırılacaqdır".

***– Əlbəttə, Prezidentin yaranmış situasiyanı bu incəliklə və dəqiqliklə ifadə etməsi göstərirdi ki, artıq Azərbaycanın öz ərazi bütövlüyünü öz gücünə, hərbi yolla müdafiə etməkdən başqa yolu qalmayıb.***

– Xalqımızda bir deyim var: "Vur deməklə vurmaq yarıdır". Bu müraciət də "vur!" demək idi. Ona görə niyə vur deyildiyi də əsaslandırılırdı. Lakin başqa məlumatlar da var idi ki, hər biri bütün detalları ilə xalqın nəzərinə çatdırılırdı.

Təcavüzə məruz qalan tərəfə gəldikdə isə Prezident dedi: "Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır".

Azərbaycan Prezidenti xalqa müraciətini tarixə əbədi olaraq yazılmış bu sözlərlə tamamladı: "Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

***– Beləliklə, hər cəhətdən təmkinli, müharibənin qaçılmaz olduğunu etiraf, qələbənin isə yaxında olduğunu sübut edən, Ermənistanın günahı ucbatından baş verən hadisələrin mahiyyətinə varan, ən əsası isə, Azərbaycanın öz ərazi bütövlüyünü, xüsusilə Qarabağ uğrunda müharibəsinin haqq işi olduğunu təsdiqləyən bu müraciətlə ana dilimiz də Vətən müharibəsinə daxil oldu.***

– Bu müharibənin gedişində Azərbaycan Prezidentinin xalqa oktyabrın 4-dəki ikinci müraciət ilk qələbə xəbərləri ilə başladı: "Əziz həmvətənlər. Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm". Prezident hər cəhətdən real, qələbə sevinci bəxş edən informativ məzmunlu mükalimələrdən sonra, Vətən müharibəsinin uğurla getdiyini elan etdi. Məsələ burasındadır ki, Azərbaycan xalqı Ali Baş Komandana inanırdı, işğal olunmuş ərazilərin ya sülh, ya da hərb yolu ilə qayıdacağına əmin idi. Bununla belə, mövcud beynəlxalq münasibətlər şəraitində heç də birbaşa hərəkət etmək, problem ətrafındakı vəziyyəti hər dəfə xalq-iqtidar məsləhətləşmələri səviyyəsindən izah eləmək mümkün deyildi.

Azərbaycan ordusu isə bir həftə idi ki, başlamış, nəinki ölkədə, regionda, bütün dünyada böyük əks-səda vermiş "problemin hərbi həlli yoxdur" mifini bir andaca altüst etmiş hücumu ilə artıq tarix yazırdı: "Bilirsiniz, bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır. Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq".

Ümumiyyətlə, müraciət mətnlərinin dili üzərindəki araşdırmalar göstərir ki, Prezident Azərbaycan xalqının, Azərbaycan Ordusunun gücünü, qüdrətini həmişə qeyd edirdi, ancaq hər dəfə bu gücün, qüdrətin missiyasının məhz vicdanlı sülh yaratmaqdan ibarət olduğunu deyirdi: "Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq. Biz ermənilər tərəfindən bizim tarixi adlarımızı dəyişdirib tarixi saxtalaşdırmaq, eyni zamanda, Azərbaycan xalqının tarixi-mədəni irsini silmək cəhdlərinə son qoyduq. Bizim yaşayış məntəqələrinin tarixi adları bərpa edilir və bərpa ediləcəkdir. Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir".

Göründüyü kimi, bu müraciətdə siyasi ritm nə qədər güclü olsa da (ən azı ona görə ki, burada öz ərazi bütövlüyünü təmin edən bir ölkənin haqlı iddialarından bəhs edilir), bundan da aparıcı, bundan da miqyaslı elə bir etno-tarixi intonasiya var ki, onu "biz haqq yolundayıq" hökmündən daha mükəmməl şəkildə ifadə etmək çətindir. Prezidentin müraciət nitqləri üçün ən səciyyəvi məqamlardan biri vaxtaşırı ümumiləşdirmələrdən zaman-zaman konkret hadisələrə keçilməsidir ki, bunun nə qədər böyük əhəmiyyəti olduğu üzərində dayanmağa, yəqin ki, xüsusi ehtiyac yoxdur.

Hər şeydən əvvəl, ona görə ki, şəhərlərimiz, kəndlərimiz, dağlarımız, çöllərimiz, çaylarımız, göllərimiz və s. bir-birinin ardınca azad olur ki, onlar azğın düşmən tərəfindən nə qədər dağıdılıb tarmar edilsələr belə, sadəcə, adlarının çəkilməsi, Azərbaycan əsgərinin əlində olması barədə ən yüksək səviyyədə məlumat verilməsi xalqın ruhunu yerindən oynadır: "Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Dünən bizim qədim yaşayış yerimiz – Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşlarını saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını töküb. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi. Bu gün Azərbaycan xalqı sevinc içindədir".

***– Ali Baş Komandanın bu müraciətləri Qələbə gününədək xalqı mübarizəyə ruhlandırdı, ermənipərəst dairələri cavablandırıb zərərsizləşdirdi, Azərbaycan əsgərini od-alovun üstündən irəli apardı.***

– Prezident azərbaycan həqiqətlərini ballistik raketə çevirib düşmənin başına yağdırırdı. Hücumun bu vüsəti azərbaycan əsgərini şirə, pələngə çevirirdi. 30 il ərzində aparılan danışıqların, bu qədər uzun müddətdə Azərbaycan xalqının heysiyyatı ilə oynamaq cəhdlərinin yolverilməz olduğunu bir daha nəzərə çatdıran Prezident xatırladırdı: "27 il ərzində biz bütün dövrlərdə – danışıqların bütün dövrlərində konstruktiv mövqe göstərmişdik, ədalətli mövqe göstərmişdik. Ancaq bunun müqabilində nə gördük? Təcavüzkar daha da azğınlaşıb. Təcavüzkarın tamahı daha da böyüyüb, bizim dədə-baba torpağımıza göz dikib. Nəticədə işğal edilmiş bütün torpaqları qondarma "Dağlıq Qarabağ respublikası"na aid edib, yeni xəritələr dərc edib və bu xəritələrdə işğal edilmiş bütün ərazilər Dağlıq Qarabağ kimi təqdim edilir. Ondan sonra nə oldu? Ondan sonra bəyan etdilər ki, bir qarış torpağı Azərbaycana qaytarmayacağıq".

Yeri gəlmişkən, xalqa müraciətlərin mətnlərində həm birbaşa, həm də dolayısı ilə çox tez-tez ifadə olunur ki, nə Azərbaycan xalqı, nə də Azərbaycan Prezidenti "Qarabağ Ermənistandır və nöqtə" sözlərini heç kimə güzəştə gedə bilməzdi: "Mən Minsk qrupunun həmsədr ölkələrinə, həmsədr olan səfirlərə, digər beynəlxalq təşkilatlara, Avropa İttifaqının nümayəndələrinə dəfələrlə demişdim ki, Ermənistana təsir edin, sanksiyalar tətbiq edin, təzyiq edin. Belə olmaz. Əgər güclü təsir olmasa, Ermənistan daha da azğınlaşacaq, daha da quduracaq, yeni iddialar ortaya atacaq. Eşitmədilər məni. Mən istəyirdim bu məsələ sülh yolu ilə həll olunsun. Eşitmədilər. Ermənistanın baş naziri gedib Şuşada, Cıdır düzündə rəqs edir, hesab edir ki, biz bununla barışacağıq?! Səhv edir! Heç vaxt biz bununla barışmayacağıq". Bax, Prezidentin bu qətiyyəti idi hərbçilərimizi qələbəyə səsləyib ölümün üstündən addımladan.

***– Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan xalqına noyabrın 8-dəki altıncı müraciəti xüsusi tarixi əhəmiyyət daşıyırdı və birbaşa Şəhidlər Xiyabanından edildi: "Əziz həmvətənlər, əziz bacılar və qardaşlar! Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm".***

– Xalqımız bu müraciəti heç vaxt unutmayacaq. Bu xalqın 35 illik əzablarına təsəlli gətirən bir muştuluq idi Prezident Qələbənin Şuşa zirvəsindən bəyan edirdi: " İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox".

Qarabağın tacı olan Şuşanın əsarətdən azad olunması, əslində, düşmənin məğlub edilməsi, qırx dörd gün davam edən müharibənin bitməsi demək idi. Odur ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan bu dəfəki müraciətini Azərbaycan xalqı üçün müqəddəs olan bir məkandan etmişdi: "Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada – Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Mən bu gün, eyni zamanda, Ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"

Azərbaycan Prezidentinin dediyi aşağıdakı sözlər belə bir faktı təsdiq edir ki, müharibənin gedişi günlərində Prezidentin xalqa müraciətlərini xalqın onun tarixi arzusunu qəhrəmanlıqla həyata keçirməkdə olan Prezidentə, müzəffər Ali Baş Komandana kütləvi müraciətləri müşayət etmişdir: "Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!"

Bu sözlər isə Azərbaycan tarixində Səfəvilər dövründən sonra ölkəmizin ərazi bütövlüyünü təmin etmiş yeganə dövlət başçısının sözləridir. Və bu sözlərdə ifadə olunan çoxlu mənaların əsası odur ki, xalq-iqtidar birliyi Azərbaycanın yeni tarixini yaradır: "Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam. Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

***– Savaş günlərində Prezident İlham Əliyev dünyanın nüfuzlu informasiya vasitələrinə müsahibələrində də lideri olduğu xalqın ərazi bütövlüyü uğrunda apardığı mübarizənin heç bir şübhə doğurmayan həqiqətini bəyan edirdi.***

– Bəli müzəffər ordunun Ali Baş Komandanı söz cəbhəsinin də komandanı kimi yorulmadan bütün dünyaya çatdırırdı ki, bu həqiqət hansısa subyektiv, yaxud separatist marağın ifadəsi yox, beynəlxalq, humanist tələblərdən, BMT-nin əsaslandığı birgəyaşayış prinsiplərindən irəli gələn obyektiv təzahürdür. Ermənistan öz təcavüzkar "rəhbərlər"inin şəxsində bütövlükdə, insanlığa qarşı cinayət işlətmiş, haqq-ədaləti tapdalamış, cəzasız qalacağını güman edərək get-gedə daha da azğınlaşmışdır...

Hər kəs görürdü ki, Prezidentə verilən suallarda həmin həqiqəti ortaya çıxarmaq əvəzinə onu dumanlandırmaq, "əzabkeş erməni" mifini müdafiə eləmək istəyi daha çox qabardılır. Lakin onu da görməmək mümkün deyildi ki, İlham Əliyev elə ilk kəlmələrindən bu mifi dağıdır, erməni faşizminin iç üzünü açıb göstərir, özbaşınalığı, cinayətkar rejimi, havadarlarına güvənərək qəsbkarlığın miqyasını daha da genişləndirmək barədə xam xəyallara düşən Paşinyan qudurğanlığını ifşa edir. Ola bilsin ki, müəyyən qədər qəribə səslənsin, ancaq mənə elə gəlir ki, Azərbaycan Prezidentinin rus, eləcə də ingilis dilindəki müsahibələrinə ana dilinin ruhu çökmüşdü. Və dərindən mənimsədiyi bu dillərdə də Prezident Azərbaycan həqiqətlərini əks etdirdiyi üçün məhz Azərbaycan həqiqətinin dili ilə "azərbaycanca danışırdı".

Heç kimə sirr deyil ki, XX əsrin sonu, XXI əsrin ilk illərində Ulu öndər Heydər Əliyev ölkədə, eləcə də beynəlxalq aləmdə Azərbaycan dilinin siyasi mövqeyini, nüfuzunu görünməmiş bir səviyyəyə yüksəltdi. Həmin ənənəni davam etdirən öndər Atanın varis Oğlu xalqa müraciətlərilə ana dilinə müzəffər bir ordunun Ali Baş Komandanının nitq enerjisini qazandırdı. Elə bir enerji ki, dilimizin və xalqımızın buna ehtiyacı var idi. Uzun illər məişət sferası ilə hüdudlanmış ifadələr 44 günün içində ərazi bütövlüyü uğrunda mübarizə tariximizin "açar sözlər"inə çevrildi: "Cəbrayıla yol çəkirdin, sərxoş olub Cıdır Düzündə rəqs edirdin, nə oldu bəs, məsciddə donuz saxlayanın özü donuzdur, başından elə vurmuşuq ki, cəhənnəmə getdi, gora getdi, gorbagor oldu, iti qovan kimi qovmaq, siçan kimi deşik axtarmaq, ora-bura zəng eləmək , yoxdur status-kvo, yoxdur təmas xətti, hamısını vurub dağıtmışıq, dəmir yumruq, nəyi nə vaxt etməyi Mən bilirəm, nə demişik, onu da eləmişik... Xalq dilinin dərinliklərindən çıxarılaraq ehya edilmiş, tarixi mübarizənin tərcümanına çevrilmiş həmin ifadələri, yəqin ki, ən modern, ən rəsmi, ən normativ söz-terminlər belə bu enerji və səmimiyyətlə əks etdirə bilməzdi.

Məsələnin mahiyyəti isə bundan ibarətdir ki, yuxarıda yalnız az bir hissəsini xatırlatdığımız ifadələri beynəlxalq dillərin ən modern, ən rəsmi, ən normativ terminologiyasını müfəssəl bilən, tarixi qələbəmizi heç kimin təsəvvür edə bilməyəcəyi layihə gücündə həyata keçirən bir Lider işlətdi – Sözümüzün Ali Baş Komandanı! Bu söz savaşı Qələbəyə misilsiz dəstək qazandırdı.

**– Maraqlı müsahibə üçün sağ olun.**

***Söhbəti hazırladı:***
***Tahir AYDINOĞLU***
***XQ***



Srağagün Şuşada yenə də ruh oxşayan çal-çağır vardı. Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumunun iştirakçıları üçün təşkil olunan "Dövri-səda" adlı konsert proqramının səsi-sədası ətrafa yayılırdı. Şən mahnılar, oynaq rəqslər azadlığına qovuşmuş mədəniyyət paytaxtı Şuşanın üzünü güldürürdü. Muğam-sənət beşiyimiz ona yaraşan təmtəraqla bir daha Azərbaycanın Zəfər təntənəsini təcəssüm etdirirdi.

***Xalqımızı xalq kimi, millət kimi qoruyub saxlayan bizim ənənələrimiz olub, tariximiz olub, ədəbiyyatımız, ana dilimiz və mədəniyyətimiz olubdur. Mədəniyyət, ədəbiyyat, milli musiqi, ana dilimiz tarixi keçmişimizdir – biz bu sahələrə böyük diqqət göstərməliyik.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Yeni əsrin yenilikçi dövlət rəhbəri

Artıq 3 ildir ki, Cıdır düzü ortaq türk mədəniyyətini dünyaya təbliğ edən platformaya çevrilib. Bu səadəti Cıdır düzünə, Şuşaya, Azərbaycana 20 ildən bəri qərar tutduğu Prezident kürsüsünü şərəfləndirən dövlət başçımız, böyük sərkərdəmiz İlham Əliyev bəxş edib.

...Düz 20 il öncə ulu öndər Heydər Əliyev prezident seçkilərində namizədliyini İlham Əliyevin xeyrinə geri götürdüyünü bəyan edəndən 2 həftə sonra – oktyabrın 15-də keçirilən seçkilərdə cənab İlham Əliyev səs çoxluğu ilə dövlət başçısı vəzifəsinə seçildi. Daha 2 həftə sonra isə təntənəli andiçmə mərasimində rəsmən bildirdi ki, Heydər Əliyev siyasətini davam etdirəcək. Çünki bu siyasətin Azərbaycanda alternativi yoxdur. Elə də oldu və hazırda ölkəmiz bütün sahələrdə inkişaf edir, uğurlar qazanır.

Bu yüksək tərəqqi elm, təhsil və mədəniyyətdən də yan keçməyib. İlham Əliyevin Prezidentliyinin ilk 5 ilində təkcə mədəniyyətlə bağlı məsələlərə 900 milyon dollar vəsait xərclənib və bütün tarixi binalar, muzeylər, teatrlar təmir olunub. Bu sahə daim dövlətin güclü himayəsi altındadır. Ölkəmizdə mədəniyyət siyasətinə ayrılan büdcə vəsaitləri ilbəil artır.

Özünün fenomenal qabiliyyəti ilə milli dövlətçiliyimizi daha da möhkəmləndirən ölkə başçısı demokratiyanın milli mədəniyyətimiz və mentalitetimizlə, həmçinin, müsəlman sosial-psixoloji kimliyimizlə uzlaşan bir dəyər və yaşam tərzi olduğunu sübut edib, intellektual əsaslarda yeni modernist cəmiyyət formalaşdıra bilib. Azərbaycançılıq fəlsəfəsi İlham Əliyev siyasətinin mənəvi dayağına çevrilib. Milli ləyaqət, milli qürur uğurlarımızın əsas şərtləri olub.

Prezidentimizin mübarək imzası ilə qəbul edilən dövlət proqramları Ulu öndərin əsasını qoyduğu müstəqil mədəniyyət siyasətinin hazırda daha geniş miqyasda həyata keçirildiyini göstərir. Kino, teatr, musiqi, tətbiqi sənətin inkişafı, tarixi abidələrin qorunması və bərpası bu sıradadır. Ötən 20 ili biz inamla Azərbaycanda mədəniyyətin dirçəliş və intibah dövrü kimi dəyərləndirə bilərik.

Yeni əsrdə ölkəmizdə yüksək vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb. İşğaldan sonra doğulan gənclər Qarabağ uğrunda mübarizəyə ürəklə atılaraq, əzəli torpaqlarımızı düşmən tapdağından təmizlədilər. "Qarabağ Azərbaycandır!" şüarı onların qanı və canı bahasına cəmi 44 günə gerçəyə çevrildi. Ötən ay isə 24 saatdan da az müddətdə ölkəmizin ərazi bütövlüyü tam bərpa edildi. Əlbəttə, bütün bunlar nəyi nə vaxt və necə etməyi gözəl bilən dövlət başçımızın mahir idarəetmə siyasətinin sayəsində mümkün olub. İlham Əliyevin Ali Baş Komandanı olduğu Silahlı Qüvvələrimizin dünyaya səs salan peşəkar nailiyyətlərinin özəyində isə ilk növbədə məhz yüksək vətənpərvərlik mədəniyyəti dayanır. Elə dünyada tanınmış kulturoloqlar da təsdiq edirlər ki, çoxvektorlu siyasət meydanında ən düzgün gediş, ən doğru məqam, ən yaxşı yolun seçilməsi yüksək diplomatiya mədəniyyətinə dəlalət edən amildir.

Azərbaycanın bugünkü uğurlarında məhz milli-mənəvi dəyərlərimizin rolu danılmazdır. Ölkəmizin dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoq və tolerantlıq məkanı kimi tanınması, sözsüz ki, Prezident İlham Əliyevin məxsusi xidmətidir.

UNESCO, İSESCO və digər beynəlxalq təşkilatlar səviyyəsində Azərbaycanın yüksək sivilizasiyalı bir ölkə olduğu dönə-dönə etiraf edilib. Bir çox mədəniyyət abidələrimizin, çoxəsrlik tarixə malik incilərimizin UNESCO-nun maddi və mənəvi irs siyahısına salınması da bunun sübutudur. Yeri gəlmişkən qeyd edək ki, Prezident İlham Əliyevin mədəniyyət siyasətinə ən güclü dəstək Birinci vitse-prezident, mötəbər beynəlxalq təşkilatların xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən göstərilir. Elə görkəmli sənət adamlarımızın, elm xadimlərimizin yubileylərinin UNESCO səviyyəsində qeyd olunmasının özü mədəniyyətə misilsiz xidmətdir. Heydər Əliyev Fondu illərdir ki, "Tolerantlığın ünvanı — Azərbaycan" layihəsini uğurla həyata keçirir. Layihə çərçivəsində hətta xaricdəki dini abidələrdə, ziyarətgahlarda və tikililərdə təmir-bərpa işləri aparılır, mövzuya aid sərgilər təşkil olunur. Şuşa işğaldan azad edildikdən sonra Azərbaycan tərəfindən oradakı digər dini abidələrlə yanaşı, ermənilərin Qazançı kilsəsi də əsaslı təmir olunub.

Fəxrlə xatırlayırıq ki, İSESCO-nun qərarı ilə 2009-cu ildə Bakı İslam Mədəniyyətinin Paytaxtı elan olunub və bir sıra tədbirlərin məkanına çevrilib. Bu, Azərbaycan mədəniyyətinin İslam dünyasına inteqrasiyasında, mədəniyyətlərarası dialoqun genişləndirilməsində, islam həmrəyliyinə nail olunmasında Bakının danılmaz rolunun təsdiqidir.

Prezident İlham Əliyevin dəstəyi ilə yaranmış Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyəti xüsusilə təqdirəlayiqdir. Bəşəri dəyərlər carçısı, Azərbaycan mədəniyyətinin parlaq siması olan bir dahinin adını daşıyan bu Mərkəz artıq dünyada tanınan humanitar qeyri-hökumət təşkilatıdır və öz ətrafında müxtəlif ölkələrin keçmiş dövlət və hökumət başçılarını, nüfuzlu beynəlxalq ekspertləri birləşdirir. Mərkəzin Avropa qitəsinin 25 ölkəsindən 53, Amerika qitəsinin 2 ölkəsindən 6, Asiya qitəsinin 12 ölkəsindən 15, Afrika qitəsinin 4 ölkəsindən 5 görkəmli üzvü var. Qurumun əsas məqsədi dünyada sülh, dinc birgəyaşayış, ədalətin bərqərar olunması naminə həyata keçirilən qlobal tədbirləri, fəaliyyətləri dəstəkləməkdir. Eyni zamanda burada Nizami irsi geniş araşdırılır, şairin elmi-fəlsəfi görüşləri tədqiq olunur və əsərlərinin müxtəlif dillərə tərcüməsi, ensiklopediyasının hazırlanması işləri həyata keçirilir. Mərkəzin xəttilə fəaliyyətdə uğur qazanan şəxslərə 2012-ci ildən etibarən "Nizami Gəncəvi beynəlxalq mükafatı" verilir. Vətən müharibəsi zamanı qədim Gəncə Ermənistan tərəfindən ballistik raketlərlə atəşə tutulanda bu təsisat "Nizami Gəncəvinin doğma şəhərini qoruyaq" adlı kampaniya keçirmiş, terrorizm qurbanları ilə həmrəyliyini göstərmişdi. Prezident İlham Əliyevin bu mərkəzə xüsusi diqqəti var.

Azərbaycanın milli-mədəni yüksəlişi dinamik prosesdir. Bu proses davamlı səciyyə daşıdığı üçün perspektivə hesablanır. Təsadüfi deyil ki, cari ildə ölkəmizdə kino, teatr, Azərbaycan dili və ədəbiyyatı üzrə silsilə forumlar keçirilib. Bunda məqsəd yaradılan yeni mədəniyyət strategiyası üçün fikir və mülahizələri, rəy və təklifləri kompleksləşdirməkdir. Yaxın vaxtlarda musiqi və rəssamlıqla da bağlı forumlar keçirmək nəzərdə tutulur. Dilin təmizliyi, ədəbiyyat və incəsənətin dünya arenasına çıxarılması, uşaq ədəbiyyatının zamanın tələbləri ilə səsləşməsi, bütün bu sahələrin qarşılıqlı əlaqələri üzrə polemikalar məhz mədəni yüksəliş planlarına xidmət edir.



Ötən 20 ildə ölkəmizdə dövlət qayğısı ilə çoxlu yeni mədəniyyət ünvanı pərvəriş tapıb: Beynəlxalq Muğam və Müasir İncəsənət mərkəzləri, Xalça muzeyi qapılarını sənətsevərlərin üzünə açıb. Dövlət Film Fondu üçün gözəl bina tikilib. Kinostudiyanın, Nizami Kino Mərkəzinin, paytaxtımızdakı muzey və teatrların əsaslı təmiri mədəniyyətimizə göstərilən böyük qayğının ifadəsi kimi olduqca əhəmiyyətlidir.

Möhtərəm Prezidentimizin ənənəvi dəyərlərə sədaqəti və müasirləşmə amalı da dünyaya bir nümunədir.

Mədəniyyətə dövlət qayğısının bir təzahürü də əsrin əvvəllərində Ulu öndərin imzaladığı fərmanla Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının yaradılmasıdır. Əvvəllər rəssam kadrların hazırlanması üçün Azərbaycanda ali təhsil ocağı olmayıb. Rəssamlarımız əsasən Rusiyanın müxtəlif şəhərlərindəki institutlarda oxuyublar. Ona görə də müstəqil Azərbaycanın Rəssamlıq Akademiyasının açılması ölkənin mədəni həyatında tarixi hadisədir. Artıq 20 ildir ki, Akademiyada yüksək ixtisaslı rəssam kadrlar yetişdirilir.

Prezident İlham Əliyev mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərimizi Azərbaycan cəmiyyətinin aparıcı təbəqəsi, elitası hesab edir və sənət adamlarından qayğısını əsirgəmir. Təbii ki, onlar da dövlət başçımızın siyasi kursunu dəstəkləyir, Azərbaycanın parlaq gələcəyi, mədəniyyətimizin inkişafı üçün əllərindən gələni edirlər.

Bu gün artıq Azərbaycan əsl festivallar diyarına çevrilib. Hər il dövlətin dəstəyi ilə kino, musiqi, teatr və digər sahələr üzrə neçə-neçə mötəbər beynəlxalq tədbir keçirilir, xarici qonaqlar yurdumuzun gözəllikləri ilə bərabər, mədəniyyətimizin tərəqqisinin də canlı şahidi olurlar.

Dörd il əvvəl mədəniyyət və incəsənət xadimləri ilə geniş formatda görüş zamanı Prezidentin bu vəzifədə imzaladığı ilk sərəncamlarından birinin məhz Azərbaycan klassiklərinin əsərlərinin latın qrafikası ilə çap edilməsi ilə bağlı olduğu minnətdarlıqla xatırlanıb. Həmçinin görkəmli mədəniyyət xadimlərinin – Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Niyazi və digərlərinin abidələrinin qoyularaq xatirələrinin əbədiləşdirildiyi qeyd edilib. Həmin görüşdə problemlərdən də danışılıb və cənab İlham Əliyev sonda təklif edib ki, belə təmaslar bu və ya digər formatda müntəzəm olaraq keçirilsin, sistemli xarakter alsın, yaradıcı ictimaiyyətimizin bütün qayğıları öz həllini tapsın. Təsəvvür edin: başqa ölkələrin rəhbərləri ilə belə görüşlərdə, bir qayda olaraq, bunu tərəf-müqabillər xahiş edirlər, bizdə isə Prezident özü məsləhət görür ki, gəlin, tez-tez görüşək.

Vətən müharibəsində böyük qələbədən sonra Şuşanın dirçəldilməsi, oradakı abidələrin bərpası, "Xarıbülbül" festivalı və Vaqif Poeziya günlərinin yenidən gündəmə gəlməsi, bu şəhərin ötən il Azərbaycanın, bu il Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi (gələn il üçün də Şuşa İslam dünyasının mədəniyyət paytaxtı seçilib) başlıca olaraq dövlətimizin mədəni siyasətinin uğurudur.

Mütəfəkkir şair Molla Pənah Vaqifin erməni vandalları tərəfindən dağıdılmış məqbərəsinin bərpadan sonra açılış mərasimində və daha sonra Vaqif Poeziya məclisində Prezident İlham Əliyevin çıxışı (41 il əvvəl də cənab İlham Əliyev Ulu öndərlə birlikdə eyni tədbirdə iştirak edib) gözəl ənənələrin davamı kimi təqdirəlayiq hadisədir. Məqbərənin yaradılmasının sıradan bir hadisə olmadığını vurğulayan dövlət başçısı deyib: "Molla Pənah Vaqif təkcə şair yox, eyni zamanda, Qarabağ xanının vəziri idi. Sovet dövründə sovet ideologiyası, sovet hökumətinin tarixlə bağlı yanaşması belə idi ki, xanlıqlar tarixin qara ləkəsi kimi qələmə verilirdi. Bütün bunlara baxmayaraq, ulu öndərin iradəsi və qətiyyəti nəticəsində bu məqbərə ucaldılmışdır və bir daha Şuşanın Azərbaycan şəhəri kimi təsdiqi öz yerini tapmışdır".

Mədəni yüksəliş ab-havası Naxçıvanda, Gəncədə, Lənkəranda, Şəkidə, Şamaxıda da aşkar duyulur. Ümumiyyətlə, Prezidentimizin yürütdüyü mədəni siyasət davamlı və ardıcıl olması ilə diqqət çəkir. Son illərin təqvimlərinə nəzər salaq: İlham Əliyevin sərəncamları ilə 2016-cı il Multikulturalizm İli, 2017-ci il İslam Həmrəyliyi İli, 2018-ci il Azərbaycan Xalq Cümhuriyyəti İli, 2019-cu il Nəsimi İli, 2021-ci il Nizami Gəncəvi İli elan edilib. General Əlağa Şıxlinskinin 150, görkəmli müğənni Rəşid Behbudovun və balet ustası Qəmər Almaszadənin 100, Emin Sabitoğlunun 80, Aşıq Ələsgərin 200 illik yubileyinin, lap bu yaxınlarda Azərbaycan Milli Kitabxanasının 100 illiyinin keçirilməsi dövlət səviyyəsində görülən tədbirlərdəndir. Prezidentin imzaladığı son sərəncamlardan biri isə (28 sentyabr 2023-cü il) akademik Ziya Bünyadovun 100 illiyi barədə olub.

Pandemiyanın tüğyan etdiyi vaxtda və müharibə dövründə belə dövlət başçımız ölkənin mədəniyyətinə, klassik irsinə diqqətini azaltmayıb. Dünyaşöhrətli müğənni Müslüm Maqomayevə abidə qoyulması, sosial müdafiəyə ehtiyacı olan mədəniyyət işçilərinin, incəsənət xadimlərinin qayğı ilə əhatə olunması, beynəlxalq müstəvidə mədəni sərvətlərimizin qorunması diqqətdə saxlanılıb.

Ötən illərdə paytaxtımızda önəmli beynəlxalq tədbirlər – Humanitar və Qlobal forumlar keçirilib. Azərbaycanın yeni milli turizm brendi təqdim olunub. "Dədə Qorqud" eposu və "Yallı" rəqsi UNESCO-nun siyahısına daxil edilib. Sadalamaqla bitən deyil. Bir sözlə, mədəniyyət Prezident İlham Əliyevin xüsusi önəm verdiyi əməli fəaliyyət sahələrindəndir.

...Hər gün işə gəlib-gedəndə görkəmli bəstəkarımız Tofiq Quliyevin bu ilin əvvəlində qoyulmuş abidəsinin önündən keçirəm. Baxıram və mənə elə gəlir ki, o, irəli boylanaraq Səməd Vurğunun qarşıdakı bağda ucaldılmış möhtəşəm abidəsini salamlayır. Xalq şairi də sanki ona "Abidən mübarəkdir!" – deyir. Mənsə bəstəkarın abidəsinin açılışında Prezidentin çıxışını xatırlayıram. Mədəniyyətimizin himayədarı onun sənətini yüksək qiymətləndirərək demişdir: "Heç birimizdə şübhə yoxdur ki, əsrlər keçdikcə bu unudulmaz musiqi, bu mahnılar, Azərbaycan xalqının musiqi istedadını əyani şəkildə göstərən əsərlər yaşayacaq, bizi və sonrakı nəsilləri sevindirəcək".

Bir də onu düşünürəm ki, ağ mərmərdən yonulmuş bu abidə Azərbaycan mədəniyyətinin ağ günlərinin layiqli simvoludur.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Siyasətdə ədalət və praqmatizm nümunəsi

**2023-cü ilin may ayının 10-da Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 100 yaşı tamam oldu. Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə bu il "Heydər Əliyev İli" elan edilib. Bəlkə də, təsadüfi deyil ki, məhz, 2023-cü ildə İlham Əliyevin Prezident seçilməsinin 20 ili tamam olur. Yubileylər ilində müzəffər ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, Azərbaycan xalqı tarixi qələbəyə imza atdı. Bu hadisələr ölkə Prezidenti İlham Əliyevin Azərbaycan xalqı və Heydər Əliyevin ruhu qarşısında əvəzsiz xidmətləridir. Azərbaycan xalqı həm Heydər Əliyev ilini, həm də İlham Əliyevin prezident seçilməsini möhtəşəm zəfərlərlə qarşılayır.**

Qələbənin fəlsəfəsi nədir? Bizim anlamımızda bu sualın cavabı aydın və sadədir. Qələbə mərmi, tank və topların səsindən qorxmayıb vətən uğrunda döyüşə atılan, ölümün gözünə dik baxan cəsur Azərbaycan gəncləridir. Onları Vətənə sevgi ruhunda tərbiyə edib böyüdən və xeyir-dualarını verən qeyrətli valideynlər – Azərbaycanın ağsaqqal və ağbirçəkləridir. Qəhrəman analarla fəxr edən müdrik Azərbaycan xalqıdır. Xalqımıza qaranlıqda belə mayak olan və yol göstərən üçrəngli Bayrağımızdır. Bu Bayrağı yenidən ucaldıb bütün dünyaya tanıdan və ona hörmət qazandıran ümummilli lider Heydər Əliyevdir. Ulu öndərin siyasi kursuna yeni nəfəs gətirən, yüksək təhsil və intellektə, incə siyasətə malik olan, gələcəyi görən, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa edən Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevdir.

Cənab İlham Əliyev Azərbaycanın yeni tarixini yazdı və tariximzə onun adı qızıl hərflərlə yazıldı. O, 30 il işqal altında olan torpaqlarımızı qaytaran Azərbaycanın suverenliyini bərpa edən əvəzsiz liderdir.

2003-cü ildə cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçiləndə, bu faktı dünya siyasətçiləri skeptizmlə qarşılayıb deyirdilər: "Azərbaycanın 20 faiz ərazisi işqal altındadır və torpaqların qaytarılması çox mürəkkəb və mümkünsüz olan məsələdir. Heydər Əliyevdən sonra hətta ölkədə siyasi sabitliyi qoruyub saxlamaq çətin olacaq". Amma cənab İlham Əliyev özünün müstəsna qabiliyyəti ilə dünyanı heyran etdi. Hər cür kənar təzyiqlərə baxmayaraq İlham Əliyev cəsarətlə deyirdi: "Azərbaycanın bir qarış torpağı belə müzakirə predmeti ola bilməz".

Dünyada çox az sayda dövlət xadimləri və sərkərdələr var ki, onlar ölkəsinin böyük ərazisini itirdikdən sonra onu bərpa etməyə nail olublar. Onlardan biri də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev oldu. 30 il işğal altında olan Azərbaycan torpaqları məhz cənab İlham Əliyevin rəhbərliyi altında azad edildi.

Amma İlham Əliyev sadəcə ərazi bütövlüyünü bərpa edən şəxs deyil. Eyni zamanda, ölkənin 20 faiz ərazisinin işğal altında olmasına baxmayaraq, onun siyasəti nəticəsində Azərbaycan regionun ən güclü dövlətinə çevrildi. Bu gün ölkəmizin iqtisadiyyatı Cənubi Qafqaz bölgəsi iqtisadiyyatının 75 faizini təşkil edir. Azərbaycan beynəlxalq aləmdə stabil dövlətə çevrilib. Dünyanın aparıcı dövlətlərinin rəhbərləri bu gün cənab İlham Əliyevlə hesablaşırlar. Onun çıxışlarında səslənən hər bir təklifin arxasında dərin analiz, dünya siyasətinin incəlikləri dayanır.

2011-ci ildə İstanbulda keçirilən aparıcı ölkələrin liderləri və xarici işlər nazirlərinin konfransına çox sayda aparıcı siyasətçiləri toplanmışdır. Onlar arasında Hillari Klinton və digər tanınmış şəxslər var idi. Onlar İlham Əliyevi oraya dəvət edib işğalla barışmağı ona məsləhət görmək istəyirdilər. Tanınmış siyasətçilərin təzyiqinə baxmayaraq, cənab İlham Əliyev konfransa getməkdən imtina edərək bir daha göstərdi ki, Azərbaycanın ərazi bütövlüyü müzakirə predmeti ola bilməz.

Cənab İlham Əliyev nəinki bu günü, gələcəyi görən siyasətçidir. Onun təşəbbüsü və qayğısı sayəsində bu gün qabiliyyətli Azərbaycan gəncləri dünyanın ən aparıcı ali məktəblərində təhsil almaq imkanı əldə etmişlər və dövlət bu gənclərin bütün xərclərini öz üzərinə götürüb. Bu, yüksək intellektin və müasir düşüncənin nəticəsidir. Dünyanın aparıcı ali məktəblərində 4 il təhsil almaq 300-350 min ABŞ dollarına başa gəlir. Amma bu ölkənin gələcəyinə olan yatırımdır və tezliklə özünü doğruldacaq. Çünki ölkəyə yüksək təhsilli mütəxəssislər, müasir düşüncəli şəxslər lazımdır ki, Heydər Əliyev dəyərləri üzərində qurulan İlham Əliyevin siyasətini davam etdirsinlər.

İlham Əliyevin uğurlarının kökündə dayanan nədir? Cəsarət, yoxsa Vətən sevgisi? Yoxsa yüksək təhsil və intellekt, ya dünya siyasətinin incəliklərini dərindən anlamaq və təhlil etmək qabiliyyəti? Düşünürəm ki, deyilənlərin hamısı birlikdə və eyni zamanda, Heydər Əliyevin siyasətinə yeni nəfəs gətirmiş, bu dəyərlər üzərində yetişmiş milli bağlılığıdır.




Dahi İsaak Nyutondan soruşmuşlar: "Necə oldu ki, siz dünya elminə belə böyük töhfələr verə bildiniz?" Onun cavabı belə olmuşdur: "Mən dahi müəllimlərim Aristotel və Arximedin çiyinləri üzərində duraraq, uzağı görə bildim". İlham Əliyev də yüksək təhsil və intellektə malik olaraq, dahi siyasətçi Heydər Əliyevin çiyinləri üzərindən boylanaraq uzağı görə bildi. Eyni zamanda, onunla birlikdə çiyin-çiyninə çalışan, öz intellekti və zövqü ilə seçilən, Azərbaycan xanımının ən incə dəyərlərini özündə əks etdirən ölkənin Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva var. Bu cütlük Azərbaycanın gələcəyini görüb onun maddi və mənəvi dəyərlərini zənginləşdirərək, xalqımızın firavan gələcəyini düşünür.

Tarixdə ölkəsinin ən çətin anlarında dövlət gəmisinin sükanı arxasına keçən böyük şəxsiyyətlər olmuşdur. Türkiyədə Mustafa Kamal Atatürk, ABŞ-da Franklin Ruzvelt, Fransada Şarl de Qoll, İngiltərədə Uinston Çörçill və başqaları parlaq şəxsiyyətləri ilə sadəcə öz xalqlarının deyil, bütün bəşəriyyətin tarixində silinməz izlər qoymuşlar.

Adı Amerika tarixinə qızıl hərflərlə yazılmş Ronald Reyqan ABŞ Prezidenti seçiləndə dünya liderləri onu çox soyuq qarşıladılar. Söyləyirdilər ki, siyasətdə böyük təcrübəsi olmayan bu şəxs dünyanın inkişafına nə verə bilər? İllər keçdi, Ronald Reyqanın praqmatik siyasəti nəticəsində, ABŞ-ın iqtisadiyyatı yüksək zirvələrə qalxdı. Dünya liderlərinin sammitlərində, dövlət başçıları Ronald Reyqanı ayaq üstə alqışlarla qarşılayıb salamlayırdılar. Bu, Ronald Reyqanın apardığı praqmatik siyasətinə verilən yüksək qiymət idi. ABŞ-ın digər prezidenti Con Kennedi amerikalıların yaddaşında səmimi lider kimi qaldı. O deyirdi: "Soruşma Vətən sənin üçün nə edib? Özündən soruş, sən Vətən üçün nə etmisən?". Bu liderlər, dünya siyasətində bu gün o qədər də geniş qəbul edilməyən səmimiyyət, ədalət və praqmatikliyi ilə yadda qaldılar. Məhz cənab İlham Əliyev öz siyasətində səmimiyyət və praqmatizm nümayiş etdirir. O, 2003-cü ildə prezident seçilərkən səmimi olaraq etiraf etmişdi: "Mən hər bir Azərbaycanlının Prezidenti olacağam" və zaman onun söylediyi sözlərin doğru olduğunu təsdiq etdi.

"Həmrəylik – budur bütün cümlələrimizin mübtədası. Onunla biz hər cür qorxu, bütün çətinliklərə qalib gələcəyik". Bu sözlər 4 dəfə Amerikanın prezidenti seçilmiş, ölkəsini Böyük böhrandan qurtaran, xalqını öz ətrafında sıx birləşdirən və İkinci Dünya müharibəsinin qaliblərindən biri olan tarixi şəxsiyyət Franklin Ruzveltə məxsusdur. Məhz Franklin Ruzveltin siyasəti nəticəsində o zaman 150 milyonluq Amerika xalqı öz gücünə güvənərək bütün bəlaların öhdəsindən gəldi.

44 günlük Qarabağ müharibəsində isə cənab İlham Əliyevin uzun illər apardığı hazırlıq işləri, xalqa olan çağırışı nəinki hərbiçilərimizi, bütün milləti birləşdirərək Azərbaycanı Qələbəyə apardı. Bu birlik gücümüzə güc qataraq müharibəni Qələbə ilə başa çatdırdı.

Fransanın lideri olmuş General De Qoll fransızların yaddaşında, millətin itirilmiş qeyrətini qaytaran şəxs kimi yadda qalıbsa, cənab İlham Əliyev Azərbaycanın tarixində itirilmiş torpaqları azad edən, Azərbaycan xalqına qurur gətirən bir Prezident kimi yadda qalacaq. Əgər Əli Cinna Pakistan xalqının yaddaşında ölkənin qurucusu və yaradıcısı kimi qalıbsa, İlham Əliyev Azərbaycan xalqını birləşdirib qələbəyə aparan lider kimi qalacaq.

2018-ci ildə cənab İlham Əliyev, müəllifi olduğu Cənub Qaz Dəhlizinin layihəsini təklif edəndə çoxları dünyada bunu bir əfsanə kimi qəbul edirdilər. İllər keçdi. Bu gün Avropa liderləri cənab İlham Əliyevi müxtəlif toplantılarda alqışlarla qarşılayıb aparıcı siyasətçi kimi qəbul edirlər. 2022-ci ildə Yunanıstan–Bolqarıstan Qaz Konnektorunun açılışında iştrak edən Avropa liderləri cənab İlham Əliyevdən çox şeyləri öyrəndiklərini etiraf etdilər. Bunu Macarıstanın lideri Viktor Urban da çıxışlarında qeyd etmişdir.

Davos Forumunda cənab İlham Əliyevlə görüşən, məşhur "Microsoft" şirkətinin qurucusu, dünyanın ən varlı adamlarından biri Bil Qeyts, cənab İlham Əliyevin dərin bilgilərini və intellektini xüsusi qeyd etmişdir.

Paytaxtımız Bakıya və ümumiyyətlə, ölkəmizin bölgələrinə nəzər salsaq, orada görülən işlərdə, çiçəklənən şəhərlərimizdə cənab İlham Əliyevin praqmatikliyini, uzaqgörənliyini və yaradıcılığını, xanım Mehriban Əliyevanın intellektini və zövqünün nəticələrini görməmək mümkün deyil. Heydər Əliyevin daimi ruhu Azərbacanın üzərində hər zaman gəzir və bu inkişafı görüb, sözsüz ki sevinir.

Bu gün Azərbaycanın müzəffər Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı, yüksək təhsilə, müasir düşüncəyə və dərin intellektə malik olan cənab İlham Əliyev xalqımızı daha yüksək zirvələrə aparan liderdir.

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin baş katibi,***
***AMEA-nın və Ümumdünya Elmlər Akademiyasının həqiqi üzvü***

# Mətbuat Şurasının "Jurnalistlərin dostu"na ürək sözləri

**Azərbaycan Mətbuat Şurası İdarə Heyəti 20 il əvvəl Azərbaycan Prezidenti şeçilməsi münasibətilə dövlət başçısı İlham Əliyevə müraciət ünvanlayıb.**

Müraciətdə ötən 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qazanılmış tarixi uğurlar öyünc və bu nailiyyətlərin müəllifinə minnətdarlıq hissi ilə qeyd olunur: "Siz ötən iyirmi ildə hər bir azərbaycanlının Prezidenti, Lideri olmağı bacarmış dövlət başçısısınız. Bu, yalnız sözdə ifadə olunan deyim yox, mütləq gerçəklik, danılmaz reallıqdır. Elə bir reallıq ki, özündə canlı tarixi yaşadır. Sizin sayənizdə ölkəmizin son iyirmi ili hər bir vətəndaşın, qəlbi Azərbaycan sevdası ilə döyünən hər bir şəxsin düşüncəsində böyük və şanlı tarixdir. Bu tarixi yaradan Siz olmusunuz".

Sənəddə daha sonra bildirilir ki, Azərbaycanın bütün sahələrdə tərəqqisi və dinamik inkişafı, dünya dövlətləri sırasında özünə layiqli yer tutması xalqımızda haqlı qürur doğurur: "Cəmiyyətimizin bütün təbəqələrinin təmsilçiləri kimi, media nümayəndələri də bu qüruru və fəxarət hissini yaşayırlar. Prinsipial və qətiyyətli mövqeyinizin böyük Azərbaycan davası naminə olduğunu görmək və duymaq bizləri bəxtiyar edir. Dövlətimizin mövqeyini, Prezident və Ali Baş Komandan kimi fikirlərinizi son dərəcə səlis şəkildə bəyan etməklə, bütövlükdə, siyasi nitqin, ictimai-publisistik üslubun mükəmməl örnəklərinə imza atmısınız. Qəlbimizi Sizə olan dərin rəğbət hissi ilə dolub-daşdıran həm də budur".

Müraciətdə dövlət başçısının milli jurnalistikanın inkişafına dəstəyi, bu peşənin nüfuzunun yüksəldilməsinə həssaslıqla yanaşması qədirbilənliklə xatırlanır: "Cənab Prezident, həyata keçirdiyiniz islahatlar nəticəsində bu gün peşəmiz təşkilatlanmış struktura malikdir. Sərəncamınız əsasında yaradılmış Medianın İnkişafı Agentliyinin reallaşdırdığı fəaliyyət, beynəlxalq standartlara cavab verən "Media haqqında" Qanunun qəbulu sahəyə fundamental yanaşmanı ortaya qoymaqdadır. Bütün bunlar isə qarşımızda yeni vəzifələr müəyyənləşdirməkdədir. Çalışacağıq ki, etimadınızı gözləntiləriniz səviyyəsində doğruldaq".

Sonda Prezident İlham Əliyevin xəyalların gerçəkləşdiyi böyük Azərbaycana rəhbərlik etməsi vurğulanır: "35 illik Qarabağ davası Sizin müasir liderlik məharətiniz və qətiyyətiniz nəticəsində Zəfərlə başa çatıb. Sizə Azərbaycan torpaqlarının işğaldan tamamilə azad edilməsi, dövlətimizin suverenliyinin bütün ərazilərimizdə bərpası münasibətilə dərin təşəkkürümüzü də bildirməyi özümüzə borc sayırıq. Xalqımıza nəhayətsiz sevinc və qürur hissləri yaşatdığınız üçün bir daha Sizə Azərbaycanın çoxminli jurnalistlər ordusu adından sonsuz minnətdarlığımızı çatdırırıq. Sizin rəhbərliyinizlə dövlətimizin şanlı qələbələr qazanacağınıza əmin olduğumuzu bildiririk".

***XQ***

# Vətəndaş cəmiyyəti 20 illik inkişafı yüksək dəyərləndirir

**"Ümummilli lider Heydər Əliyevin siyasi varisi, ideya və əməllərinin sadiq davamçısı İlham Əliyevin 20 il əvvəl Azərbaycan Prezidenti seçilməsi xalqımızın və ölkəmizin taleyində yeni inkişaf mərhələsinin başlanğıcı olub. Bu dövrdə cəmiyyətimizin həyatında inqilabi dəyişikliklər baş verib".**

***Azərbaycanın qeyri-hökumət təşkilatlarının İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar yaydığı bu bəyanatın davamında deyilir:*** "Ümummilli lider Heydər Əliyevin formalaşdırdığı sağlam və möhkəm təməl üzərində Prezident İlham Əliyevin inşa etdiyi güclü və müasir Azərbaycan bir çox taleyüklü problemləri geridə qoyaraq, gələcəyə doğru inamla addımlayan ölkələr sırasında öz layiqli yerini tutub. Bu gün Azərbaycan həm də vətəndaş cəmiyyətinin güclü olduğu ölkədir, qeyri-hökumət təşkilatlarının sərbəst fəaliyyəti üçün ötən onilliklər ərzində zəngin qanunvericilik bazası, əlverişli mühit formalaşıb, bu sektorun inkişafı üçün mühüm qərarlar qəbul olunub".

***Sənəddə daha sonra bildirilir ki, 2003-cü ildə İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra vətəndaş cəmiyyətinin həyatında yeni inkişaf mərhələsi başladı, bu sahəyə konseptual yanaşma ortaya qoyuldu:*** "Prezident İlham Əliyev qısa müddətdə qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasını təsdiq etdi. Bu konsepsiya dövlət orqanları və vətəndaş cəmiyyəti institutlarının əməkdaşlıq mexanizmlərini xeyli təkmilləşdirdi və genişləndirdi. Bundan sonra qanunçuluq, tərəfdaşlıq, şəffaflıq, uzlaşdırma və məsuliyyət qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin 5 əsas prinsipi kimi müəyyən edildi".

Bəyanatda qeyd edilir ki, 2003-cü il, 2008-ci il, 2013-cü il, 2018-ci il prezident seçkilərinin nəticələri bir daha göstərdi ki, Azərbaycan xalqının seçimi yalnız Prezident İlham Əliyevdir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi isə Azərbaycan cəmiyyətinin ən ağrılı yarası olan münaqişəni geridə qoydu, Prezident İlham Əliyev müzəffər Ali Baş Komandan kimi hər bir azərbaycanlıya qələbə sevincini bəxş etdi.



***Postmüharibə dövrünün vətəndaş cəmiyyəti qarşısında da yeni məqsəd və vəzifələr müəyyənləşdirməsi ilə bağlı sənəddə deyilir:*** "2021-ci ilin aprelində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin yaradılması dövlət və cəmiyyət həyatında qeyri-hökumət təşkilatlarının rolunun artırılması, fəaliyyətinin yeni dövrün çağırışlarına uyğun təşkili, bu sahədə həyata keçirilən dövlət dəstəyinin təşkilati-hüquqi əsaslarının və mexanizmlərinin təkmilləşdirilməsi sahəsində daha bir addım oldu. Ötən 20 illik dövr bir daha göstərdi ki, Prezident İlham Əliyevin vətəndaş cəmiyyəti institutlarının inkişafı üçün aydın proqramı var. QHT-lərin cəmiyyət və dövlət həyatında fəal iştirakının təmin edilməsi, dövlət və ictimai maraqların qorunmasında rolunun gücləndirilməsi əsas məqsədlərdən biridir və bu istiqamətdə ardıcıl siyasət aparılır."

***Bəyanatın sonunda bildirilir ki, Prezident İlham Əliyev Azərbaycan xalqını və cəmiyyətini arzularına qovuşdurur:*** "Onun liderliyi ilə ötən 20 ildə tarix, indiki və gələcək nəsillər qarşısında misilsiz xidmətlərə imza atılıb. Sosial-iqtisadi inkişaf, təhsil, mədəniyyət, ümumən dövlət həyatının bütün sahələrində parlaq nailiyyətlər əldə olunub. Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz və hörmət qazanıb, söz sahibinə çevrilib. Biz, qalib ölkənin qalib vətəndaşları, Azərbaycan vətəndaş cəmiyyətinin təmsilçiləri kimi Sizinlə fəxr edirik, cənab Prezident!".

***XQ***

# Azərbaycanı parlaq zəfərə qovuşduran lider

**Seçkilər hər bir xalqın gələcək taleyinə ciddi təsir göstərən həlledici siyasi proses kimi xarakterizə olunur. Bu taleyüklü anda müdrik seçim edən, güvəndikləri, etibar etdikləri siyasi qüvvəyə, yaxud liderə etimad göstərən xalqlar, ilk növbədə, mənsub olduqları dövlətlərin güclənməsinə, dünya arenasında layiqli yerini tutmasına etibarlı təminat yaradırlar.**



Dövlətə rəhbərlik missiyasını üzərinə götürmüş liderin xarizmatik keyfiyyətləri, idarəçilik məharəti, praqmatizmi, siyasi proseslərin inkişaf axarını düzgün müəyyənləşdirmək, ictimai rəyə təsir göstərmək, sosial sifarişə əsaslanan qərarlar qəbul etmək bacarığı, müasir dünya nizamının çağırışlarına adekvat daxili və xarici siyasət yürütməsi dayanıqlı milli inkişafı şərtləndirən vacib meyarlar sırasında yer alır. Bu prizmadan əminiliklə demək olar ki, 2003-cü ilin prezident seçkilərində Heydər Əliyev siyasi kursuna etimad göstərən, Ümummilli liderin ən layiqli siyasi davamçısına səs verən müdrik xalqımız Azərbaycan dövlətinin nəinki davamlı uğurlarına, eyni zamanda, qlobal problemlərinin həllinə zəmin yaradıb. Ölkə vətəndaşlarının 20 il əvvəlki tarixi seçimi obyektiv reallıqla şərtlənib, həlledici çoxluq uğurlu sabaha, təminatlı gələcəyə aparan, hər bir fərdin maraq və mənafeyini, ümumən vətəndaş amilini önə çəkən siyasətin təntənəsinə səs verib.

Azərbaycanı bu müddətdə mövcudluq tarixinin ən güclü dövlətinə, habelə beynəlxalq miqyasda söz sahibinə çevirən, problemlərinin böyük əksəriyyətinin həllinə nail olan cənab İlham Əliyev seçkiqabağı platformasında irəli sürdüyü *"Əsl siyasət konkret real iş görməkdən ibarətdir"* tezisini əməli fəaliyyəti ilə doğruldub. Sözünün imzası qədər çəkisinin olduğuna beynəlxaq səviyyədə əminlik yaradan dövlətimizin başçısı hər bir mərhələ üçün hökumət qarşısında duran vəzifələri düzgün müəyyənləşdirib, onların çevik və işlək mexanizmlər əsasında icrasını təmin edib, sosial sifariş amilini fəaliyyətində əsas tutub, xalqa layiqli xidməti idarəçilik sisteminin əsas meyarına çevirib.

Vətəndaşlarla dövlət qurumları arasında münasibətlərin açıq, şəffaf, əlçatanlıq və məmnunluq meyarları əsasında qurulması, insanlarda razılıq və ya narahatlıq doğuran məsələlərin müəyyənləşdirilməsi məqsədilə çevik kommunikasiya mexanizmlərinin formalaşdırılması bu müddətdə aparılan islahatların ana xəttini təşkil edib. Dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, modernləşmə prosesinin dərinləşdirilməsi və innovativ modellərin tətbiqi də bu sırada xüsusi qeyd oluna bilər. Ötən dövrün təhlili göstərir ki, Prezident İlham Əliyevin siyasətində insan amili hər zaman prioritet olub. Bu məqsədlə ölkənin məhkəmə-hüquq, ədliyyə, prokurorluq, daxili işlər orqanlarının fəaliyyətinin müasirləşdirilməsinə xidmət edən kompleks islahatlar həyata keçirilib. Kompleks siyasi, iqtisadi və hüquqi islaharlar çərçivəsində 2009 və 2016-cı illərdə keçirilmiş ümumxalq referendumları əsasında ölkə Konstitusiyasına edilmiş əlavə və dəyişikliklər ölkə rəhbərliyinin sistem xarakterli islahatların dərinləşdirilməsində, ictimai maraqların etibarlı müdafiəsində nə qədər maraqlı olduğunu əyani şəkildə göstərib. Azərbaycan Prezidenti İlham Əliyevin xalq qarşısında götürdüyü öhdəliklərə vətənpərvər və qurucu lider əzmi ilə əməl etməsi, hər bir vədini əməli praktikada doğrultması bu və digər nailiyyətlərin əldə olunmasına, ölkəmizin strateji hədəflərinə çatmasında vacib rol oynayıb. **"Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və hiss eləsin"** – bu fikirləri Azərbaycanın dövlət başçısının xalqına qəlbən bağlı lider olduğunu bir daha təsdiqləyib.

2016-cı il sentyabrın 26-da keçirilmiş referendumun nəticəsi kimi ölkədə Birinci vitse-prezident institutunun yaradılmasını, Heydər Əliyev Fondunun rəhbəri kimi uzun illər reallaşdırdığı mühüm sosial-humanitar, mədəni və digər layihələrlə cəmiyyətin rəğbətini qazanmış Mehriban xanım Əliyevanın 2017-ci ilin 21 fevralında bu vəzifəyə təyinatının əhəmiyyətini də xüsusi qeyd etmək lazımdır. Bu təyinat dövlət idarəçiliyinə yeni ruh və müasirlik gətirməklə, ümumilikdə, gənc, təcrübəli və intellektual səviyyəli novator kadrların ölkədə yürüdülən islahatlarda iştirak imkanlarını genişləndirib, ictimai-siyasi münasibətlər sisteminin xarakterində əsaslı dəyişikliklərə yol açıb.

Qısaca demək kifayətdir ki, "Asan XİDMƏT", "ASAN kommunal", "DOST" və s. kimi yeni idarəçilik modellərinin tətbiqində məqsəd vətəndaş məmnunluğunu təmin etmək, bürokratik amillərin aradan qaldırılmasına nail olmaq, idarəetməni çevik və səmərəli əsasda qurmaqdır. Mərkəzi və yerli icra hakimiyyəti strukturlarında şəffaflığa, hesabatlığa, "Açıq cəmiyyət" quruculuğu prinsiplərinə əsaslanan çevik idarəetmə modelinin formalaşdırılması yeni mərhələdə kadr siyasətinin əsas qayəsində yer alır.

Dövlət idarəçiliyi üçün peşəkar kadr potensialının yaradılması, insan kapitalının inkişafı baxımından ötən 20 ildə elmin, təhsilin inkişafı da xüsusi diqqət mərkəzində olub. Vətəndaşa sərmayə qoyulması, onun fərdi keyfiyyətlərinin və qabiliyyətlərinin inkişafı, müasir texnologiyaları dərindən mənimsəmiş menecerlər sinfinin formalaşdırılması, intellektin milli inkişafda prioritet amili kimi müəyyənləşdirilməsi Azərbaycanda həyata keçirilən dövlət siyasətinin əsasını təşkil edib. Ölkə rəhbərliyinin xaricdə kadr hazırlığına xüsusi diqqətlə yanaşması respublikada demokratik ölkələrin zəngin təcrübəsinə əsaslanan mükəmməl, çevik və mütərəqqi dövlət idarəçilik sistemi formalaşdırmaq niyyətindən irəli gəlir. Dövlət başçısının hələ 19 oktyabr 2006-cı il tarixdə təsdiq etdiyi "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı"na əsasən, ötən dövrdə 5000-dən çox gənc xaricdə yüksək təhsil alaraq Vətənə dönüb.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş *"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"*nın da məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, qlobal çağırışlara cavab verəcək yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə uyğun rəqabətqabiliyyətli, yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etməkdir. Dövlət Proqramının icrası müddətində hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə, 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələrində təhsil alması təmin ediləcəkdir.

Dövlət başçısı İlham Əliyev beynəlxalq hüququn, demək olar ki, formal xarakter daşıdığı ədalətsiz dünyada qarşıya qoyulan hədəflərin reallaşdırılmasının, ayaqda durmağın, müstəqilliyi möhkəmləndirməyin, söz sahibi olmağın sadə formulunu müəyyən edib: iqtisadi və hərbi cəhətdən güclü olmaq, hücum diplomatiyası yürütmək, təhdidləri dəf etmək! Məhz bunun nəticəsində iqtisadi sahədə inqilabi uğurlara imza atan, dünyanın enerji təhlükəsizliyinə sanballı töhfələr verən Azərbaycan dünyada müstəqil siyasət yürütməyə nail olub, davamlı şəkildə artan iqtisadi-maliyyə resurslarımız ölkəmizə heç bir ölkədən asılı olmadan hədəflərinə çatmaq imkanı yaradıb.

Üzləşdiyimiz ədalətsiz münaqişənin həllini ilk gündən prioritet məsələ kimi müəyənləşdirən dövlətimizin başçısı hələ 2003-cü il oktyabrın 31-də keçirilmiş andiçmə mərasimindəki çıxışı zamanı demişdi: *"Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcəkdir".*

Bu və digər məqsədlərin reallaşdırılması üçün Ulu öndərin müdrikliklə müəyyən etdiyi çoxşaxəli siyasi kursu davam etdirən, və yeni çalarlarla zənginləşdirən Prezident İlham Əliyev mahir strateq, sərkərdə olaraq xalqımızı həsrətində olduğu Zəfər sevincinə addım-addım yaxınlaşdırıb. Milli maraqları hər şeydən üstün tutması və ən çətin məqamlarda belə layiqincə qorumağı bacarması, xalqın dəstəyinə söykənməsi Ali Baş Komandan İlham Əliyevə xalqımızın Qarabağ yarasını birdəfəlik sağaltmağa imkan verib.

Azərbaycan ötən 20 ildə üzləşdiyi ədalətsiz münaqişənin beynəlxalq hüquqa və milli maraqlarına uyğun həlli üçün iqtisadi cəhətdən güclənməyə, hərbi potensialını artırmağa, eyni zamanda, Ermənistanın təcavüzkarlıq siyasətinin ifşasına üstünlük verib. Bu strateji hədəflər dövlət müstəqilliyinin daxili və xarici təhdidlərdən qorunub saxlanılmasını, iqtisadiyyatın davamlı inkişafını, ölkəmizin beynəlxalq arenada tanıdılmasını praktiki məqsədlərə çevirib.

2003-cü ildən etibarən ölkədə sahibkarlığın inkişafına mane olan süni amillərin aradan qaldırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi, yeni istehsal müəssisələrinin yaradılması, regional disbalansın aradan qaldırılması, əhalinin sosial rifah halının yaxşılaşdırılması, infrastrukturun yeniləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar praktik nəticələrini verib. Yalnız onu demək kifayətdir ki, 2023-cü ilin dövlət büdcəsi xərclərinin ölkə tarixində ilk dəfə olaraq 33 milyard manatı keçməsi, valyuta ehtiyatlarımızın hazırda 67,5 milyard dolları ötməsi Azərbaycanın iqtisadi-siyasi müstəqilliyi üçün etibarlı "maliyyə yastığı" rolunu oynayır.

Dünyadakı münaqişə ocaqlarının, iqtisadi tənəzzül proseslərinin neqativ təsirlərinə baxmayaraq, Azərbaycan iqtisadiyyatı dayanıqlığını qoruyub saxlayıb, yürüdülən iqtisadi siyasət ölkəmizin neftdən asılı olmayan, ixracyönümlü, dayanıqlı inkişaf strategiyasını təmin edib. Ötən illər həm də dünya siyasətinə təsir göstərən möhtəşəm layihələrin reallaşdırılması ilə səciyyəvi olub. Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri, Bak–Tbilisi–Ərzurum qaz kəməri, Bakı–Tbilisi–Qars dəmir yolu xətti, Cənub Qaz Dəhlizi, Bakı–Tbiisi–Qars dəmir yolu və digər fundamental layihələr Azərbaycanını təkcə iqtisadi deyil, siyasi müstəqilliyini də şərtləndirib.

Azərbaycanın investor dövlətə çevrilməsi, Avropanın enerji təhlükəsizliyinə töhfələr verməsi, "yaşıl enerji"yə keçid strategiyasını uğurla reallaşdırması ölkəmizin dünyada etibarlı tərəfdaş imicini formalaşdırmaqla yanaşı, onu beynəlxalq münasibətlərin vacib aktoruna çevirib. Bütün bu amillər İkinci Qarabağ müharibəsi zamanı rəsmi Bakını müəyyən ədalətsiz təzyiq və təhdid cəhdlərindən qoruyub. İqtisadi resursların dinamik artımı ölkəmizə, eyni zamanda, Cənubi Qafqazda beşinci nəsil texnika ilə təchiz olunmuş modern ordu yaratmağa imkan verib. Güclü ordu, güclü iqtisadiyyat amilləri, eləcə də sağlam düşüncəli, vətənpərvər, mübariz gəncliyin yetişdirilməsi xalqımızın Vətən müharibəsindəki Qələbəsini təmin edən əsas amillərdəndir.

Dövlətimizin başçısı İlham Əliyevin son 20 illik xarici siyasəti müstəqil və güclü dövlət modelinin praktik surətdə reallaşdırılmasına yönəlib. Rəsmi Bakı sivil dünyanın geosiyasi konfiqurasiyasını müəyyən edən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla münasibətlərini yüksək dinamizmlə inkişaf etdirmək xəttinə üstünlük verib. Sivil dünyanın qəbul etdiyi meyarlara cavab verən xarici siyasət yeridən respublikamız özünün Cənubi Qafqaz regionundakı əhəmiyyətli ərazi, geostrateji və geoiqtisadi üstünlüklərindən maksimum faydalı şəkildə yararlanıb.

ABŞ-ın 28-ci prezidenti olmuş mütəfəkkir Tomas Vudro Vilsonun maraqlı bir deyimi var: "Dənizçinin cəsarəti fırtınada, əsgərin cəsarəti müharibədə, xalqın cəsarəti isə ağır sınaq günlərində bəlli olur". 2020-ci il sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyevin "İrəli" əmri əsasında ayağa qalxan Azərbaycan xalqı son əsrlərdəki tarixinin ən parlaq səhifəsini yazıb. 44 günlük müharibə Azərbaycan xalqının nə qədər vətənpərvər, böyük xalq olduğunu, milli birliyini, həmrəyliyini bütün dünyaya sübuta yetirib.

Bununla belə, məğlubiyyətindən dərs almayan Ermənistan nəinki 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərə əməl etməyib, Qarabağda formalaşdırdığı qanunsuz separatçı rejimi açıq himayə edib, hərbi-siyasi təxribatlarını genişləndirib, Qarabağın erməni sakinlərinin reinteqrasiyasına mane olub. Azərbaycanın İkinci Qarabağ müharibəsindən sonra yekun sülh sazişinin imzalanmasına, nəqliyyat-kommunkasiya əlaqələrinin bərpasına və regional əməkdaşlığa dair irəli sürdüyü səmərəli təklifləri qəbul etməyən İrəvan son bir ildə keçirilmiş Praqa, Soçi və Brüssel görüşlərində Azərbaycanın ərazi bütövlüyünü tanıdığını rəsmən bəyan etməsinə rəğmən, regionda ikinci erməni dövləti yaratmaq iddiasından əl çəkməyib, ölkəmizin milli maraqlarını təhdid edib.

Mayın 28-də Laçında rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı Prezident İlham Əliyev xunta rejiminin rəhbərlərinə və onların himayədarı Ermənistana sərt ismarıclarını bir daha çatdırıb: **"Hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər".**

Rəsmi Bakının nümayiş etdirdiyi təmkinli və humanist yanaşma müqabilində Ermənistan rəhbərliyinin destruktiv addımlarını davam etdirərək 2023-cü ilin sentyabrında xunta rejiminə təbrik məktubu ünvanlaması, "prezident seçkiləri" adlandırılan qanunsuz fəaliyyəti himayə etməsi, sonrakı günlərdə Xocavənddə törədilən mina terroru lokal antiterror əməliyyatlarını qaçılmaz və labüd prosesə çevirdi. Azərbaycanın Qarabağ iqtisadi rayonu ərazisində cəmi 24 saat davam edən antiterror tədbirləri nəticəsində tamamilə sarsılan separatçı rejimin təslim olması, qanunsuz erməni hərbi birləşmələrin tərksilah prosesinə başlanılması rəsmi Bakının 30 ildən çox davam edən problemə nöqtə qoyması oldu. Ermənistanın Azərbaycan ərazisində ikinci erməni dövləti yaratmaq, etnik separatçılıq yolu ilə yeni ərazilər ilhaq etmək, separatçılığı dəstəkləmək niyyətləri puça çıxdı.

Sentyabrın 19-20-də Qarabağ iqtisadi rayonunda həyata keçirilən antiterror tədbirləri regionda sülh və əməkdaşlıq üçün yeni üfüqlər açıb. Azərbaycan ərazisində separatçılıq ocağının birdəfəlik ləğvi təkcə ölkəmizin yox, Cənubi Qafqazın həyatında yeni mərhələnin başlanmasını özündə ehtiva edir.

Rəsmi Bakı ən yüksək səviyyədə bəyan edir ki, Azərbaycanla Ermənistan arasında beynəlxalq hüquq və qarşılıqlı hörmət, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı əsasında münasibətlərin normallaşmasına hazırdır. Azərbaycanla sülh müqaviləsinin imzalanması, münasibətlərin normallaşması Ermənistanın Türkiyə ilə əlaqələrində də yeni mərhələ aça bilər. Bu halda, Ermənistan məkrli xarici qüvvələrin əlində vasitə olmaqdan xilas ola, regionda Azərbaycan sayəsində yaranan yeni vəziyyətdən faydalanıb, dinamik inkişaf yoluna çıxa bilər.

**Ümumilikdə, Azərbaycan cəmiyyəti tarixin heç bir mərhələsində son illərdəki kimi sürətli dəyişikliklərə uğramayıb, insan amili belə aktual, öncül məsələ kimi gündəmə çıxmayıb. Prezident İlham Əliyev tarixin ən güclü və qüdrətli Azərbaycanını yaradıb, onun inkişafını davamlı, sarsılmaz edib. Bu möhtəşəm uğurlar fonunda onu da əminliklə deyə bilərik ki, onilliklər, hətta yüzilliklər sonra Azərbaycanın çağdaş tarixinin qələmə alınması, hadisələrin obyektiv dəyərləndirilməsi zamanı Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi dövrü möhtəşəm salnamə kimi xüsusi tədqiq ediləcək, şərəfli tarix kimi öyrəniləcəkdir.**

***İsaxan VƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası hüquq kafedrasının müdiri, professor***

KÖŞƏ

# Tarix və Lider



Məsaim ABDULLAYEV
mesaim-aq@mail.ru

**Belə bir deyim var: İnsan yalnız şərəfli ölkənin vətəndaşı olduğu halda özünü tam xoşbəxt hiss edə bilər. Biz cəmi 44 gün ərzində işğalçıları torpaqlarımızdan qovmuş və ərazi bütövlüyümüzü bərpa etmişik. Bu, son 70 ildə çox az dövlətə və xalqa nəsib olub.**

Prezident İlham Əliyevin müdrik liderliyi, yüksək sərkərdəlik sərištəsi sayəsində Azərbaycan milli istiqlalının təntənəsini yaşayır. Ölkəmizin hər bir vətəndaşı, dünyanın müxtəlif yerlərində yaşayan soydaşlarımız müstəqil Azərbaycan dövləti və onun lideri ilə sonsuz fəxarət duyur.

Prezident İlham Əliyev böyük siyasət adamıdır. Heç bir siyasət milli şərəf və ləyaqətin fövqündə ola bilməz. Cənab Əliyevin parlaq uğurları da məhz millətinin ruhundan və gücündən qaynaqlanır. Prezident xalqının yüksək əxlaqına, mənəvi dəyərlərinə bütün varlığı ilə bağlıdır. Buna görə də xalqının sevimlisidir!

Bu vaxta qədər deyirdilər ki, böyük ədəbiyyatı ancaq böyük xalqların nümayəndələri yarada bilirlər. Zaman göstərdi ki, bu, heç də belə deyil. Belə ki, sayca böyük olmayan Kolumbiyada dünya ədəbiyyatının Qabriel Qarsia Markes kimi ədəbi dühası yetişib, dahi Çingiz Aytmatovun bütün dünyaya tanıtdığı qırğız xalqı da əhalisinin sayına görə kiçik xalqlardan sayılır.

Bu səhv paradiqmanı siyasətə də şamil etməyə çalışırdılar. Prezident İlham Əliyevin parlaq nümunəsi bunun əksini nümayiş etdirir. Cəmi 10 milyon əhalisi olan bir ölkənin Prezidenti çağdaş dünyanın ən güclü, qətiyyətli və xarizmatik dövlət xadimlərindən biri kimi tanınır və qəbul edilir. Dünyadakı dostlarımız fəxrlə, rəqiblərimiz aşkar bir qısqanclıqla bu həqiqəti etiraf edirlər: Azərbaycan xalqının lider sarıdan bəxti gətirib!

Planetin siyasi nəbzi bu gün təhlükəli dərəcədə yüksəkdir, dünya gözlərimiz önündə çalxalanır. Yer kürəsinin bir çox bölgələrində ağır terror aktları, qanlı savaşlar ara vermir. İndi dünyada sabitlik, əmin-amanlıq yaradan bəşəri qanunlara ehtiyac var.

Belə bir çətin durumda Prezident İlham Əliyev yaxın dostu, qardaş Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan ilə birlikdə regionda və bütün dünyada sülhün, təhlükəsizliyin, ədalətin qarantına və rəmzinə çevrilib. Əliyev və Ərdoğan dostluğu Böyük Turan üçün xüsusilə qürurverici olduğu qədər sirayətedicidir!

44 günlük şanlı savaş zamanı Prezident Əliyev qlobal KİV-ə rus, ingilis və fransız dillərində verdiyi müsahibələr vasitəsilə Qarabağda baş verənlərin mahiyyətini təmkinlə hər kəsə başa salırdı. Dünya Ali Baş Komandanın ağlına, zəkasına, Vətəninə olan sonsuz sevgisinə, Milli Ordumuza olan sarsılmaz inamına heyran qalmışdı. Prezident Azərbaycana qarşı otuz ildən çox davam edən informasiya blokadasını yerlə-yeksan etmişdi, bütöv bir jurnalistlər ordusunun görə bilmədiyi işləri təkbaşına görmüşdü.

Prezident İlham Əliyevin lideri olduğu dövlətin vətəndaşı, ziyalısı və jurnalisti olmağın məsuliyyəti də böyükdür. Bu gün Azərbaycanı təkcə tərifləmək və tərənnüm etmək azdır, Vətəni cənab Əliyev kimi sevməyi, qorumağı, onun şan-şöhrətini artırmağı da öyrənməyə çalışmalıyıq. Dövlətimizin başçısının şəxsində indiki və gələcək nəsillər üçün parlaq bir nümunə var!

Bu gün Ulu öndər Heydər Əliyevin ruhu, əlbəttə, şaddır. Onun Azərbaycan xalqının parlaq gələcəyi naminə başladığı şərəfli missiya Prezident İlham Əliyevin parlaq liderliyilə böyük uğurla davam etdirilir. Heç kəsə asan görünməsin, son iyirmi ildə bir əsrlik yol qət edilib.

Bu gün Qarabağda indi "Böyük Qayıdış"ın əmək və hünər dastanı yazılır! Son iki ildə təkcə işğaldan azad edilmiş ərazilərdə dövlət başçısı tərəfindən 105 layihənin təməli qoyulub, onlardan 63 müxtəlif təyinatlı tikinti obyektinin açılışı olubdur. Cəmi 9 aya inşa edilmiş Füzuli Beynəlxalq Hava Limanı, Zəngilan Hava Limanı istifadəyə verilib. Laçın rayonunda hava limanının tikinti işləri davam etdirilir.

Dünyanın heç bir yerində belə vüsətli və heyrətamiz işlər görülmür. Son iyirmi ildə Azərbaycan, həqiqətən, inanılmaz surətdə inkişaf və tərəqqi yolu keçibdir. Ulu öndər inanırdı ki, gələcəkdə Azərbaycan dünyaya Günəş kimi doğacaq. Bu gün məhz həmin gündür!

**"Heydər Əliyev İli"ndə İlham Əliyevdən söz açmaq maraqlıdır. Bunun xüsusi bir önəmi də var. Qələm bizi mövzuya məhz bu cığırdan girməyə sövq edir. Səbəb onun Heydər Əliyevin bütün ömrünü həsr elədiyi mübarizənin, milli mücadilənin davamçısı olmasıdır. Bu, iyirmi illik mücadilədən alnıaçıq, üzüağ çıxmış, adını çağdaş Azərbaycan tarixinə qızıl hərflərlə həkk etdirmiş qalib sərkərdə, Zəfər yolçusu haqqında deyilən sözdür.**





# Zəfər yolçusu

## Qüdrətli lider iradəsi, cəsarəti və qətiyyəti ilə bütün çətinlikləri aşıb keçdi



Əsrlərin deyil, minilliklərin qovşağının və bir-birini əvəzləməsinin şahidi olmuş 70-80-ci illər nəslinin yaddaşında unudulması mümkün olmayan bir tarix yatır. Bu tarix "qırmızı imperiyanın" çöküşü, bir ictimai-siyasi formasiyadan digərinə keçid və bu qlobal dəyişikliklərin gətirdiyi təlatümlər, acılı-şirinli anlarla zəngindir. Bu yazıda həmin tarixin ən yaddaqalan, əzəmətli səhifəsinə və o səhifənin müəllifinin iyirmi illik fəaliyyətinə qısa nəzər salacağıq.

XXI əsrin 2023-cü ili ildönümlər və fövqəladə günlərlə zəngindir: Ulu öndər Heydər Əliyevin 100 illiyi! Şərqdə ilk Cümhuriyyətin – Azərbaycan Demokratik Respublikasının yaranmasından 105, Türkiyə Cümhuriyyətinin elan edilməsindən 100 il ötür. 2023 – "Heydər Əliyev İli" Azərbaycanın çağdaş milli tarixinə nadir töhfələr verməsi ilə də yadda qalacaq.

* * *

Mübaliğəsiz deyə bilərik ki, İlham Heydər oğlu Əliyev XXI əsrdə Qafqazda yeni tarix yaradır, bölgənin geosiyasi coğrafiyasını müəyyən edir, eləcə də dövlətimizi və xalqımızı daha böyük zəfərlərə daşıyacaq layihələrə, strateji qərarlara imza atır. İlham Əliyevin zəfərləri yalnız hərbi sahə ilə məhdudlaşmır. Onun Azərbaycanın iqtisadiyyatında, elmində, təhsilində, səhiyyəsində, idmanında qazandığı zəfərlərini vətəndaşımız öz həyatında hiss edir. Bu mənada dövlət başçımızın hərtərəfli, gərgin və məhsuldar siyasi fəaliyyətində ilk baxışda nəzərə çarpmayan, amma diqqətlə izləyəndə bütün çılpaqlığı ilə görünən mükəmməl nizam, qeyri-adi ardıcıllıq, daim artan dinamika var. Bu dinamikanın əsasında nələr dayanır? Regionda və dünyada söz sahibinə çevrilmiş bir dövlətin ali məqamından qaynaqlanan məsuliyyət, özünə qarşı hədsiz tələbkarlıq, öz üzərində daim işləmək vərdişi, təcrübə, intellekt və əlbəttə ki, gendən, fitrətdən gələn keyfiyyətlər. Bəs, İlham Əliyevin dövlətimiz və millətimiz üçün taleyüklü qərarların qəbul ediləcəyi anlarda, ən ekstremal şəraitdə belə müdrikcəsinə soyuqqanlı davranmasının sirri nədir? Bu sualın ən dəqiq cavabını Qarabağa çoxsaylı səfərlərinin birində cənab Prezidentin özü verib: "İradə, cəsarət, öz gücünə əminlik!"

Prezidentin hər çıxışının, hər bir sözünün arxasında dərin zəkanın dayandığı bütün parametrləri ilə özünü büruzə verir. O, ən dramatik, ən həssas məsələləri elə təqdim və təhlil edir ki, siyasətin içində bişmiş peşəkar diplomatın belə onu mübahisələndirmək üçün şansı qalmır.

İlham Əliyev Azərbaycan tarixinə həm də ilkərin müəllifi kimi düşüb. Dövlətimizin başçısı hər il, hər ay, az qala, hər gün bir ilkə imzasını atır. 2023-cü il də bu baxımdan istisna olmadı. 23 aprel İlham Əliyevin imzası ilə tarixə böyük və qızıl hərflərlə yazıldı. 2023-cü il aprelin 23-də Həkəri çayının üzərində Azərbaycanın "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsi quruldu. Prezidentin özünün də dediyi kimi, 23 aprel bizim ərazi bütövlüyümüzün tam bərpası deməkdir. Sentyabrın 19-20-də isə Ermənistan silahlı birləşmələrinin Qarabağdakı tör-töküntüsü 23 saat ərzində təmizləndi. Amma buna qədər sarsılmaz xalq–ordu–iqtidar birliyi dünya hərb tarixinə öyrənilməli nümunə kimi yazılan, 44 gün davam edən möhtəşəm Zəfər yolunu qət etmişdi.

* * *

Biz gələcək nəsillərin öyünəcəyi bir tarixin şahidləri və iştirakçılarıyıq. İllər, on illər, əsrlər boyu bizi bölüblər, parçalayıblar, kiçildiblər. Özgələr fikrimizi soruşmadan, iradəmizi nəzərə almadan xəritəmizi çəkiblər, sərhədlərimizi cızıblar. Arazı da ikiyə ayırıblar, İrəvanı da, Zəngəzuru da param-parça ediblər.

İlham Əliyev 200 illik erməni separatizminin sonunu gətirdi. Haylar, eləcə də onların bölgədə və kənarda "züytutanları" Azərbaycandan aldıqları iki yüz illik dərsi, Zəfərimizi həzm edə bilməyənlər gözləri bərəlmiş vəziyyətdə udquna-udquna qalıblar. Təkcə onlar deyil, indi bütün Avropa, dünya heyrət və təəccüb içindədir. Onları ən çox heyrətləndirən Azərbaycan Prezidentinin ilk baxışda mümkün görünməyəni reallaşdırmağı bacarmaq qabiliyyətidir. İlham Əliyev bütün dünyanı təəccübləndirir, heyrətləndirir. Təkcə heyrətləndirmir, həm də Azərbaycanla hesablaşmağa məcbur edir!

Geriyə nəzər salsaq görərik ki, ötən 20 ildə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi yönündə ardıcıl işlər görülüb. Bunun nəticəsidir ki, bu gün müzəffər ordumuz dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Məhz bu ordu Ali Baş Komandanın sərkərdəliyi altında 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq qurtuluş savaşını başladı və dünyanı heyrətə salan hərbi zəfərlərə imza atdı. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu. Qarabağın tacı, döyünən ürəyi Şuşanın işğaldan azad olunması tariximizə Zəfər Günü kimi yazıldı. İki gün sonra isə işğalçı Ermənistan kapitulyasiya sənədinə imza atmağa məcbur oldu.

* * *

Bütün varlığıyla yurduna bağlı, təpədən-dırnağa milli və bunu təbliğ və nümayiş etdirməkdən yorulmayan Prezident İlham Əliyev də var. Cənab Prezidentin xarakterindəki bu yüksək milli-mənəvi keyfiyyətləri, bəşəri dəyərlərə dərin sayğısı müxtəlif məkan və məqamlarda bütün çılpaqlığı ilə gözümüzün önündə canlanıb. Onun ölkəmizə təşrif buyuran rəsmilərlə, diplomatlarla, iş dünyasının və elm sahəsinin tanınmış simaları ilə görüşlərində siyasi etiketlə yanaşı, sərgilədiyi saf səmimiyyəti və dərin hörməti, qonaqpərvərliyi əcnəbiləri də heyrətləndirir. Bölgələrə səfərləri zamanı xalqla canlı təmaslarında, sıravi vətəndaşlarla söhbətlərində içdən gələn təbii qayğıkeşliyi, çöhrəsində məmnunluğun yaratdığı ülvi təbəssüm dövlətimizin başçısına çox yaraşır. Həmin görüşlərdə şəhid anasını, qaçqının, köçkünün balasını oğul təəssübkeşliyi, ata qayğısı ilə bağrına basanda qəlbimiz fəxarət hissi ilə döyünür. Çünki İlham Əliyev o məqamda əsilli-nəcabətli bir ailənin yetirməsi olmaqla yanaşı, öz xalqının dəyərli övladı statusunda görünür. Bəli, o, milli olduğu qədər bəşəri, bizim olduğu qədər də dünyəvidir.

* * *

Bəzi xarici siyasi ekspertlər İlham Əliyev və Nikol Paşinyan arasında uğursuz müqayisələr aparmağa səy göstərirlər. Belə yersiz və səmərəsiz məşğuliyyətə baş vuranlara sual vermək istərdik: Məgər bacarıqsız rəqqasla peşəkar diplomatı müqayisə etmək mümkündürmü? Bu müqayisə qüsurlu olduğu qədər də yanlışdır. Türk dünyasında, həmçinin beynəlxalq səviyyədə nüfuzlu siyasi liderlərdən birinə çevrilmiş Azərbaycan Prezidenti dəfələrlə milli maraqlar məsələsində kompromis tanımayan mövqedə olduğunu sübuta yetirib. Əslində, bu keyfiyyət onu digər siyasi xadimlərdən fərqləndirən xarizmatik liderlik xüsusiyyətlərindəndir.

İlham Əliyevi başqalarından fərqləndirən digər keyfiyyətləri də var: siyasətdə sistemliliyi qorumaq, səbirli, soyuqqanlı, təmkinli davranmaq, sözündə və qərarlarında dəqiq olmaq. Onun atacağı addımı öncədən müəyyənləşdirmək çətindir. Çünki o, nəyi və nə zaman edəcəyini yalnız özü bilir. O, Zəfərlə başa çatan Vətən müharibəsində bir daha sübut etdi ki, hər şeyi zamanında və həm də doğru məcrada edir.

20 illik ağır zəhmət bahasına Prezident İlham Əliyev müstəqil Azərbaycanın yeni inkişaf mərhələsinə keçidini təmin etdi. Onu sürətlə dəyişən müasir dünyada öz imzası və sözü olan qüdrətli dövlətə çevirdi. Bu sözü bir daha təkrarlamaq istərdik: Prezidentliyinin 17-ci ilində Azərbaycanı hərb meydanında qalib dövlətə çevirən İlham Əliyev xalqımıza sözlə ifadəsi mümkün olmayan böyük qürur hissini yaşatdı. Əsrə bərabər 20 ilin zirvəsi, Zəfər yolunun ən böyük dayanacağı torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən Vətən müharibəsi oldu. Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Qarabağ zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Bu zəfər Azərbaycanı qalib ölkəyə, xalqımızı qalib xalqa çevirdi. İlham Əliyev Azərbaycanın son iki əsrdə düçar olduğu və girdabından çıxa bilmədiyi ən böyük və ən ağrılı milli problemlərindən birini həll etdi.

* * *

Əlbəttə, Prezident, Ali Baş Komandan, qalib sərkərdə, mahir siyasətçi kimi İlham Əliyev şah əsəri azad Qarabağ, suverenliyi və ərazi bütövlüyü tam təmin olunmuş Azərbaycandır. "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" – deyən Ulu öndərin vəsiyyətinə əməl edən oğul İlham Əliyev dünyanın ən xoşbəxt qalib varisidir. O, Qarabağ Zəfəri ilə yalnız Heydər Əliyevin vəsiyyətinə əməl etməyib, həm də Cümhuriyyət dövründən bugünədək Azərbaycanda heç bir dövlət xadiminin yerinə yetirə bilmədiyi vəzifənin öhdəsindən gəlib. İlham Əliyev xalqın əyilmiş qəddini dikəldib, zədələnmiş qürurunu, ləyaqətini bərpa edib.

Ötən iki onillikdə Azərbaycan xalqı həmişə öz liderinə güvəndi və inandı, ona arxa və dayaq oldu. Prezidentimiz fəxarətlə deyir ki, bu uğurların əsasında ölkədəki sağlam ictimai-siyasi mühit, sabitlik, xalqla hakimiyyətin birliyi dayanır.

İyirmi il əvvəl bu gün Azərbaycan xalqı özünün yeni prezidentini seçdi. 2003-cü il oktyabrın 31-də andiçmə mərasimində Prezident İlham Əliyev artıq tarixin arxivinə göndüyü "Dağlıq Qarabağ" münaqişəsi barədə bunları demişdi:

"Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaq. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcək".

İyirmi il əvvəl üçrəngli bayrağın qarşısında diz çökən, onu öpüb gözünün üstünə qoyan gənc milli lider dediyi sözün arxasında durdu, vədinə əməl etdi. Bu tarixi missiyanın öhdəsindən xalqı və ordunu vəhdət halında ətrafında cəm edərək, "dəmir yumruğ"unu başının üstünə qaldıraraq, özünün dediyi kimi, iradənin, cəsarətin və özünə inamın hesabına gəldi.

Azərbaycanın Zəfər yolu davam edir. Bu yolun baş memarı İlham Əliyevin hələ neçə-neçə zəfərlərə imza atacağına əminik.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ümummilli lider Heydər Əliyevin ideya və əməllərinin, dövlətçilik xəttinin ən layiqli davamçısı, çağdaş dünyanın tanınmış siyasi və dövlət xadimi İlham Əliyev 20 ildir ki, müstəqil Azərbaycan dövlətinə uğurla rəhbərlik edir. Bu müddətdə onun dövlət başçısı kimi həyata keçirdiyi məqsədyönlü siyasət və atdığı addımlar həm ölkəmizdə, həm də xaricdə daim yüksək qiymətləndirilir.**

> ***Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən Ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim.***
>
> ***İlham ƏLİYEV,***
> ***Azərbaycan Respublikasının Prezidenti***

# Hamının və hər kəsin Prezidenti



Təsadüfi deyildir ki, dünyanın bir sıra dövlət və siyasət adamları, elm və mədəniyyət xadimləri, görkəmli şəxsiyyətlər İlham Əliyevin fəaliyyətinə yüksək qiymət verirlər. Azərbaycan rəhbərini "Enerjili, təşəbbüskar, uzaqgörən, çox savadlı və müdrik insan" (Lütfi Zadə), "Bütün türk dünyasının rəğbətlə qəbul etdiyi güvənli lider, siyasət aləminin yeni məfkurəli dövlət xadimi" (Akkan Suver), "Zəmanəmizin ən uğurlu liderlərindən biri" (Salome Zurabişvili), "Ölkəsinin maraqları naminə müdrik və uzaqgörən siyasət həyata keçirən lider" (Mixail Urqumov), "Müstəqil düşünən, olduqca savadlı, fiziki və mənəvi cəhətdən sağlam olan müstəqil və dünya miqyaslı dövlət xadimi" (Dmitri Kiselyov), "Regional və iqtisadi siyasət meydanında öz xalqına başçılıq edərək ölkəsini regionun ən sabit bölgəsinə çevirən rəhbər, nümunə olan bir lider" (Teresa Marqolis) kimi dəyərləndirmiş və müxtəlif sahələrdə fəaliyyətinə yüksək qiymət vermişlər.

ABŞ Konqresinin nümayəndə heyəti İlham Əliyevlə görüşərkən konqresmen Kurt Ueldon isə demişdir: "Həqiqətən, 5 dildə təmiz danışan və dünya siyasətində xüsusi çəkisi olan Sizin kimi liderlə ilk dəfədir ki, görüşürəm. Beləliklə, həqiqətən, böyük şərəf duyuram ki, dünya miqyaslı liderlə görüşürəm". Bu orijinal qiymətlər bir daha təsdiq edir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dünya miqyaslı siyasətçi və mahir dövlət xadimidir. Xalqımız bu dəyərdən hədsiz qürur duyur və çox böyük fərəh hissi keçirir.

Ulu öndər Heydər Əliyevin həyatının son illərində Azərbaycan cəmiyyətini, eləcə də ölkəmizi və beynəlxalq dairələri dövlətə gələcəkdə kimin rəhbərlik edəcəyi, Ümummilli liderin hakimiyyət irsini və siyasi kursunu kimin davam etdirəcəyi ciddi düşündürürdü. Bu barədə düşünəndə hamının ağlına Ulu öndərin ən yaxın silahdaşı və ən istedadlı yetirməsi İlham Əliyev gəlirdi. Bu isə təsadüfi deyildi. Çünki, bu təkcə İlham Əliyevin dünya miqyaslı ictimai-siyasi xadim, müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu Heydər Əliyevin oğlu olması ilə bağlı deyildi. Həm də ona görə idi ki, İlham Əliyev yeni tipli gənc lider kimi XX əsrin 90-cı illərinin ortalarından başlayaraq ölkədə və ondan kənarda kifayət qədər tanınır və dəyərləndirilirdi.

İlham Əliyevin yüksək nüfuz qazanması bir sıra amillərlə bağlı idi. O, ilk növbədə, Heydər Əliyev kimi nadir şəxsiyyətin genetik keyfiyyətlərini daşıyırdı, ictimai fəaliyyət meydanına onun siyasət və idarəetmə məktəbindən keçib gəlmişdi. Bu gənc lider yaxşı təhsil almış, xarici dillərdə sərbəst danışmağı, beynəlxalq səviyyəli siyasi və dövlət xadimləri ilə təmasa girmək bacarığını dərindən mənimsəmişdi. Bir sözlə, Ulu öndərin siyasi varisi dünyanın müasir siyasi düşüncə texnologiyalarına yiyələnmişdi.

İlham Əliyevin 1994–2003-cü illərdə Azərbaycan Dövlət Neft Şirkətinin əvvəlcə vitse-prezidenti, sonra birinci vitse-prezidenti kimi fəaliyyəti ölkəmizin iqtisadi dirçəlişində mühüm rol oynamışdır. Heydər Əliyevin böyük müdrikliklə hazırladığı neft strategiyasının gerçəkləşməsində fəal iştirak edərək "Əsrin müqaviləsi"nin ərsəyə gətirilib həyata keçirilməsində müstəsna xidmətlər göstərmişdi. İlham Əliyevin iki dəfə (1995 və 2000-ci illərdə) Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilməsi onun siyasi fəaliyyət dairəsini daha genişləndirmişdi. Xüsusilə onun Milli Məclisin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin başçısı kimi Azərbaycanın milli maraqlarının müdafiəsinə yönəlmiş fəaliyyətini nəinki xalqımız, eləcə də bu beynəlxalq təşkilat yüksək qiymətləndirirdi. Elə bunun nəticəsi idi ki, cənab İlham Əliyev Avropa Şurası Parlament Assambleyası sədrinin müavini və Büro üzvü seçilmişdi.

Siyasi varisin 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti kimi ölkəmizdə Olimpiya hərəkatının görünməmiş miqyasda vüsət almasına təkan vermiş fəaliyyəti xüsusilə qeyd edilməlidir. Ölkəmizdə idmanın və Olimpiya hərəkatının sürətlə inkişafı məhz İlham Əliyevin yüksək təşkilatçılıq və məqsədyönlü bacarığı sayəsində mümkün olmuşdu.

2003-cü il avqustun 4-də İlham Əliyev Azərbaycan Respublikasının Baş naziri təyin olundu. Bu vəzifədə az müddət ərzində işləsə də, qəbul etdiyi qərarlarla, həyata keçirməyə başladığı işlərlə ölkəyə rəhbərlik etmək bacarığına və səriştəsinə malik olduğunu bir daha sübut etdi. Bu da təsadüfi deyildir ki, həmin ilin prezident seçkilərində Ulu öndər Heydər Əliyev xalqa müraciətində seçkilərdə onun siyasi varisi olan İlham Əliyevi dəstəkləməyə çağırdı.

20 il əvvəl – 2003-cü il 15 oktyabr prezident seçkilərində isə İlham Əliyevin böyük əksəriyyətlə ölkə Prezidenti seçilməsi xalqımızın Heydər Əliyev ideyalarına verdiyi dəyərin, bu siyasətə dəstəyinin aydın ifadəsi idi. Məhz bu məqamlara söykənərək İlham Əliyev Prezident kimi mətbuata ilk müsahibəsində perspektivlərdən söz açarkən bildirmişdi: "Demişəm, Azərbaycan xalqı görəcək ki, mən Azərbaycan üçün, xalqımız üçün yaxşı Prezident olacağam, hər bir azərbaycanlının Prezidenti olacağam".

Doğrudan da, İlham Əliyev prezidentlik fəaliyyətində həmişə xalqla bir olmuş, xalqın inam və etimadını qazanmışdır. Xalqımız isə sevimli rəhbərinə öz dəstəyini həmişə göstərmişdir. "Bizim uğurlarımızın əsas mənbəyi Azərbaycan xalqının fəaliyyətidir, Azərbaycan xalqının iradəsidir"– deyən cənab İlham Əliyevin 2008-ci il prezident seçkilərindən də qalib çıxmasını şərtləndirən əsas amil onun xalqın yanında olması, xalqının isə onu alternativsiz etimad ünvanı kimi görməsi idi. 2008-ci il seçkilərində 88,73 faiz səslə Prezident seçilən İlham Əliyev 2013-cü il seçkilərində 84,54 faiz, 2018-ci il seçkilərində isə 86,02 faiz səslə vətəndaşlarının yeganə inam mənbəyi olduğunu təsdiqləmişdir.

Xalqımızın dəstəyini hər zaman yüksək dəyərləndirən İlham Əliyevin söylədiyi fikirlər bunu bir daha təsdiq edir: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm...

Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən Ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim".

İlham Əliyev hakimiyyətdə olduğu dövrdə Heydər Əliyevin xilaskarlıq, quruculuq və liderlik missiyasını əsas götürərək bunları uğurla davam etdirmişdir. Bu səbəbdən də Azərbaycan xalqı təhlükəsizlik, sabitlik şəraitində yaşayır, ölkəmiz hərtərəfli səviyyədə inkişaf edir. İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə ölkəmizin siması əsaslı şəkildə dəyişmiş, xalqımızın maddi-rifah halı yaxşılaşmışdır.

Dövlət başçısının 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında"kı fərmanı ölkə iqtisadiyyatında mütərəqqi inkişaf meyillərinə böyük təkan vermişdir. Ölkə rəhbəri İlham Əliyevin 11 fevral 2004-cü il tarixdə təsdiqlədiyi "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı" isə Azərbaycan regionlarının tarazlı və davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulmasına səbəb olmuşdur.

Artıq sayı dördə çatmış bu dövlət proqramları çərçivəsində atılmış ardıcıl addımlar uzun illər regionların sosial-iqtisadi tərəqqisinə mane olan köklü problemləri aradan qaldırmış, yerlərdə infrastrukturun yeniləşdirilməsinə maddi zəmin yaratmışdır. Regional inkişaf proqramlarının əsas məqsədi isə bu sahədə həyata keçirilən siyasətin davamı olaraq ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, iqtisadiyyatın diversifikasiyası, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır. Bu proqramların icrası sayəsində respublikada çoxsaylı yeni müəssisə istifadəyə verilmiş, yollar çəkilmiş, sosial obyektlər xalqın istifadəsinə verilmişdir.

Prezident İlham Əliyev Ulu öndərin müəllifi olduğu yeni neft strategiyasını da uğurla davam etdirmişdir. Qlobal neft və qaz kəmərlərinin inşasının başa çatdırılması ilə ölkə rəhbəri Azərbaycanın bölgədəki lider mövqeyini daha da möhkəmləndirmiş, regionun digər dövlətlərindən fərqli olaraq müstəqil xarici və iqtisadi siyasət yeritdiyini bütün dünyaya sübut etmişdir. Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol kimi Bakı–Tbilisi–Qars yeni dəmiryolu xəttinin istifadəyə verilməsi artıq regionun lider dövlət olan Azərbaycanın xaricdən maddi və mənəvi dəstək almadan iri maliyyə tutumlu layihələrin reallaşdırılmasına qadir olduğunu göstərmişdir.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin, Bakı–Tbilisi–Ərzurum qaz boru xəttinin istismara verilməsi isə gələcək layihələr üçün əsas olmuşdur. Dövlət başçısı Xəzərin neft yataqlarının mənimsənilməsi və istismarı haqqında müqavilənin – "Əsrin müqaviləsi"nin hazırlanmasına və həyata keçirilməsinə sanballı töhfə vermişdir. 1994-cü ildə bağlanmış bu müqavilədən 23 il sonra – 2017-ci il sentyabrın 14-də Bakıda "Azəri–Çıraq–Günəşli" yatağının işlənməsinin davam etdirilməsi barədə yeni "Əsrin müqaviləsi" imzalanmışdır. Prezident İlham Əliyevin sistemli, düşünülmüş və əsaslı fəaliyyətinin nəticəsi olaraq müqavilənin fəaliyyət müddəti 2050-ci ilə qədər uzadılmışdır. Yeni müqavilədə Azərbaycanın iştirak payı artırılaraq 11,6 faizdən 25 faizə çatdırılmış, ölkəmizə çatacaq mənfəət neftinin payı 75 faizə qaldırılmışdır.

Azərbaycanın neft-qaz sahəsində əldə etdiyi uğurlar Avropanın enerji təhlükəsizliyi məsələsində də ciddi rol oynayır. Trans–Anadolu və Trans–Adriatik qaz kəmərlərinin çəkilməsinə nail olmaqla Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin aparıcı qüvvəsi kimi çıxış edir.

Ölkə başçısının mütəmadi olaraq regionlara səfəri sürətli inkişafa səbəb olur, şəhər və rayonların sosial-iqtisadi inkişafı üçün əlavə maliyyə dəstəyi göstərilir. Nəticədə regionların sosial-iqtisadi inkişafı sürətlə davam edir, xalqın rifahı naminə ardıcıl və sistemli tədbirlər görülür. Son 20 ildə ölkəmizdə 2 milyondan artıq iş yeri yaradılmış, işsizlik 40 faizdən 5 faizə, yoxsulluq 49 faizdən 5 faizə enmişdir. Azərbaycan iqtisadiyyatı 4 dəfə artmışdır. Ümumi daxili məhsulun həcmi, təqribən, 80 milyard manata çatmışdır. Dövlət büdcəsi 1,2 milyard manatdan 36 milyarda yüksəlmişdir.

Ötən illərdə ölkə iqtisadiyyatına 275 milyard dollardan artıq investisiya qoyulmuş, Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan 60 milyard dollar həddinə çatmışdır. Bu gün Cənubi Qafqaz iqtisadiyyatının təxminən 75-80 faizi Azərbaycanın payına düşür. Son illərdə Azərbaycan qədər inkişaf edən ölkə demək olar ki, olmayıb.



2022-ci ildə gerçəkləşdirilən əsaslı sosial siyasət sahəsində çox böyük dəyişikliklər baş vermişdir. Sosial islahat paketləri 4,2 milyon nəfəri əhatə etmişdir. Bunlar isə ölkə Prezidentinə respublika əhalisinin inam və sevgisini, hörmət və dəstəyini qazandırmışdır. "Azərbaycanda yoxsul adam olmamalıdır" – prinsipi Prezident İlham Əliyevin fəaliyyətində önəmli yer tutur və bu istiqamətdə əhəmiyyətli addımlar atılır.

Prezident İlham Əliyev XXI əsrin başlanğıcından bütün sahələrdə inkişafı davam etdirmiş və Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tutmasını, regional liderliyini təmin edib. Bu gün Prezident seçilməsinin 20-ci ildönümü tamam olan İlham Əliyevin rəhbərlik fəaliyyətini ümumilikdə 4 qrup üzrə təsnifatlaşdırmaq olar: 2003–2008-ci illər – İlham Əliyevin Azərbaycan miqyasında birləşdirici liderə çevrilməsi; 2008–2013-cü illər – Cənubi Qafqazın alternativsiz, MDB-nin nüfuzlu lideri kimi qəbul olunması; 2013–2018-ci illər – dünya siyasi elitasında Azərbaycanın təmsilçisi olaraq, qlobal məkanın vacib siyasi aktorlarından biri kimi çıxış etməsi; 2018-ci ildən başlanan yeni mərhələdə isə İlham Əliyev dünya siyasətində müstəqil xarici siyasəti yeridən yeni əsrin yeni lideri kimi tanınır.

Dövlət başçısı İlham Əliyevin başqa sahələrlə yanaşı elm, təhsil və mədəniyyətimizin inkişafı istiqamətinə həyata keçirdiyi siyasət Ulu öndərin formalaşdırdığı ənənələrin uğurlu davamıdır. Bu sahələrdə qazanılmış nailiyyətlər möhkəmləndirilmiş, onların inkişafına diqqət və qayğı artırılmışdır. Təsadüfi deyildir ki, ölkə Prezidenti respublikanın zəngin iqtisadi potensialının insan kapitalı ilə əvəzlənməsini son dərəcə vacib sayaraq demişdir: "İqtisadi inkişaf sürətinə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Biz bu maddi dəyərləri, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik, çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir".

Azərbaycan 20 ilə yaxındır ki, Dünya Bankının bütün hesabatlarında islahatçı ölkə kimi mövqeyini möhkəmləndirib, inkişaf modeli dünyaya nümunə göstərilib. Bu ilk növbədə cənab İlham Əliyevin yenilikçi, təkmil islahatlara meyilli olmasından irəli gəlir. İslahatların mərkəzində isə Azərbaycan vətəndaşı, onun qayğıları dayanır. Həyatın bütün sahələrini əhatə edən, dünyada maraqla qarşılanan islahatların təşəbbüskarı ölkə Prezidentidir. Azərbaycan brendi kimi dünyada tanınan "ASAN xidmət", ABAD, DOST layihələri də təşəbbüsdən reallığa çevrilmişdir.

Ölkəmiz artıq kosmik klubun azsaylı üzvlərindən biridir. 3 telekommunikasiya peykimiz orbitə çıxarılmışdır. Bu günlərdə Bakı şəhərində 74-cü Beynəlxalq Astrofizika Konqresinin keçirilməsi 50 il bundan əvvəlki ənənənin yenidən davam etdirilməsinə əyani nümunədir. 20 il ərzində ölkəmizdə beynəlxalq səviyyəli, müxtəlif xarakterli tədbirlər hazırlanıb və ən yüksək səviyyədə həyata keçirilib. "Evroviziyon", BMT-nin İnternet İdarəçilik Forumu, Davos İqtisadi Forumu, I Avropa Oyunları, Beynəlxalq Humanitar Forum, İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə Toplantısı, Dünya dini liderlərinin beynəlxalq tədbiri və onlarla digər mühüm beynəlxalq tədbirlərə evsahibliyi edən ölkəmiz həm də sosial, iqtisadi, mədəni-humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə edildiyi əlverişli məkana çevrilmişdir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, inkişafımızın əsasında düşünülmüş siyasət, liberal islahatlar, dövlətin həyata keçirdiyi siyasətin xalq tərəfindən dəstəklənməsi, güclü hakimiyyət və sabitlik amilləri dayanır. İqtisadçı alimlər müstəqil Azərbaycanın İlham Əliyev mərhələsini hərtərəfli inkişaf dövrü kimi səciyyələndirirlər. Prezident İlham Əliyev dünyanın ən nüfuzlu şəxsləri sırasındadır. Bunu dünyanın müxtəlif mərkəz və şirkətlərinin keçirdikləri ictimai rəy sorğusunun nəticələri təsdiq edir.

Prezident İlham Əliyevin özünəməxsus liderlik keyfiyyətləri, siyasi prosesləri yönəltmək məharəti, neyi nə vaxt və necə etmək bacarığı, cəmiyyətin maraq və mənafelərini ümumi bir nöqtədə birləşdirmək qabiliyyəti ona imkan vermişdir ki, qarşıya qoyulan vəzifələrə nail olunsun. Bu keyfiyyətlər İlham Əliyevi yeni əsrin yeni liderinə yüksəltmişdir. O, postsovet məkanında tamamilə yeni tipli siyasi liderin nümunəsinə çevrilmişdir. İlham Əliyev dünya səviyyəli siyasi lider və inkişaf etmiş dövlətlərin liderləri ilə bir sırada dayanan görkəmli dövlət xadimidir.

İlham Əliyev xalqın güvəndiyi şəxsiyyətdir. O, dövlətçilik, böyük siyasət və idarəetmə baxımından əsl liderə məxsus xüsusiyyətləri kompleks şəkildə özündə təcəssüm etdirir. Yüksək dövlətçilik istedadı, əsl liderlik qabiliyyəti, aydın siyasəti, zəngin idarəetmə təcrübəsi ona böyük nüfuz qazandırmışdır. İlham Əliyevin sözü və mövqeyi dünyada eşidilir və qəbul olunur. Bir sıra dövlətlərin xalqları da öz prezidentlərində bu keyfiyyətlərin olmasını dilə gətirirlər.

Prezident İlham Əliyevin səmərəli fəaliyyətindən danışarkən, xarici siyasət kursunu ayrıca qeyd etməliyik. Çünki dövlət başçısı bu istiqamətdə çox böyük uğurlar əldə edib. Dövlət başçısı sürətlə dəyişən geosiyasi mühitdə ziddiyyətli və riskli dönəmdə xarici siyasəti səmərəli istiqamətləri üzrə inkişaf etdirir. Bunu həm Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı atılan addımlar, həm də xarici siyasətin bütün prioritet istiqamətləri üzrə həyata keçirilən proqramlar sübut edir.

Dövlət başçısı Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı prinsipial mövqeni belə ifadə edib. "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar".

Prezident İlham Əliyevin prinsipial və qəti mövqeyi Vətən müharibəsində və antiterror əməliyyatlarının uğurla həyata keçirilməsində özünü göstərdi. Ermənistan silahlı qüvvələri məhv edildi və 2020-ci il noyabrın 10-da prezidentlər İlham Əliyev, Vladimir Putin və baş nazir Nikol Paşinyanın imzaladığı üçtərəfli bəyanat regionda uzunmüddətli münaqişənin hərbi fazasını başa çatdırdı və faktiki olaraq işğalçı Ermənistan dövlətinin kapitulyasiyası aktı oldu. İkinci Qarabağ müharibəsi nəticəsində işğal edilmiş torpaqlarımız qaytarıldı, ərazi bütövlüyümüzün bərpası təmin edildi. Ötən aykı antiterror əməliyyatı isə suverenliyimizin bərpası ilə nəticələndi. Vətən müharibəsində və ondan sonrakı müddətdə qazandığımız bütün zəfərlərin müəllifi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevdir!

Prezident İlham Əliyev diplomatik səyi ilə 2011-ci ilin iyun ayında Azərbaycan Qoşulmama Hərəkatına üzv oldu. Həmin il oktyabrın 24-də isə BMT TŞ-ya keçirilən seçkilərdə Qoşulmama Hərəkatı üzvləri Azərbaycanın lehinə səs verdilər. Azərbaycan 155 səs ilə iki il müddətinə BMT TŞ-nın qeyri-daimi üzvü seçildi. Prezident İlham Əliyev Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tapmasını, regional liderliyini təmin etdi.

Prezident İlham Əliyev Ümummilli lider Heydər Əliyevin dövlətçilik irsini inkişaf etdirərək yeni, modern Azərbaycan dövləti qurdu. Dövlət başçısı İlham Əliyevin bütün çıxışlarının mahiyyətində dayanan "Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Biz öz taleyimizin sahibiyik, biz müstəqil ölkəyik, biz azad xalqıq, biz dünya miqyasında öz layiqli yerimizi tutmuşuq və bundan sonra da müstəqillik, inkişaf yolu ilə gedəcəyik" tezisi dünənimizə və gələcəyə baxışdır.

Ölkəmizin başçısı İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən 20 il keçir. Bu günün zirvəsindən dönüb ötən dövrə nəzər saldıqda Azərbaycanın nə qədər möhtəşəm inkişaf mərhələsi yaşadığının canlı şahidi oluruq. Həmin dövrü Azərbaycanın yeni və parlaq inkişaf mərhələsi, Prezident İlham Əliyevin isə onun memarı adlandırılması üçün bütün əsasların olduğunu indi hamı birmənalı şəkildə təsdiq edir.

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# Müasir tariximizin 20 illik şanlı səhifələri

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bəyanatı



**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin xüsusi iclasında dövlət başçısı İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü münasibətilə bəyanat qəbul edilib.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, 20 il bundan əvvəl – 2003-cü ildə cənab İlham Əliyev ilk dəfə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilib. Çoxşaxəli və zəngin fəaliyyətində dövlət başçısının nailiyyətlərindən biri ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, işğalda olan ərazilərimizin geri qaytarılması ilə nəticələnən 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərdir. Bu gün bizim mükəmməl institutlarımız, güclü iqtisadiyyatımız, müdafiə potensialımız, düşünülmüş inkişaf strategiyamız və ən əsası isə dünyada tanınan və nüfuz sahibi olan cənab İlham Əliyev kimi liderimiz var. Anar İbrahimov deputat həmkarlarını və onların seçicilərini əlamətdar hadisə münasibətilə təbrik edib.

Ali Məclisin deputatları Əmir Babayev, Ehtibar İsmayılov, Yeganə Məmmədova, Hacıfəxrəddin Səfərli, Ehtimad Məmmədov, Vüsalə Əliyeva və Asim Əliyev çıxışlarında həyatın bütün sahələrdə əldə edilən yüksək göstəricilərin Ulu öndər Heydər Əliyevin milli inkişaf modelinin uğurlu tətbiqinin nəticəsi olduğunu, sosial-siyasi islahatların ardıcıl həyata keçirilməsinin, qanunvericilik bazasının təkmilləşdirilməsnin, vətəndaş cəmiyyətinin formalaşdırılmasının və digər strateji tədbirlərin Azərbaycanın dinamik inkişafını təmin edən əsas faktorlar olduğunu diqqətə çatdırıblar.

Bildirilib ki, bu gün Ulu öndərin mənəvi-siyasi irsinin layiqli davamçısı, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müasir tarixinin şanlı səhifələri yazılır. Dövlət başçısının diqqət və qayğısı nəticəsində Azərbaycan bütün sahələrdə – iqtisadiyyat, müdafiə, təhsil, səhiyyə, turizm, mədəniyyət və digər istiqamətlərdə böyük uğurlara imza atıb.

Qeyd olunub ki, 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi dövründə yetişən gənclik və şanlı ordumuz qızıl hərflərlə Zəfər salnaməsi yazdı, 30 illik işğalçılıq siyasətinə son qoyuldu, ərazi bütövlüyümüz, tarixi ədalət bərpa olundu. Uğurla başa çatan antiterror tədbirləri ilə isə Azərbaycan bütün dünyaya öz gücünü bir daha nümayiş etdirdi, suverenliyimiz təmin olundu. Hazırda dövlət başçısının rəhbərliyi ilə işğaldan azad edilən ərazilərdə bərpa və quruculuq işləri sürətlə davam etdirilir, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarında məskunlaşması prosesi həyata keçirilir.

Hazırda ölkənin bütün bölgələri kimi Naxçıvan Muxtar Respublikası da dinamik inkişaf edir. Muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı 2023-2027-ci illəri əhatə edən dövlət proqramının qəbul olunması, Zəngəzur dəhlizinin açılması istiqamətində həyata keçirilən tədbirlər bunun əyani sübutudur.

Deputatlar Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin inkişafının daha da sürətlənəcəyini, yeni-yeni uğurlara imza atılacağını vurğulayıblar. Onlar İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatına dəstək ifadə ediblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Bəyanatının layihəsi hazırlanıb. Ali Məclisin deputatı Aidə Cəlilzadə Ali Məclisin həmin Bəyanatını səsləndirib.

Bəyanat səsə qoyularaq qəbul edilib.

***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

# Tarixi şəxsiyyət, görkəmli dövlət xadimi



**Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Mingəçevirdə silsilə tədbirlərin keçirilməsi davam edir. Mingəçevir şəhər İcra Hakimiyyətinin tədbirlər planına uyğun olaraq Heydər Əliyev Mərkəzində "Tarix yazan əbədiyaşar lider" mövzusunda dəyirmi masa keçirilib.**

Tədbir iştirakçıları əvvəlcə Ulu öndərin Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış abidəsi qarşısına gül dəstələri qoyaraq ehtiramlarını bildiriblər. Ümummilli liderin, dövlətçiliyimiz, ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Ulu öndərə həsr olunmuş "Tarix yazan əbədiyaşar lider" filmə baxılıb.

Tədbiri Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov açaraq bildirib ki, "Heydər Əliyev İli" çərçivəsində silsilə tədbirlər Ulu öndərin ruhuna minnətdarlıq rəmzidir. Heydər Əliyevin xalqımız qarşısında çox böyük xidmətləri olub. Ölkəmiz müstəqillik əldə etdiyi ilk illərdə Azərbaycan xalqı çox çətinliklərlə qarşılaşmışdı, ölkə iqtisadi cəhətdən böhran içərisində idi. Torpaqlarımız ermənilər tərəfindən işğal olunmuşdu. Belə çətin zamanda Ulu öndər xalqın tələbi ilə hakimiyyətə dəvət edildi. Onun böyük dövlətçilik təcrübəsi sayəsində ölkənin iqtisadi vəziyyəti yaxşılaşdı, daxili və xarici siyasət sahəsində uğurlar əldə olundu, ordu quruculuğuna başlanıldı, cəbhədə atəşkəs elan olundu. Ulu öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycanımız parçalanmaqdan xilas olundu. Öz tarixi xidmətləri nəticəsində Ulu öndər müstəqilliyimizi qoruyub saxlamaqla bu günkü inkişaf etmiş Azərbaycanımızın əsasını qoydu.

Sevindirici haldır ki, ulu öndər Heydər Əliyevin başladığı işlər onun siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən böyük qətiyyət və cəsarətlə davam etdirilir. Bu gün də, dünən də, əldə edilən nailiyyətlər Ulu öndərin siyasətinin davamlı nəticələridir. Onun şah əsəri olan müasir Azərbaycan etibarlı əllərdədir. Ümidlə demək olar ki, bu gündən sonra da Heydər Əliyev ideyaları daimi yaşayacaq və yeni-yeni zəfərlər qazanacaqdır.

Tədbirdə YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev "Heydər Əliyev – tarixi şəxsiyyət, görkəmli dövlət xadimi və əbədiyaşar liderdir", MDU-nun müəllimi, tarix üzrə fəlsəfə doktoru Aygün Qədirova "Heydər Əliyev – müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu", MDU-nun müəllimi, filologiya üzrə fəlsəfə doktoru Pərvin Hüseynova "Heydər Əliyev – tariximizin qurucu xilaskar fenomeni", Mingəçevir Turizm Kollecinin tarix müəllimi Eldar Dərişov Azərbaycanın müasir zəfərləri ulu öndər Heydər Əliyevin təməlini qoyduğu xəttin uğurlu nəticələridir" mövzularında məruzələrlə çıxış ediblər.

Tədbirə şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov yekun vuraraq qeyd edib ki, biz müstəqil Azərbaycan dövlətinin yaradılması və inkişafında mühüm xidmətləri olan Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif məqamlarını əks etdirən çıxışları iftixar hissi ilə dinlədik. Birmənalı şəkildə qeyd edirik ki, bu gün ölkəmizin əldə etdiyi bütün nailiyyətlərin əsasını məhz müstəqil Azərbaycanın özü qədər əbədi olan Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi xətt təşkil edir. Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun gündən-günə artması, ölkəmizə etibar olunan beynəlxalq tədbirlər, mədəni və idman yarışları məhz bu inamın və etimadın, ulu öndər Heydər Əliyevin ideyalarının reallaşmasının nəticələridir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında torpaqlarımız şanlı ordumuzun qalibiyyəti ilə işğaldan azad olundu, sərhədlərimiz bərpa edildi. Ölkə Prezidentinin apardığı ardıcıl siyasət nəticəsində Qarabağ və Şərqi Zəngəzur ərazisinin bərpa edilməsinə başlanıldı. Üç il ərzində həmin ərazilərdə uğurlu işlər aparılmışdır. Bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərinə soydaşlarımızın qayıdışı təmin olunur. Soydaşlarımızın 30 illik həsrətinə son qoyuldu. Görülən bu işlər ulu öndər Heydər Əliyevin təməlini qoyduğu xəttin uğurlu nəticələridir. Bütün sahələrdə qazandığımız bu uğurlar Heydər Əliyev ideyalarının düzgünlüyünü, əbədiyaşarlığını və qalibiyyətliyini göstərir.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Ümidləri doğruldan lider

**Dünən Qərbi Azərbaycan İcmasında İlham Əliyevin Prezident seçilməsinin 20 illiyinə həsr olunmuş toplantı keçirilib.**



İcmanın mərkəzi orqanlarının rəhbərlərinin iştirak etdiyi iclasda çıxış edən QAİ İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli Prezident İlham Əliyevin 20 il əvvəl ölkə prezidenti seçiləndən sonra həyata keçirdiyi uğurlu siyasətin xalqımızın ümidlərini doğrultduğunu, ölkəmizə möhtəşəm qələbələr qazandırdığını, nəhayət, torpaqlarımızın işğaldan azad olunması, suverenliyimizin tam bərpası ilə nəticələndiyini bildirib. O, Prezident İlham Əliyevin adı ilə bağlı qlobal layihələrə də nəzər salıb və bu işlərin Azərbaycanı hazırkı inkişafa qovuşdurduğunu, vətənimizi dünyada ön mövqelərə çıxardığını vurğulayıb.

İcma İdarə Heyətinin sədr müavini, Milli Məclisin deputatı Hikmət Babaoğlu, qurumun Müşahidə Şurasının sədri, professor Misir Mərdanov, Ağsaqqallar Şurasının və Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Ağsaqqallar Şurasının üzvü Abel Məhərrəmov, Nəzarət-Təftiş Komissiyasının sədri Vahid Novruzov,

Qadınlar Şurasının sədri Məlahət İbrahimqızı, Ziyalılar Şurasının sədri Elxan Hüseynov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə 20 il ərzində həyatın bütün sahələrində əldə edilmiş tarixi uğurlardan danışmış, tarixi Qarabağ zəfərinin Qərbi azərbaycanlıların doğma yerlərə qayıtması ilə bağlı böyük ümidlər yaratdığını qeyd ediblər.

***XQ***

# Heydər Əliyev və Azərbaycanın xarici aləmi

**Azərbaycan Dillər Universitetinin (ADU) Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Müstəqillik dövründə ingilisdilli mətbuatda Azərbaycan obrazı (1993-2003)" kitabı universitetin Elmi Şurasının qərarı ilə çap olunub.**



Məqalələr toplusu olan yeni nəşrdə 1993–2003-cü illərdə müxtəlif ölkələrdə olan ingilisdilli mətbuatda Azərbaycan haqqında dərc olunan məqalələrin dilimizə tərcüməsi yer alıb. Dövrün tələbinə uyğun olaraq, yazılar əsasən Ermənistan–Azərbaycan münaqişəsi, Azərbaycanın neft-qaz sənayesi, siyasi həyatı, tarixi və mədəniyyəti ilə bağlı mövzuları əhatə edir. Bəzi məqalələrdə bəhs edilən hadisə və proseslərlə əlaqəli yol verilən qeyri-dəqiqliklər, təhriflər və s. barədə kitabın "Qeydlər" bölməsində şərhlər verilib. Kitab tədqiqatçılar, siyasətçilər, Azərbaycan tarixi, iqtisadiyyatı, mədəniyyəti və respublikanın beynəlxalq əlaqələri ilə maraqlananlar üçün nəzərdə tutulub.

Layihənin ideya müəllifi və rəhbəri ADU-nun rektoru, akademik Kamal Abdulladır. İcraçı-koordinatorlar "Azərbaycanşünaslıq" Elmi Mərkəzinin müdiri, tarix üzrə fəlsəfə doktoru Aqşin Rüstəmov və həmin mərkəzin elmi işçisi Suğra Ələkbərlidir. Layihənin məsul redaktoru tarix üzrə fəlsəfə doktoru Aqil Şahmuradov, kitabın tərtibçiləri isə Şəhla Xudiyeva, Nərgiz Seyidova, Aysu Hüseynli, Pərvanə Cəfərova, Röya Əzizova, İradə Nəcəfova, Gülnar Nağıyeva, İlahə Tağızadə, Eleonora Babayeva, Sabir Əliyev, Təvəkkül Zeynallıdır.

Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov, ADU-nun "Azərbaycanşünaslıq" Elmi Mərkəzinin baş elmi işçisi Solmaz Rüstəmova-Tohidi, Bakı Dövlət Universitetinin slavyan tarixi kafedrasının müdiri Abutalıb Cəlilov kitaba rəy veriblər.

Ön sözdə akademik Kamal Abdulla bildirib: "Qeyd etmək lazımdır ki, 1993–2003-cü illərdə Ümummilli Liderin rəhbərliyi altında Azərbaycanda reallaşdırılan köklü dəyişikliklərin, cərəyan edən hadisə və proseslərin və həyata keçirilən xarici siyasət kursunun intensivliyi ingilisdilli mətbuatda Azərbaycan haqqında çap edilmiş materialların sayının kifayət qədər çox olmasını şərtləndirmişdir. Bütün bu materialları bir kitabda əhatə etməyin qeyri-mümkünlüyü şübhə doğurmur. Eyni zamanda, inanırıq ki, ilk təşəbbüs olan bu layihə müəyyən mərhələlərlə bundan sonra da davam etdiriləcək, yeni-yeni materiallar üzə çıxarılacaq və təqdim ediləcəkdir. Oxucu kitabla tanış olaraq, ümummilli lider Heydər Əliyevin prezidentliyi dövründə xarici mətbuatda Azərbaycan haqqında verilən yazıların məzmunun müsbətə doğru necə dəyişdiyinin şahidi olacaq, respublikanın inkişafının həqiqi əks-sədasını duyacaq".

Kitab üzərində iş məqalələrin Azərbaycan dilinə tərcümə edilməsi ilə məhdudlaşmayıb. Eyni zamanda, Azərbaycan reallıqlarını mətbuat səhifələrində işıqlandırmağa çalışan bəzi müəlliflərin yol verdikləri qeyri-dəqiqliklər, təhriflər və ya saxtalaşdırmalar üzə çıxarılmışdır və belə məqamların hər biri barədə, həmçinin kitaba daxil edilən materiallarda öz əksini tapan hadisə və proseslərlə bağlı olan şəxslər, şəhər və kəndlər haqqında da müvafiq şərhlər verilib.

Bütün bunlara əsaslanaraq, siyasətçilər, tarixçilər, regionşünaslar, diplomatlar və digər mütəxəssislər üçün son dərəcə faydalı vəsait olan "Müstəqillik dövründə ingilisdilli mətbuatda Azərbaycan obrazı" kitabını həm də ciddi tədqiqat işi kimi qiymətləndirmək olar.

***R.QURBANLI***
***XQ***

# I Türk Dünyası Mədəniyyət Forumu Bəyannamə qəbul edib

**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşa şəhərində Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçirilən I Türk Dünyası Mədəniyyət Forumu öz işini davam etdirib. Dünən forum iştirakçıları Şuşa Bəyannaməsini qəbul ediblər.**

Bəyannamənin əvvəlində Türk dünyasının ilk mədəniyyət forumuna dəstəyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bütün iştirakçılar adından təşəkkür edilib. İştirakçılar Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə, eləcə də Türk dünyasının 2023-cü il üzrə mədəniyyət paytaxtı Şuşaya Böyük Qayıdışı və bu yolda sürətlə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərini və mədəni mühitin canlandırılmasını alqışlayıblar.

Sənəddə 30 illik işğal dövründə, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrində Türk dünyası mədəni irsinin ayrılmaz tərkib hissəsi tarixi və mədəni abidələrin geniş miqyaslı dağıdılması, həmçinin mədəni mülkiyyətin qaçaqmalçılığı və qanunsuz dövriyyəsi kimi ağır beynəlxalq humanitar hüquq pozuntularını qəti şəkildə pislənib və bütün aidiyyəti beynəlxalq təşkilatlar tərəfindən bu məsələdə sərt mövqe tutulması tələb edilib. Eyni zamanda, Şuşada keçirilən diskussiyalar və geniş fikir mübadilələri çərçivəsində türk mədəniyyətinin dünəni, bu günü və sabahı nəzərə alınaraq mövcud çağırışların birgə əməkdaşlıqda həlli üçün yeni mexanizmlərin yaranması dəstəklənib.

Bəyannamədə Türk dilləri və ədəbiyyatı vasitəsilə ortaq mədəni mövqeyimizin gücləndirilməsi zəruri hesab edilir və bu irsin rəqəmsal mühitə transformasiyasını sürətləndirməyə çağırış ifadə olunub. Forum iştirakçıları müzakirələrdə əldə edilmiş müsbət nəticəni nəzərə alaraq, türk tarixi-mədəni irsinin araşdırılması, bərpası, mühafizəsi və təbliği sahəsində birgə fəaliyyət və ən yaxşı təcrübənin bölüşülməsinə xidmət edəcək Türk dünyasının İrs üzrə rəhbərləri şəbəkəsinin yaradılmasını alqışlayıblar və mütəmadi əsaslı platforma fəaliyyətinə başlamasını tövsiyə ediblər.

Bəyannamədə Türk dünyasında mədəni marşrutlar proqramının təsis edilməsini və ilk mədəni marşrutun yaradılması təşəbbüsünü perspektivli ortaq layihə kimi yüksək qiymətləndirir və bütün maraqlı tərəfləri bu təşəbbüsün irəlilədilməsində fəal iştiraka çağırış da əksini tapıb. Mədəniyyətin rəqəmsallaşması, habelə XXI əsrdə türk mədəniyyəti qarşısında duran çağırışlara cavab verən ortaq həlləri təşviq və mədəniyyət sahəsindəki yaradıcı sənayelərin ortaq bazarların yaradılması üzrə müzakirələrin intensivləşməsi də zəruri bilinib.

Nəhayət, sənəddə Azərbaycan Respublikasının təşəbbüsü ilə yaradılmış Türk Dünyası Mədəniyyət Forumu bütün əsas maraqlı tərəflərin təmsilçilərini bir araya gətirən mühüm universal platforma kimi uğurlu olduğu qeyd edilib və forumun iki ildən bir keçirilməsi təklif edilib.

***XQ***

# Ersin Tatar: Türkiyə, Azərbaycan və Şimali Kipr bir millət, üç dövlətdir



**Can Azərbaycanda səfərdə olmaqdan çox məmnunam. Qardaş ölkəyə 200 nəfərdən ibarət nümayəndə heyəti ilə gəlmişik. Tarixi günlər yaşayırıq. Ölkəmizə dəstəyinə görə Prezident İlham Əliyevə, Azərbaycan xalqına təşəkkür edirik. Türkiyə, Azərbaycan və Şimali Kipr bir millət, üç dövlətdir.**

Bunu Azərbaycanda səfərdə olan Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar oktyabrın 14-də təşkil olunan mətbuat konfransında deyib.

Bu günlərdə Şimali Kiprdə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin yüksək səviyyədə qeyd edildiyini bildirən Prezident Ersin Tatar Ulu öndərin təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının qüruru olduğunu vurğulayıb.

Türkiyənin Şimali Kiprin qarantı olduğunu, qardaş Azərbaycanın da ölkəsinin yanında yer aldığını qeyd edən Ersin Tatar Şimali Kiprin də öz növbəsində, Türkiyənin və Azərbaycanın yanında olduğunu diqqətə çatdırıb. O, Şimali Kipr Türk Respublikasının Mədəniyyət və Təqdimat Günləri çərçivəsində mühüm görüşlər keçirdiklərini, ölkələrimizin turizm, elm, təhsil və tələbə mübadiləsi sahəsində əməkdaşlığı davam etdirəcəklərini qeyd edib.

“Azərbaycanın uzun illərdən sonra ərazi bütövlüyünü tam bərpa etməsi bizi də ürəkdən sevindirdi. Biz bu gün bir-birimizə daha yaxın olmalıyıq. Türkdilli dövlətlər öz güclərini birləşdirməlidir. Azərbaycan dövləti, xalqı, mediası Şimali Kiprin haqq səsinin dünyaya çatdırılmasına böyük dəstək göstərir. Dəstəyə və qonaqpərvərliyə görə sonsuz təşəkkürümüzü bildiririk”, - deyə Ersin Tatar vurğulayıb.

Ersin Tatar ölkəsinin müstəqilliyinin tanınması məsələsinə də toxunub və bu istiqamətdə görülən işlərdən danışıb. Türk Dövlətləri Təşkilatının müşahidəçi üzvü olmağın üstünlüklərini qeyd edən Ersin Tatar Azərbaycanın həmişə Türk dünyasının sıx birləşməsinə töhfə verdiyini vurğulayıb.

# Bakıda qardaş məmləkətin foto və geyim sərgisi

**Həmin gün Bakıda Şimali Kipr Türk Cümhuriyyəti mədəniyyət və təqdimat günləri çərçivəsində “Foto və Kipr türk geyimləri” sərgisi təşkil olunub.**

Sərgidə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, bu ölkənin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Ufuk Arca Turganer, Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı və bir çox rəsmi nümayəndələr, diplomatlar iştirak ediblər.

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar sərginin açılış mərasimində çıxış edərək dost və qardaş Azərbaycanda bu cür tədbirlərin təşkilini yüksək qiymətləndirib, Türk dünyasında birliyin önəmini vurğulayıb.



Prezident Ersin Tatar bildirib ki, sərgidə nümayiş olunan fotolar müxtəlif dövrlərdə Şimali Kiprdəki həyatı əks etdirir.

Sərgidə rəsm əsərləri, Şimali Kiprə məxsus geyimlər nümayiş etdirilib, milli rəqslər ifa olunub.

# Türk qonaq Hərbi Qənimətlər Parkında



**Ölkəmizdə səfərdə olan Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 14-də Hərbi Qənimətlər Parkını ziyarət edib.**

Prezident Ersin Tatara Hərbi Qənimətlər Parkında rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri zamanı düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin nümayiş olunduğu barədə məlumat verilib.

Qeyd olunub ki, parkda Vətən müharibəsində düşməndən qənimət götürülən 300-dən çox eksponat, o cümlədən 150-dək ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar, hərbi nəqliyyat vasitələri sərgilənir. Burada ən yaddaqalan eksponatlardan biri Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanlarından hazırlanan “Qarabağ Azərbaycandır!” lövhəsidir.

Qonağa Azərbaycan Ordusunun sentyabrın 19–20-də Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Şuşa–Xankəndi yolundan götürülən və Bakıya gətirilərək Hərbi Qənimətlər Parkında nümayiş etdirilən tank barədə də ətraflı məlumat verilib.

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Hərbi Qənimətlər Parkındakı videozala da baş çəkib, Vətən müharibəsinə dair videoçarxı izləyib.

Sonda "Qarabağ Azərbaycandır!" lövhəsinin qarşısında xatirə şəkli çəkdirilib.

# TÜRKSOY Daimi Şurasının növbəti iclası Türkmənistanda keçiriləcək



**Mədəniyyət Nazirliyi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə oktyabrın 14-də Şuşada keçirilən TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının 40-cı iclasının yekun tədbiri keçirilib.**

İclasda maliyyə işlərinin tənzimlənməsi, kadr məsələlərin, iş qaydaları və sair məsələlər üzrə vacib qərarlar qəbul edilib.

Qeyd edək ki, TÜRKSOY Daimi Şurasının 41-ci iclası gələn ilin noyabr ayında Türkmənistanda keçiriləcək.

***XQ***

# Füzulidə məskunlaşanların sayı 1000-ə çatır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Dünən 28 ailə olmaqla, 117 nəfər Füzuli sakini doğma yurduna qovuşub.**

Bununla da Füzuli şəhərində 258 ailə olmaqla, 928 nəfərin daimi məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

***XQ***



# XİN AŞPA-nın son qətnamə və tövsiyəsini qətiyyətlə rədd edir

**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 2023-cü il 12 oktyabr tarixli 2517 (2023) saylı qətnaməsini və 2260 (2023) saylı tövsiyəsini qətiyyətlə rədd edir və şiddətlə qınayırıq. Bu barədə Azərbaycan XİN-in şərhində bildirilib.**



Qeyd edilib ki, bu qurum Azərbaycana münasibətdə növbəti dəfə qərəzsiz yanaşma nümayiş etdirmək imkanına malik olmadığını göstərir. AŞPA Ermənistana məxsus separatçı rejim və ərazisindəki qeyri-qanuni erməni silahlı qüvvələri tərəfindən təhlükəsizliyinə və ərazi bütövlüyünə əsas təhdidin aradan qaldırılması istiqamətində Azərbaycanın həyata keçirdiyi tədbirləri alqışlamaq əvəzinə, əsassız şayiələrə və müəyyən dövlətlərin bölgəmizdə Azərbaycanı ləkələyən məkrli siyasətinə əsaslanan yanaşma nümayiş etdirməkdə davam edir.

Bu sənədlər Avropa Şurasının beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə də bütün üzv dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə hörmətlə bağlı öhdəliklərini bir daha təsdiq edən əsas qərar və sənədlərinə açıq şəkildə zidd olmaqla yanaşı, Ermənistanı Azərbaycana qarşı növbəti təcavüzə və revanşizmə təhrik edir.

Terrorçuluğa qarşı 24 saatlıq lokal mübarizə tədbirlərinə aparan hadisələrin təhrif olunmuş şəkildə təqdim edilməsi, habelə BMT-nin regiona həyata keçirilən iki missiyası və Ermənistandakı BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı tərəfindən müsbət qiymətləndirildiyi və Azərbaycanın hər hansı zorakılıq tətbiq etmədiyi təsdiqləndiyi kimi, Azərbaycanın humanitar hüquqa hörmətinə və erməni əsilli yerli mülki sakinlərin insan hüquqlarının pozulmasının qarşısını almaq üçün ölkəmiz tərəfindən həyata keçirilmiş lazımi tədbirlərə məhəl qoyulmaması, AŞPA çərçivəsində Azərbaycana qarşı uzunmüddətli qərəzin göstəricisidir.

Diqqətə çatdırılıb ki, bundan əlavə son on ayda Laçın yolundan hərəkətlə bağlı AŞPA-nın əsassız iddiaları və Ermənistanın Laçın sərhəd-buraxılış məntəqəsi ilə bağlı iddialarını yekdilliklə rədd edən Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 6 iyul tarixli qərarına məhəl qoyulmaması ilə yanaşı, məhkəmənin qərarlarının yanlış şərh edilməsi qəbuledilməzdir.

“AŞPA Azərbaycan və Ermənistan arasında sülh səylərinin perspektivlərinə xələl gətirən Azərbaycana qarşı əsassız və qərəzli addımları dayandırmalıdır. Eyni zamanda, Avropa Şurasının mexanizmlərindən Azərbaycana qarşı istifadəyə yönəlmiş uzaqgörən olmayan cəhdlər tamamilə əks nəticə verir, bu kimi cəhdlər Azərbaycanın regionda davamlı sülhün təmin edilməsi və Azərbaycanın Qarabağ bölgəsində yerli erməni sakinlərlə bağlı reinteqrasiya planları istiqamətində fəaliyyətini davam etdirmək əzmini sarsıda bilməz”, – deyə açıqlamada vurğulanıb.

# YAP Sədrinin müavini Nepalda



**Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Nepalın paytaxtı Katmanduda keçirilən Asiya-Avropa Siyasi Forumunun 5-ci iclası çərçivəsində Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı Daimi Komitəsinin 40-cı iclasında iştirak edib.**

Daimi Komitənin sədri, Koreya Respublikasının keçmiş xarici işlər naziri Çunq Eu-yonq qurumun yeni üzvlərini təqdim edib. O, Tahir Budaqovun YAP-ın Daimi Komitədəki yeni təmsilçisi qismində fəaliyyətinin ICAPP-ın qarşıya qoyduğu hədəflərə çatmasına və ICAPP-YAP əlaqələrinin inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

YAP Sədrinin müavini YAP ilə ICAPP arasında səmərəli əməkdaşlığın bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə əminliyini ifadə edib. Tahir Budaqov bu məqsədlə yaxın gələcəkdə qurumun növbəti tədbirlərindən birinin Bakıda keçiriləcəyinə ümidvar olduğunu bildirib.

* * *

**Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov oktyabrın 14-də Nepalın paytaxtı Katmanduda keçirilən və 16 ölkədən 26 siyasi partiya nümayəndəsinin qatıldığı Asiya-Avropa Siyasi Forumunun 5-ci iclasında iştirak edib.**

ICAPP Daimi Komitəsinin üzvü, AEPF-nin həmsədri Racan Bhattarayın moderatorluğu ilə “Pandemiyadan sonrakı dövrdə maliyyə sabitliyinin qorunması” mövzusunda keçirilən sessiyada YAP Sədrinin müavini Tahir Budaqov çıxış edib.

YAP Sədrinin müavini çıxışında Azərbaycanın pandemiya dönəmində dövlət siyasətinin təkcə milli məzmun kəsb etmədiyini, eyni zamanda, beynəlxalq əhəmiyyət daşıdığını söyləyərək bu kontekstdə Prezident İlham Əliyevin qlobal səviyyədə göstərdiyi təşəbbüsləri - Azərbaycanın uğurla sədrlik etdiyi Türk Şurasının və Qoşulmama Hərəkatının pandemiyaya qarşı mübarizəyə həsr olunmuş Zirvə görüşlərinin keçirilməsini, 2020-ci ilin dekabr ayında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi sessiyasının baş tutmasını diqqətə çatdırıb.

***XQ***

# Milli dəyərlərimiz Uzaq Şərqdə




**“Azərbaycanlılar Birliyi” Xabarovsk vilayətinin ictimai təşkilatı “Rusiya: etnik komfort. Uzaq Şərq xalqlarının tarixi, mədəniyyəti, ənənələri” II Regionlararası gənclər forumunda iştirak edib.**

Forumda “Azərbaycanlılar Birliyi”ni Səbinə İsgəndərovanın rəhbərliyi ilə gənclər təmsil edib. Gənclər komandası Uzaq Şərqdə yaşayan xalqların birləşməsinə və mədəniyyətlərinin müxtəlifliyi ilə tanışlığına yönəlmiş “Mədəniyyətlərin kaleydoskopu” Beynəlxalq festival layihəsini təqdim edib. Komandaya II dərəcəli diplom və müsabiqənin tərəfdaşlarından xatirə mükafatları təqdim edilib.

***XQ***

# Blinkenin “müharibə ssenarisi”ndə erməni izi

## Xarici media ABŞ Dövlət katibinin adından “Azərbaycanın Ermənistana hərbi təcavüzü” versiyasını üfürür

**“Azərbaycan yaxın həftələrdə Ermənistana hərbi müdaxilə edə bilər”. “Politiko”nun bu başlıqla dərc elədiyi informasiya ətrafında Qərbin, Rusiyanın, eləcə də Ermənistanın çap və elekron mediasında əməlli-başlı diskussiya aparılır. Haylara yaxınlığı ilə tanınan siyasi analitiklər, beynəlxalq ekspertlər, az qala, Azərbaycanın Ermənistana gözlənilən təcavüzünün qarşısının alınması variantları üzərində baş sındırır, çeşidli mülahizələr irəli sürürlər.**



Məlum informasiyanın mənbəyi kimi, ABŞ Dövlət katibi Antoni Blinkenin konqresmenlərlə söhbətində, guya, irəli sürdüyü hipotezinə və xəbərdarlığına istinadlar edilir. Dünyanın supergücünün baş diplomatı, doğrudanmı, belə bir fərziyəni dilinə gətirib? @bagramyan26-nın Birləşmiş Ştatların Ağ evə yaxın dairələrindən öyrəndiyi səhih məlumata görə, belə bir diskussiya, həqiqətən də, olub, amma Blinken Bakının müharibəyə hazırlaşması “ssenarisi” ilə bağlı proqnoz–xəbərdarlıq etməyib. “Politiko” mötəbərliyi şübhə doğuran xəbərinə bunları da əlavə etməyi “unutmayıb”: “Xüsusilə Ermənistanın Sünik cənub bölgəsi ilə bağlı narahatlıq yaşanır. Bu bölgəni Azərbaycan Zəngəzur dəhlizi, Prezident İlham Əliyev isə “Qərbi Azərbaycan” adlandırır”.

***

Konqresmenlərlə telefon söhbətinin gedişində Antoni Blinken, sadəcə, Qarabağdakı mövcud vəziyyət, erməni sakinlərin bölgədən köçməsi, eləcə də hadisələrin bundan sonrakı inkişafının bir neçə mümkün variantı ətrafında fikirlərini konqresmenlərlə bölüşüb. “Politiko” isə guya, baxılan həmin variantlardan biri kimi, Azərbaycanın Qarabağ problemini həll etdikdən sonra yenidən gərginlik yaradacağı və Ermənistanın cənub bölgəsinə hərbi təcavüz edəcəyi barədə xəbər yayıb. Amma nəşr bir qədər də irəli gedərək, diskussiya iştirakçılarının bu ssenarinin ABŞ üçün məqsədlərindən biri də ABŞ Dövlət Departamenti tərəfindən hər il Azərbaycana hərbi yardımın ayrılmasını nəzərdə tutan razılaşmanın müddətinin uzadılmasına maneçilk törətmək ola bilər. 2002-ci ildən etibarən həmin müqavilə qüvvədə saxlanılır, amma onun müddəti bu ilin iyun ayında başa çatıb.

***Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri, politoloq Fərid Şəfiyev bu olayın ermənilərin növbəti təxribatı olduğunu istisna etmədi:***



“Bu, ermənilərin Azərbaycana qarşı apardıqları kampaniyanın tərkib hissəsidir. Onlar Qərbə sübut etməyə çalışırlar ki, Azərbaycan Ermənistana hücum barədə düşünür. Bu səbəbdən, guya, dünya onları dəstəkləməlidir, yardım göstərməlidir və sairə. O ki qaldı, 907-ci düzəlişin qüvvədə saxlanılması ilə bağlı məsələyə, artıq iyirmi ildən çoxdur öz qüvvəsində qalırdı. Düzdür, 1992-ci ildə Senatın qəbul etdiyi “Azadlığa dəstək Aktı”na həmin düzəliş hələ də ləğv edilməyib. Bəzi məlumatlara görə, ABŞ Dövlət Departamenti bu il bunu etməyəcək. Buna səbəb kimi də Azərbaycanın, guya, “Dağlıq Qarabağ”a qarşı həyata keçirdiyi hərbi əməliyyatı” göstərirlər”.




qəbuledilməz olduğunu və hadisələrin məhz bu məcrada inkişafının qarşısını almaq üçün konkret addımların atılacağını, hətta bu halda Vaşinqtonun Azərbaycan tərəfini məsuliyyətə cəlb etmək barədə düşünəcəyini söylədiklərini qeyd edib. Dövlət katibi ilə telefon “sual-cavabı”nda kimlərin iştirak etdiyini nəzərdən keçirsək, “Politiko”nun bu dezinformasiyanı yaymaqda hansı dairələrə və məqsədlərə xidmət göstərdiyi aydın olar. Deməli, telefon debatında iştirak edən “demokrat” konqresmenlər Nensi Pelosi, Anna Eşu və Frenk Pallonedir. Onların hər üçü qatı ermənipərəst mövqeləri ilə tanınırlar. Son illər Ermənistana çoxsaylı səfərlər edən və daşnak–revanşistlərin işğalçılıq siyasətinə açıq dəstək verən bu konqresmenlərin “Azərbaycanın Zəngəzura hərbi müdaxilə edəcəyi barədə” Antoni Blinkenə sual ünvanlaması və bununla əlaqədar onu Bakıya təzyiq göstərməyə çağırmaları qətiyyən təəccüblü deyil.

Beləliklə, qısa araşdırmadan sonra məlum olub ki, ABŞ Dövlət Departamentinin rəhbəri A.Blinken Azərbaycanın yaxın həftələrdə Ermənistana hərbi müdaxiləsi barədə heç bir xəbərdarlıq–filan etməyib, nəzərdən keçirilən humanitar xarakterli ssenarilərdən danışıb.

***

Əlbəttə, “Politiko” nəşrinin bilərəkdən və ya təsadüfən yaydığı yanlış informasiya ətrafında qurulan “qızğın siyasi diskussiyalar, müzakirələr” heç də təsadüfi deyildir. Burada söhbət Azərbaycana qarşı media məkanında təşkil edilmiş qara piar kampaniyasının getdiyi şübhəsizdir. Təşkilatçıların

Baş verən olayların fonunda ABŞ-dakı erməni lobbiçilərin həm də özlərinin mövcudluğunu göstərməyə çalışdıqlarını bildirən F.Şəfiyev onların Qarabağ məsələsi bitəndən sonra özlərinə məşğuliyyət axtardıqlarını dilə gətirir: “Ermənipərəst bir konqresmeni tutublar, ardınca Frenk Pallone gəlir. Həmin məqalədə onun da adı çəkilir. Əgər nəticə etibarı ilə Vaşinqton göstərilən yolu seçərsə, bu, o deməkdir ki, Cənubi Qafqazda Birləşmiş Ştatların rolu daha da zəifləyəcək. Çünki Azərbaycan nə sülh danışıqları platformasında, nə də, ümumiyyətlə, ABŞ-la hər hansı əməkdaşlığa meyil göstərməyəcək. Hərbi əməkdaşlığa gəldikdə isə, əslində, bu müstəvidə tərəfdaşlığa Vaşinqton Bakıdan daha çox maraq göstərməlidir. Azərbaycan özünün hərbi-sənaye potensialını hansı yolla gücləndirməyi bilir. Silah-sursat da, texnika da alırıq, hərbi qüdrətimizi də artırırıq. İndiki şəraitdə Ağ ev bu məsələdə kimin udacağı, kimin isə uduzacağı sualını özünə ünvanlasın. “Politiko”nun məqaləsi birbaşa təxribat xarakteri daşıyır. Orada dezinformasiyanın olması şübhə doğurmur”.

***

Verilən son məlumata əsasən, ABŞ Dövlət Departamenti “Politiko”nun A.Blinkenin çıxışına istinadla Azərbaycanın yaxın vaxtlarda Ermənistana hücum etmək ehtimalı barədə yaydığı informasiyanı şərh edib. Departamentin şərhində deyilir: “Birləşmiş Ştatlar bölgədə dayanıqlı və sabit, hamının hüquqlarına hörmət edildiyi sülhün əldə olunması üçün Azərbaycan və Ermənistan liderləri ilə ən yüksək səviyyədə işləməkdə davam edir. Güc tətbiqi yolverilməzdir və uzun sürən münaqişənin nizamlanması üçün birbaşa dialoq zəruridir”. Departament Ermənistanın müstəqilliyi və suverenliyinə dəstəyini ifadə etməklə yanaşı, bu yöndə verilən sualı cavablandırıb, amma hər hansı açıqlamadan imtina edib. Sadəcə, onu bildirib ki, Ermənistan və Azərbaycan arasında sülh danışıqlar gedir və proses ümidvericidir.

“Politiko” isə Dövlət Departamentindəki “anonim” mənbəyə istinadla verdiyi məlumatında “Azərbaycanın özünün silahlı qüvvələri tərəfindən beynəlxalq hüquqa riayət edilməsinə, hərbi əməliyyatların aparılmasını, mülki əhalinin müdafiəsini tənzimləyən humanitar hüquqa təminat verməsi, əks–təqdirdə buna görə də məsuliyyət daşıdığını” qeyd edir. Əgər dövriyyəyə buraxılan məlumatın hətta bir qismi özünün rəsmi təsdiqini taparsa, bu, Vaşinqtonun İrəvan və Bakı arasında sülh danışıqlarında vasitəçilik missiyasına kölgə salması anlamına gələ bilər. Məhz ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin moderatorluğu ilə bu il Virciniyada baş tutan iki görüş sülh sazişinə aparan yolda Vaşinqtonun xoşməramlı jesti kimi qəbul olunur. İndiki mərhələdə Vaşinqtonun erməni lobbiçilərinin, diasporun təzyiqi ilə özünün bu missiyasından vaz keçməsi inandırıcı görünmür.

***

Yeri gəlmişkən, həmin Frenk Pallone oktyabrın 11-də özünün “X” sosial səhifə hesabında “İlham Əliyev Cənubi Ermənistanı ələ keçirmək məqsədi ilə irəliləyir” iddiasını paylaşmışdı. Onun bu açıqlaması feyk-müzakirənin təşəbbüskarının kimliyini ortaya qoyur. Bu faktın özü “hərbi təcavüz” versiyasının kimin ortaya atdığı və onu mediaya kimlərin “sızdırdığı” barədə aydın təsəvvürün yaranmasına kömək edir. Bu qarayaxma kampaniyasına görə adlarını çəkdiyimiz konqresmenlərin erməni lobbisindən hansı miqdarda rüşvət alındığını isə yalnız ehtimal edə bilərik.

Bu məqamda onu da qeyd etməyi zəruri sayırıq ki, “telefon müzakirəsinin” mediaya “sızması” (sızdırılması) da çox maraqlıdır. Çox güman ki, “anonim mənbə” erməni lobbisinin sifarişinə uyğun olaraq, bu müzakirəni Dövlət Departamenti ilə aparan həmin ermənipərəst konqresmenlərdir. ABŞ Prezidentinə Azərbaycana hərbi yardımın dayandırılması barədə məktub ünvanlayan haypərəst konqresmenlər fəaliyyətlərini bir az da genişləndirərək, indi dünya ictimaiyyətində ölkəmiz barədə “işğalçı dövlət” təəssüratını formalaşdırmağa cəhdlər edirlər.

Azərbaycanın okeanın o tayındakı bədxahlarının niyyət və məramları bizə çoxdan bəllidir. Onlar bütün “qüvvələri” səfərbər edib, ölkəmizə qarşı total dezinformasiya, qarayaxma ilə müşayiət olunan siyasi şantaj yolunu seçiblər. Bəli, hər şeydən göründüyü kimi, Qərbdə Azərbaycana qarşı genişmiqyaslı və təhlükəli kampaniyaya start verilib və buraya korrupsiyaya uğramış qaragüruh media da cəlb olunub.

Son vaxtlar BMT, Aİ, BƏM, AŞPA-da Azərbaycan əleyhinə qəbul edilən qətnamə, qərar və bəyanatları da nəzərə alsaq, “hücumun” hərəkətverici qüvvələrinin xarakteri və mənzərəsi tam aydın olar.

***İ.HƏSƏNQALA***
***XQ***

# Roma statutu və Ermənistan

## Yaxud “Rusiyanın 200 illik haqqı”na dirsək

**Rusiya Prezidenti Vladimir Putin bir neçə gün əvvəl Bişkekdə MDB Dövlət Başçıları Şurasının iclasının yekunlarına dair mətbuat konfransında ölkəsinin Ermənistanla münasibətlərinə toxunarkən bildirmişdi ki, Moskva-İrəvan narazılıqlarının müzakirəsi üçün baş nazir Nikol Paşinyan Rusiyaya, özü isə İrəvana gedə bilər. Putin bu fikri bildirəndə Ermənistan Prezidenti Vaahn Xaçaturyan Roma statutunun ratifikasiyası ilə bağlı qanuna imza atmamışdı. Yəni, ölkə parlamenti sözügedən sənədi qəbul etmiş, ancaq onun hüquqi qüvvəyə minməsi qalmışdı. Başqa sözlə desək, V.Xaçaturyan imza atmayanadək, Putin İrəvana gedə bilərdi. Ancaq indi mümkün deyil. Çünki dünən Ermənistan prezidenti ondan gözləniləni etdi. Artıq Roma statutu Ermənistan qanunvericiliyinin tərkib hissəsidir.**

Qeyd edək ki, Beynəlxalq Cinayət Məhkəməsinin Roma əsasnaməsi (Rome Statute of the International Criminal Court) 15 iyun–17 iyul 1998-ci il tarixləri arasında İtaliyanın paytaxtında keçirilmiş BMT Konfransının qəbul etdiyi Beynəlxalq Cinayət Məhkəməsinin qurulması haqqında statutdur. O da danışıqlar aparmaq üçün onun evinə getməsi. Onların əsasən Qarabağdan köç səbəbilə yaranmış durumu müzakirə etdikləri bildirilsə də, bir sıra siyasi müşahidəçilərin qənaəti budur ki, Moskva Paşinyana qarşı Ter-Petrosyan variantı üzərində dayanmaq fikrindədir. Əlbəttə, söylənilənlər ehtimaldır, onla-



məlumdur ki, BCM Rusiya Prezidenti V.Putinin həbsinə order verib. Qərar Ukraynadakı müharibə kontekstində çıxarılıb və Kreml lideri, faktiki surətdə müharibə cinayəti törətməkdə ittiham olunub. Konkret desək, V.Putinin 2022-ci il fevralın 24-dən etibarən Ukraynanın ərazilərindən əhalinin (uşaqların) qanunsuz deportasiyasına və Rusiyaya köçürülməsi kimi hərbi cinayətə görə məsuliyyət daşıdığı bildirilir. İndi Ermənistan BCM-nin Roma statutu üzrə bütün öhdəliklərini tanıdısa, yəni ölkə parlamenti onu ratifikasiya etdisə, üstəlik, Prezident Xaçaturyan ayrıca qanun imzalayaraq, məsələni təsdiqlədisə, deməli, Putin ölkəyə ayaq basdığı anda həbs edilməlidir. Deməli, artıq Rusiya liderinin Ermənistana ayaq basması mümkünsüzdür. Hər halda, hesab etmirik ki, o, İrəvana gələcəyi təqdirdə, həbs olunmayacağına inanacaq qədər sadəlövhdür.

Paşinyanı və erməni iqtidarını bir kənara qoyaq, Putin yaxşı anlayır ki, İrəvana ayaq bassa, onu həbs edən Nikolun hakimiyyəti olmayacaq. Yerli hakimiyyət, uzaq başı, həbslə bağlı mətbuat konfransı keçirib dünyanın gündəminə gəlməklə öyünəcək. Çünki Qərbin baxışlarında Kremlin rəhbəri cinayətkardır. Ermənistan hakimiyyəti isə Putin kimi “çox böyük cinayətkarın” ələ keçirilməsi dividendindən imtinası mümkünsüzdür. Cinayətdən söz düşmüşkən, Roma statutunun təsir dairəsi dörd əsas beynəlxalq cinayətlə formalaşır. Bunlar soyqırımı, insanlığa qarşı cinayətlər, müharibə və təcavüz cinayətləridir. Bunlara heç bir məhdudiyyət tətbiq olunmur. Roma statutuna əsasən, BCM, dövlətlərin özlərinin həll etməkdə çətinlik çəkdikləri və müdaxilə etmək istəmədikləri vəziyyətlərdə, belə demək mümkünsə, dövriyyəyə girir.

***

Əlqərəz, V.Xaçaturyan Rusiyanın Roma statutunun qəbul olunmayacağına dair son ümidinin də üzərindən xətt çəkdi. Şübhəsiz, bu, eyni zamanda, İrəvan-Moskva münasibətlərinin üzərindən çəkilmiş bir xətdir. Özü də kifayət qədər qalın xətt. Hər halda, ötən iki yüz ildə Cənubi Qafqazda elə bir hal yaşanmamışdı ki, Rusiyanın dövlət başçılarından hansınınsa bölgəyə gəlməsi şübhələndirilsin. Əlbəttə, bu “ilk”in hansı nəticələr doğuracağını söyləmək çətindir. Yəni Rusiyanın adekvat addımlarını proqnozlaşdırmaq müşküldür. Hələlik, yalnız bir xırda işarə var. O da Rusiyanın Ermənistandakı səfiri Sergey Kopirkinin Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanla rın həqiqətlə nə dərəcədə uzlaşdığını görmək üçün zamana ehtiyac var. İndilik Ermənistan Rusiyaya qarşı geri dönüşü olmayan yoldadır.

***

Qeyd edək ki, N.Paşinyanın Bişkekə getməkdən imtinasının səbəblərindən biri kimi Roma statutu da göstərilirdi. Erməni müxalifəti bu barədə söz açarkən, Nikolun Moskva ilə mövcud istiqamətdə müvafiq izahat işlərinin aparılmasına ehtiyacın duyulduğu fikrinə əsaslanır. Bu cinahın təmsilçiləri sual ünvanlayırlar: Əgər həqiqətən izahat aparılmalı nə isə var idisə, Paşinyan nə üçün Bişkekə getmədi? Axı, gedib İrəvanın qərarına aydınlıq gətirə bilərdi. Görünür, mövzu haqqında danışılacaq heç nə yoxdur. Həm də ona görə yoxdur ki, erməni baş nazir dediklərini deyib.

Məsələn, Paşinyan bir müddət əvvəl “Politico Europe” nəşrinə müsahibəsində Roma əsasnaməsinin ölkəsinin təhlükəsizlik maraqları baxımından uyğunluğunu vurğulamışdı. O, fikrini belə əsaslandırmışdı ki, Ermənistanın hazırkı təhlükəsizlik alətləri tələbatlara cavab vermir və onların yeniləri ilə əvəzlənməsi şərtdir. Əlbəttə, onun Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlüyün Ermənistana heç bir fayda gətirmədiyini söyləməsi diqqət çəkmişdi. Əslində, məntiq anlaşılmır. KTMT hara, Roma statutu hara?

Digər tərəfdən, Paşinyan Roma əsasnaməsinin vacibliyinə dair izahına Qarabağ məsələsini də əlavə etməyi yaddan çıxarmamışdı. Bildirmişdi ki, bölgədəki Rusiya sülhməramlıları üzərlərinə düşən öhdəlikləri yerinə yetirməyi bacarmırlar. Əlbəttə, Nikol Qarabağdan söz açarkən, Roma əsasnaməsinin öz aləmindəki ən böyük hədəfini də açıqlamışdı. Paşinyan demişdi ki, sənədin köməyi ilə Azərbaycanı məsuliyyətə cəlb edəcək.

Əlbəttə, bu əsaslandırmaların heç biri diqqəti əsas məsələdən yayındıra bilməz. Əsas məsələ isə anti-Rusiya köklənişidir. Paşinyan iqtidarı Roma statutunu Ermənistan qanunvericiliyinin tərkib hissəsi kimi tam şəkildə rəsmiləşdirməklə 2018-ci ildən bəri ən böyük tədbirini reallaşdırmış oldu. Son dərəcə müəmmalı olan bu tədbir nəinki Rusiya–Ermənistan münasibətlərinə zərbədir, ümumən Cənubi Qafqazda iki yüz illik rus-erməni haqqına tüpürməkdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# QAİ AŞPA-nın qərəzini pisləyib

**Qərbi Azərbaycan İcması Avropa Şurası Parlament Assambleyasının oktyabrın 12-də Azərbaycana qarşı qəbul etdiyi cızmaqaraları rədd edir.**

Bu barədə İcmanın yaydığı bəyanatda deyilir.

“Ölkələrə və məsələlərə dini və etnik simpatiya əsasında yanaşan irqçi, islamofob, azərbaycanofob ünsürlərin toplaşdığı AŞPA bu mənada, Avropa Parlamenti kimi qitənin üz qarasıdır. AŞPA qoy gedib Avropada tüğyan edən islamofobiyaya, söz azadlığı adı altında müqəddəs Quranın yandırılmasına bəraət qazandırılmasına, dinc nümayişçilərin atların ayağı altına salınmasına, üzərinə itlərin buraxılmasına, Korsika dilinin qadağan edilməsinə münasibət bildirsin. Riyakarların, siyasi buqələmunların Azərbaycana “öyüd-nəsihət” verməsi üçün heç bir mənəvi hüququ yoxdur”- deyə bəyanatda vurğulanır.

# Ermənistan Azərbaycanın daxili işlərinə qarışır

## İrəvanın Beynəlxalq Ədalət Məhkəməsində qaldırdığı iddialar bundan xəbər verir

**Dövlət müstəqilliyini bərpa etdikdən sonra yürütdüyü siyasət üzündən Cənubi Qafqazda dalan vəziyyətinə düşən, iki qonşusu (Azərbaycan və Türkiyə) ilə sərhədləri 30 ildən çoxdur bağlı olan, iqtisadi inkişafdan, regional təşəbbüslərdən geri qalan Ermənistan bu durumdan çıxmağa çalışmaq əvəzinə, ənənəvi siyasətini davam etdirməyə üstünlük verir. Rəsmi İrəvanın sentyabrın 29-da Azərbaycana qarşı BMT-nin Beynəlxalq Ədalət Məhkəməsində (BƏM) növbəti iddialar qaldırması bunun bariz nümunəsidir.**




Qeyd edək ki, Ermənistan BƏM-ə İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı məhkəmə işi üzrə (Ermənistan Azərbaycana qarşı) müvəqqəti tədbirlərin müəyyən edilməsi məqsədilə iddialar irəli sürüb. Birmənalı şəkildə demək olar ki, 10 bənddən ibarət olan bu iddialar tamamilə əsassız və absurddur. Belə ki, iddialarda “Azərbaycan İrqi ayrı-seçkiliyin aradan qaldırılması üzrə komitə qarşısında öhdəliklərinin pozulmasına gətirib çıxara biləcək hər hansı tədbir görməkdən çəkinməlidir” kimi cümlə yer alıb. Eyni zamanda, Azərbaycan ənənəvi olaraq, “etnik təmizləmə”də, Qarabağdan erməni əhalinin “zorla çıxarılmasında” ittiham olunur. Bu böhtanlar az imiş kimi, ölkəmizdən Qarabağ iqtisadi rayonunun erməni azlığın yaşadığı hissəsindən, yəni özünün suveren ərazisindən dövlət qurumlarını, hərbçiləri, polis əməkdaşlarını çıxarması tələb edilir. Bölgədə Beynəlxalq Qırmızı Xaç Komitəsinin fəaliyyət göstərməsi, BMT və digər beynəlxalq qurumların missiyasının səfərinə şərait yaradılması, Qarabağda yaşayan ermənilərin qaz və elektrik enerjisinin tam bərpası kimi məsələlər də iddialarda öz əksini tapıb.

Sözsüz ki, irəli sürülən ən əsassız və absurd tələblərdən biri barələrində illər öncə prokurorluq orqanları tərəfindən cinayət işi açılmış, bunun əsasında Azərbaycan məhkəmələri tərəfindən qiyabi həbs cəzası çıxarılmış, bu yaxınlarda isə həbs-qətimkan tədbiri seçilmiş separatçı “qlavarlar”la bağlıdır. Ermənistanın iddialarında həmin “qlavarlar” Qarabağın “keçmiş siyasi nümayəndələri” adlandırılır. Qeyd olunur ki, Azərbaycan Qarabağın “keçmiş siyasi nümayəndələri”nə və ya “hərbi qulluqçuları”na qarşı cəza tədbirləri görməkdən çəkinməli, eləcə də “erməni soyqırımı” ilə bağlı “abidələr”i qoruyub saxlamalıdır. Göründüyü kimi, İrəvanın iddiaları əsassız və icrası mümkünsüzdür. Bu tələblər beynəlxalq hüquq normalarına uyğun deyil və suveren dövlətin daxili işlərinə qarışmaqdır.

***

Xarici İşlər Nazirliyinin bununla bağlı yaydığı məlumatda da Ermənistanın növbəti iddialarının tamamilə əsassız olduğu bildirilib. Qeyd olunub ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı Ermənistanın iddialardan əl çəkmədiyini göstərən, Beynəlxalq Ədalət Məhkəməsinin qeyd edilən iş üzrə əvvəlki qərarını heçə sayaraq, azərbaycanlılara qarşı irqi nifrətin qızışdırılması və təşviqinə yönələn bu yeni iddialar tamamilə qəbuledilməzdir.

O da bildirilib ki, Ermənistan BMT Təhlükəsizlik Şurasında olduğu kimi, Beynəlxalq Ədalət Məhkəməsindən də öz məkrli siyasi gündəliyi üçün sui-istifadə edir. Təkcə bu il ərzində Ermənistan bu məhkəməyə artıq üçüncü dəfədir müraciət edir. Qeyd olunub ki, Ermənistanın yanvar ayında verdiyi üç vəsatətdən ikisi rədd edilib, biri məhdud formada təmin edilib, may ayında verdiyi vəsatətlər isə hakimlər tərəfindən iyul ayında yekdilliklə rədd edilib. “Azərbaycan tərəfi Ermənistanın bu yeni əsassız iddialarına tutarlı cavablarının əks olunduğu mövqeyini aidiyyəti üzrə məhkəməyə təqdim edəcək”, – deyə XİN-in yaydığı açıqlamada qeyd olunub.

Oktyabrın 12-də məhkəmənin yerləşdiyi Niderlandın Haaqa şəhərindəki Sülh Sarayında Ermənistanın növbəti iddiaları üzrə dinləmələr keçirilib. İlk olaraq Ermənistan nümayəndəsi Yegişe Kirakosyan çıxış edib. Qarabağda erməni sakinlərdən qalanların olmasına baxmayaraq, Kirakosyan bütün ermənilərin bölgəni tərk etdiklərini deyib. “Qarabağda, praktiki olaraq, heç bir etnik erməni qalmayıb. Əgər bu, etnik təmizləmə deyilsə, mən bilmirəm, nəyi etnik təmizləmə adlandırmaq olar?”, – deyən Ermənistan nümayəndəsi hakimlər qarşısında etnik təmizləmə anlayışını təhrif etməyə uğursuz cəhd göstərib.

Y.Kirakosyanın sözlərinə görə, Azərbaycanın həmin hərəkətlərə görə məsuliyyəti (?) işə mahiyyəti üzrə baxılarkən müəyyən edilməlidir: “Lakin siz hələ də mövcud vəziyyətə əhəmiyyətli təsir göstərə bilərsiniz. Etnik ermənilərin məcburi köçürülməsinin (?) dönməz hala çevrilməsinin qarşısını almaq, Qarabağdakı azsaylı etnik erməniləri, eləcə də oğurlanmış və Azərbaycan həbsxanalarında qanunsuz saxlanılanları (?) qorumaq üçün hələ vaxt var”. Kirakosyan cəfəng iddialarına davam edərək deyib: “Bu şəraitdə yalnız Qarabağdakı etnik ermənilərin hüquqlarını qoruyan məqsədyönlü və aydın tədbirlər Azərbaycan tərəfindən həyata keçirilən “etnik təmizləmə”nin davam etməsinin qarşısını ala biləcək”.

Dinləmələrdə Ermənistanı müdafiə edən vəkil Lourens Martinin iddiası isə istehza doğrur. O, Azərbaycanda ermənifobiyanın güclənməsinə dair fakt tapmayaraq az qala 20 il əvvəl – 2004-cü ilin fevralında Macarıstanda NATO təlimində baş vermiş hadisəyə (Azərbaycan Ordusunun hərbi qulluqçusu Ramil Səfərovla erməni leytenant Qurgen Markaryan arasında baş vermiş insident nəticəsində sonuncunun ölümü hadisəsi nəzərdə tutulur-S.H.) müraciət edib.

Vəkil hadisənin mahiyyətini kontekstdən çıxarıb, əsas səbəbi açıqlamayıb. Eyni zamanda, ermənilərin azərbaycanlılara qarşı törətdikləri gerçək soyqırımı və etnik təmizləmə də nədənsə, yada düşməyib. Şon Merfi adlı vəkil isə Qarabağda vandalizm aktlarının törədildiyini desə də, ortaya bircə fakt qoya bilməyib. Digər vəkillər – Alisa Makdonald, Linos-Aleksandr Siçilianos də onlardan geri qalmayıblar. Onlar bir ağızdan Qarabağdan erməni sakinlərin zorla köçürüldüklərini iddia ediblər. Halbuki, könüllü köç edən sakinlər media subyektlərinə müsahibələrində bu iddiaları təsdiq etməyib, əksinə, öz xoşları ilə getdiklərini bildiriblər.

Dinləmələrdə çıxış edən Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov Qarabağın erməni əhalisinə qarşı etnik təmizləmə aparılması və sentyabrın 19-20-də baş tutan antiterror tədbirlərindən sonra erməni azlığın zorla köçürülməsinə dair bütün ittihamları qəti şəkildə rədd edib. O bildirib ki, 2023-cü il sentyabrın 20-də Ermənistanın 30 illik qanunsuz hərbi işğalından sonra Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində tam suverenliyini təmin olunub.

Nazir müavini qeyd edib ki, sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri Qarabağda qanunsuz fəaliyyət göstərən erməni hərbi birləşmələrinin ciddi təhlükəsizlik təhdidlər törətmələri səbəbindən baş verib: “Üçtərəfli Bəyanatda Rusiya sülhməramlılarının yerləşməsinə paralel olaraq Ermənistanın Qarabağdan öz qüvvələrini çıxarması tələbi açıq şəkildə göstərilib. Lakin Ermənistan təxminən üç il Azərbaycanın suveren ərazisindəki qanunsuz hərbi birləşmələrə dəstəyini davam etdirib. Bu ilin iyulunda Ermənistanın Təhlükəsizlik Şurasının katibi Ermənistan qoşunlarının hələ də Qarabağda fəaliyyət göstərdiyini etiraf edib və onların bir neçə ay sonra geri çəkiləcəyini bildirib. Bu, faktiki olaraq heç vaxt baş verməyib”.

E.Məmmədov antiterror tədbirlərinə qədərki son həftələr ərzində Ermənistan ordusunun Qarabağdakı fəaliyyətinin xeyli intensivləşdiyini, bu qüvvələrin döyüş hazırlığı vəziyyətinə gətirildiyini, yeni döyüş istehkamları, səngərlər hazırladığını və Azərbaycanın hərbi mövqelərinə yaxın minalar yerləşdirdiyini qeyd edib.

Deyib ki, Ermənistanın sentyabrın 19-dan bəri Azərbaycana qarşı əsassız ittihamları Qarabağda baş verənləri əks etdirmir: “Daha da vacibi onlar Azərbaycanın Qarabağa girişinə icazə verdiyi iki BMT missiyasının müşahidələrini və rəyini əks etdirmir. Otuz ildən çox müddətdə regionda ilk dəfə beynəlxalq missiya olub. Onlar müstəqil beynəlxalq medianın orada olan və oranı görən üzvlərinin xəbərlərini əks etdirmir. Azərbaycan Qarabağın mülki əhalisinə qarşı heç vaxt etnik təmizləmə və ya hər hansı hücum həyata keçirməyib və keçirməyəcək. Azərbaycan sentyabrın 19-dan sonra buna ciddi təminatlar verib”.

XİN-in müavini onu da bildirib ki, Qarabağın erməni sakinləri Azərbaycan vətəndaşlarıdır: “Azərbaycan onları Qarabağdakı evlərinə qayıtmağa cəsarətləndirir, etnik ermənilərin və azərbaycanlıların dinc şəkildə yanaşı yaşadığı öz çoxmillətli icmasını qorumaq istəyir.

Qeyd edək ki, Beynəlxalq Ədalət Məhkəməsi BMT-nin altı əsas orqanından biridir. BMT Nizamnaməsi əsasında təsis olunan BƏM-in əsas məqsədi ədalət və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq, sülh yolu ilə beynəlxalq mübahisələrin və ya sülhün pozulmasına səbəb ola biləcək vəziyyətlərin həllini həyata keçirməkdir. Ancaq qanunsuz silahlı birləşmələrdən təmizlənən Qarabağa iki dəfə missiya göndərən və hər hansı etnik təmizləmə və infrastruktur dağıntısı qeydə almayan BMT Katibliyi dinləmələrə heç bir reaksiya verməyib. Bu faktın özü BMT-nin əsas orqanlarından birinin ermənipərəst Qərb strukturları və təşkilatlarının təsiri altına düşməsinin göstəricisi hesab oluna bilər.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Əliməmməd NURİYEV,**
**“Konstitusiya” Araşdırmalar Fondunun prezidenti**

**– Ermənistanın BƏM-ə müraciət etməsi Azərbaycanın daxili işlərinə qarışmaqdır. Məhkəmə bu müraciətin qəbuledilməz olduğu ilə bağlı qətnamə qəbul etməli idi. Çünki Qarabağla bağlı bütün məsələlər Azərbaycanın daxili işidir. İkincisi, Azərbaycan irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyaya qoşulub və həmin konvensiya ilə bağlı mütəmadi olaraq hesabatlar təqdim edir. İndiyədək hər hansı normanın pozulması halı baş verməyib.**

**Ermənistan isə konvensiyanın əksər normalarını pozub. Azərbaycanlı əhali Ermənistandan kütləvi deportasiyaya məruz qalıb, onların bir çoxu məhz azərbaycanlı olduqlarına görə qətlə yetirilib, amansız işgəncələrə məruz qalıb. Eyni zamanda, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində 1 milyona yaxın şəxs ev-eşiyindən didərgin düşüb, onların mülkiyyət hüquqları pozulub, soyqırımları törədilib. Yəni, həm kütləvi etnik təmizləmə, həm məcburi köçürmə baş verib. Bundan əlavə, Azərbaycanın bütün maddi-mənəvi irsi məhv edilib, tarixi abidələr, məscidlər həm Ermənistan ərazisində, həm də işğal dövründə suveren ərazimizdə dağıdılıb, minlərlə qiymətli eksponat oğurlanıb.**

**Ermənistanın digər iddiaları da əsassızdır. Azərbaycan Ermənistanın bu əsassız iddiaları qarşısında öz arqumentlərini və faktlarını ortaya qoyacaq. Hesab edirəm ki, BƏM tərəfindən belə əsassız tələblərlə bağlı qərar qəbul edilə bilməz.**

# “Tarix yazan əbədiyaşar lider”

**Gəncə Şəhər İcra Hakimiyyətinin tədbirlər planına uyğun olaraq “Tarix yazan əbədiyaşar lider” mövzusunda təşkil olunan “dəyirmi masa”da ali məktəblərin rektorları, YAP fəalları, ictimaiyyət nümayəndələri, ağsaqqallar və gənclər iştirak etmişlər.**



Tədbirdə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək demişdir ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində bu gün Azərbaycan iqtisadi cəhətdən özünü tam təmin edən, heç bir ölkədən asılı olmayan və tamamilə müstəqil siyasət yeridən bir ölkəyə çevrilib. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu öndərin daxili və xarici siyasətini uğurla davam etdirməkdədir.

AMEA-nın Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev çıxışında vurğulamışdır ki, Ulu öndər öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov qeyd etmişdir ki, Heydər Əliyev fəaliyyəti boyunca tarixi və siyasi ənənələrə, milli-mənəvi dəyərlərə xüsusi diqqət yetirməklə yanaşı, yenilikçi, mütərəqqi baxışlara əsaslanan və xalqın xoşbəxt gələcəyinə hesablanmış çox mühüm təşəbbüslər irəli sürərək vacib addımlar atmışdır.

AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov, Əməkdar həkim Mehman Rzayev və ADAU-nun kafedra müdiri, professor Azad Bayramov çıxışlarında Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətlərindən danışmış, onun şərəfli ömür yolunun gələcək nəsillər üçün əsl örnək olduğunu demişlər.

Qeyd olunmuşdur ki, müasir tariximizi Heydər Əliyevdən ayrı təsəvvür etmək mümkün deyil. Vətən təəssübü, xalq sevgisi Ulu öndərin fəaliyyətinin qayəsi idi. Mənsub olduğu xalqına xidmət etmək, Azərbaycanı dünyada layiqincə tanıtmaq bu dahi şəxsiyyətin əsas məqsədi olub.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
***Gəncə***

**Xarici media səhifələrində**

# Türkiyə dünya gücünə çevrilib

## Neoliberalizm, qlobal dəyişiklik və davam edən inkişaf

**İngilisdilli populyar “INSİGHT TURKEY” jurnalının sentyabr sayında UNEC-in beynəlxalq əlaqələr şöbəsinin sabiq müdiri, hazırda Amerikanın Southern New Hampshire Universitetində tədqiqatlarını davam etdirən Turan Süleymanovun professor Bülent Gökayın “Türkiyə dünya iqtisadiyyatında: Neoliberalizm, qlobal dəyişiklik və inkişaf etməkdə olan gücün yaradılması” kitabına yazdığı eyniadlı resenziyası dərc edilib. Türkiyənin və dünyanın tanınmış alimlərinin və siyasi xadimlərinin yazılarının yer aldığı SKOPUS indeksli jurnalda verilən məqalənin qısa xülasəsini oxucuların diqqətinə çatdırırıq.**




Turan Süleymanovun məqaləsi Ədalət və İnkişaf Partiyasının (AKP) rəhbərliyi ilə 20 il ərzində Türkiyənin siyasi və iqtisadi cəhətdən transformasiya edərək orta ölçülü inkişaf edən gücə çevrilməsi və ölkə iqtisadiyyatına təsir göstərən qlobal inkişaf kanalları ilə bağlı Bülent Gökayın araşdırmalarından və mükəmməl təhlilindən bəhs edir. Bildirilir ki, kitab müəllifi həmin 20 ili iki alt dövrə ayırır. AKP dövrü adlandırılan ilk dövr 2002–2010-cu illəri əhatə edir. Türkiyəli professorun fikrincə, həmin illərdə hökumətin yürütdüyü neoliberal iqtisadi siyasət və həyata keçirilən dəyişikliklər sayəsində xarici investisiyalar üçün əlverişli mühit yaradılmış, eləcə də ilkin tənzimləyici liberalizm siyasəti Qərb demokratiyası xəttinə uyğun olmuşdur. AKP-nin hədəfi liberal islahatlarla paralel olaraq, ixraca əsaslanan sənayeləşmə ilə ölkə iqtisadiyyatını canlandırmaq idi.

Həmin dövrdə Türkiyə digər inkişaf etməkdə olan iqtisadiyyatlarla müqayisədə yaxşı işləyən və normativ-hüquqi aktlarla tənzimlənən dayanıqlı bank sistemi qurmağı bacardı. Nəticədə ölkəyə aşağı faiz dərəcələri ilə böyük həcmdə Qərb kapitalı axını yönəldi ki, bu da AKP hökumətinin sürətli iqtisadi inkişaf məqsədinə çatmasına və Türkiyənin xarici investisiyalar üçün perspektivli ölkələrdən birinə çevrilməsinə kömək etdi. Həyata keçirilən iqtisadi strategiyalar və əlverişli qlobal şərait ölkənin sürətlə sənayeləşməsinə və iqtisadi inkişafına gətirib çıxardı. Bu transformasiya türk xalqı üçün daha yaxşı iqtisadi və sosial şərait yaradılmasına səbəb oldu.

Professor Bülent Gökayın qeyd etdiyinə görə, ikinci alt dövr 2010-2020-ci illəri əhatə edir. Öz qızıl dövrünü yaşayan Türkiyə iqtisadiyyatı qlobal maliyyə böhranı ilə üz-üzə qalmışdı. Qərb iqtisadiyyatlarında baş verən maliyyə sarsıntıları və iqtisadi tənəzzül Türkiyənin Qərb bazarına ixrac tələbatını azaltmış və ölkənin inkişafı davam etdirməsi üçün zəruri olan xarici sərmayə çatışmazlığı yaratmışdı. Bu dövr ərzində baş verən bir sıra yerli və qlobal hadisələr Türkiyə iqtisadiyyatına mənfi təsir göstərirdi.

Kitab müəllifi vurğulayır ki, çox ehtiyac duyulan aşağı faizli Qərb kapitalının olmaması və Qərbdə bazar tələbatının azalması şəraitində Türkiyə alternativ investisiya və yeni bazarlar axtarışı üçün Şərqə üz tutdu. AKP hökuməti iqtisadiyyatı sabitləşdirmək və iqtisadi inkişafı davam etdirmək üçün Çin və Rusiya ilə əlaqələri yenidən nəzərdən keçirdi. Beləliklə, Türkiyə Şanxay Əməkdaşlıq Təşkilatının toplantısına qatıldı və ardından həm Rusiya, həm də Çin ilə tərəfdaşlığın səviyyəsini yüksəltdi.

2008-ci ilin qlobal maliyyə böhranı və iqtisadi tənəzzül qeyri-sabit və xaotik beynəlxalq vəziyyətin yaranmasına gətirib çıxardı. Həmçinin yaranmış vəziyyət dünya iqtisadi sisteminə və qüvvələr balansına təsirsiz ötüşmədi. Dünya iqtisadiyyatı buna qənaətlə bağlı tədbirlər, iqtisadi millətçilik və müxtəlif strategiyalar ilə cavab verdi ki, həmin addımlar ABŞ-da, Avropada, Braziliyada, Hindistanda və digər ölkələrdə konservativ siyasətin inkişaf etməsinə səbəb oldu. Lakin qlobal maliyyə böhranının mənfi təsirinə baxmayaraq, inkişaf etməkdə olan bir çox digər ölkə iqtisadiyyatları ilə müqayisədə Türkiyənin bank sisteminə vaxtilə həyata keçirilən islahatlar sayəsində ciddi zərər dəymədi.

Kitabda həm daxili siyasi və iqtisadi inkişaf, həm də qlobal təsir və dəyişikliklərin təsiri təhlil edilərək Türkiyə iqtisadiyyatının inkişaf etməkdə olan ölkə iqtisadiyyatları siyahısına keçidinin tarixi perspektivinə nəzər salınır.

Türk Dövlətləri Təşkilatının yaranması, Azərbaycan və Mərkəzi Asiyanın türk dövlətləri ilə daha sıx iqtisadi və mədəni əməkdaşlığa dair iddialı çağırışlar Türkiyənin xarici iqtisadi siyasətində prioritetdir və kompleks araşdırma tələb edir. Orta Asiya türk malları üçün potensial ixrac bazarıdır. Bundan başqa, Azərbaycan nümunəsi göstərir ki, onlar həm də ölkədə iqtisadi hədəflərə nail olmaq üçün böyük investisiya mənbəyi ola bilər.

Buna görə də kitabın Türkiyə və inkişaf etməkdə olan bazarları tədqiq edən alimlər, tədqiqatçılar və siyasilər üçün faydasını qeyd edən Turan Süleymanovun fikrincə, müəllifin Türkiyənin Azərbaycan və Orta Asiya dövlətləri ilə bağlı iqtisadi siyasətinə daha geniş yer verməsi məqsədəuyğun olardı.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 225 (30341) 15 oktyabr 2023-cü il, bazar

İdman xəbərləri

## Avropa kuboku: 4 bürünc medal

***Monteneqronun Budva şəhərində boks üzrə Avropa kuboku yarışında komandamız 4 bürünc medal qazanıb. Yığmamızın 1 üzvü isə finala yüksəlib.***




Malik Həsənov (63,5 kq) qızıl medal uğrunda Rusiya təmsilçisi Qabil Məmmədovla mübarizə aparacaq.

Tural Sarıyev (48 kq), Tayfur Əliyev (60 kq), Sərxan Əliyev (71 kq) və Mirşərif Kazımzadə (75 kq) Avropa kubokunu bürünc medalla başa vurublar.

## Həndbolçularımız bu dəfə də məğlub olublar

**2024-cü ildə keçiriləcək Avropa çempionatının seçmə mərhələsində növbəti oyununu keçirən qadın həndbolçulardan ibarət Azərbaycan millisi bu dəfə uduzub.**



Bakı İdman Sarayında yığmamızın qonağı olan İspaniya komandası qarşılaşmada 38:18 hesablı qələbə qazanıb.

Xatırladaq ki, Azərbaycan millisi birinci sınağında səfərdə Şimali Makedoniya ilə keçirdiyi matçda 17:49 hesabı ilə məğlub olmuşdu. İspaniya isə Litva üzərində 47:14 hesabı ilə qalib gəlmişdi.

## Dünya kubokunda üçüncü yer

***Azərbaycan triatlonçusu Rostislav Pevtsov Çinin Çenqdu şəhərində keçirilən Dünya kubokunda 3-cü yeri tutub.***



Gərgin mübarizə şəraitində keçən yarışda finişə demək olar ki, eyni vaxtda çatan 2-ci və 3-cü yerlərin sahibləri "Foto finish"lə müəyyən edilib.

Rostislav Pevtsov yarışın qalibi almaniyalı Tim Hellviqdən cəmi 6 saniyə geri qalıb.

## Savatçılarımız 5 medal qazanıblar

***Savat üzrə Azərbaycan millisi Avstriyanın Vayts şəhərində keçirilən dünya kubokunda uğurla çıxış edib.***



Komandamızın üzvlərindən uşaqlar arasında Ağamirzə Mahmudbəyli (30 kq), gənc savatçıların yarışında isə Ələkbər Xanməmmədov (56 kq) ən yüksək nəticə əldə edərək qızıl medalın sahibi olublar.

Gənclərin yarışında Yasin İbrahimov (52 kq), Məhəmməd Süleymanov (+75 kq) 2-ci, böyüklərin mübarizəsində Beyrək Bağırov (80 kq) 3-cü yerləri tutublar.

***Leyla SABİRQIZI***
***XQ***

# "Azərbaycanda milli hərəkat" kitabı Bişkekdə

**Qırğızıstandakı Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun təşəbbüsü ilə Bişkekdəki "Uluu Toolor" nəşriyyatında Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan və rus dillərində "Azərbaycanda milli hərəkat" kitabı nəşr edilib.**

Kitab 2009-cu ildə Bakıdakı "Elm" nəşriyyatında çap olunub.

Nəşrin tərtibçisi və "Ön söz"ün müəllifi mərhum professor Şirməmməd Hüseynovdur.

Nəşrin redaktoru isə mərhum professor Nəsir Əhmədlidir.

Fondun ənənəsinə uyğun olaraq kitab Mərkəzi Asiya ölkələrində pulsuz yayılacaq.

Gələcəkdə kitabın qırğız, ingilis dillərində çap olunması da nəzərdə tutulur.




***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**Bişkek**

Sağlamlıq

# Limfa bizi qoruyur

## Biz də onu qoruyaq

**Limfa vəziləri, əsasən oynaq nahiyyələrində yerləşir və bədənimizi müxtəlif viruslardan, mikroblardan, şiş hüceyrələrindən qoruyur. Əgər limfa vəzisi şişibsə, deməli, həmin vəziyə yaxın yerlərdə bir problem (iltihab) var.**



Limfa vəziləri 1–1,5 santimetrdən artıq böyüyübsə, bu, vəzin şişməsi deməkdir. Bəzən adi soyuqlama zamanı vəzilərdə böyümə hiss edilir, amma yenə əvvəlki vəziyyətə qayıdır. Çox hallarda böyümüş limfa vəzilərini yerinə görə müalicə etmək olur. Məsələn, çənəaltı nahiyyədə vəz şişibsə, bu ağız boşluğundan və boğaz ağrısından ola bilir. Onda ağız boşluğu və boğaz iç tərəfdən 30 qram propolis, 200 qram bal və 2 xörək qaşığı ud hindi qarışımı ilə gündə 3 dəfə silinməlidir. Ağızda və boğazda iltihablanma keçən kimi limfa vəziləri də kiçilir. Qoltuqaltı vəzilər şişibsə, demək, ağciyərlərdə problem yaranıb.

İmmunitet üçün hər birindən 40 qram olmaqla zəncəfil, qarazirə, ud hindi, güldəfnə (hilba), jenşen götürülür. Bitkilərin hamısı quru halda üyüdülüb toz halına salınır. 50 qram propolis 1 gün soyuducunun buzxanasında saxlanıb sonra sürtkəcdən keçirilir, 1 kiloqram bal da əlavə edilib hamısı bir-birinə qarışdırılır.

# Keçibuynuzu – sağlıq cövhəri

**Həkimlərin hər zaman tövsiyə etdikləri keçibuynuzu kalium, kalsium, natrium, maqnezium və dəmir kimi minerallar, A, B, D və E vitaminləri ilə zəngin olub ən müalicəvi qida qaynaqlarından biridir. O, güclü antioksidant xüsusiyyətə malik olduğu üçün orqanizmi toksinlərdən təmizləməyə kömək edir və bədəni xəstəliklərdən qoruyur.**



Onun çox yayılmış faydalarından biri pis xolesterolu salmaqdır. Qəbulu damar sağlamlığına müsbət təsir edir. Dadı şirin olsa da, qan şəkərinin yüksəlməsinin qarşısını alır. Uzunmüddətli istifadəsi ürək-damar xəstəliklərinin inkişaf riskini azaldır. Bağırsaqda zərərli bakteriyaların böyüməsinin qarşısını alır, tərkibindəki vitamin və mineralların köməyilə qrip, soyuqdəymə, öskürək kimi problemlərin tez sağalmasına kömək edir. Bundan başqa, bol kalsium ehtiva etdiyi üçün yaşlı insanlarda osteoporoza qarşı sümük sağlamlığına müsbət təsir göstərir.

Hazırda keçibuynuzunu bəhməz, un və ya toz kimi müxtəlif formalarda da tapmaq olar. Bəhməzini digər növlər (tut, üzüm, xurma) kimi içmək, unu ilə hər cür xəmir və şirniyyat hazırlamaq mümkündür. Tozunu ılıq südə əlavə edib içmək də olar.

***Z.HÜSEYNLİ***
***XQ***

HAVA

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, oktyabrın 15-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

# Hava mülayim olacaq



Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub küləyi əsəcək. Gecə 10-15°, gündüz 17-22° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 762 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80 , gündüz 45-50 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-13°, gündüz 20-25° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 7-12° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

Texnologiya yenilikləri

# "iPhone Pro MaX" "ən yaxşı" oldu




**"iPhone 15 Pro Max" ön kamerasının keyfiyyətinə görə dünyanın ən yaxşı smartfonu olub. Qurğu 114 xal toplayaraq ən yaxın rəqibi olan "iPhone 14 Pro"nu dörd xal qabaqlayıb.**

Mütəxəssislərin fikrincə, "iPhone 15 Pro Max" çəkiliş zamanı əla nəticələr nümayiş etdirir. Bundan əlavə, smartfonun ön kamerası yüksək keyfiyyətli stabilizasiya sistemi ilə təmin olunub.

Bununla belə, smartfonun çatışmazlıqları da olub. Belə ki, bəzən şəkillərdə artefaktlar nəzərə çarpır, həmçinin hərəkətli video çəkərkən kadrların kəskinliyində nəzərəçarpacaq fərq var.

# "ChatGPT" təhlükəli alətdir

**ABŞ Kosmik Qüvvələri məlumatların təhlükəsizliyi ilə bağlı narahatlıqlar səbəbindən "ChatGPT" kimi internet əsaslı süni intellekt alətlərinin istifadəsini dayandırıb.**




Hərbi Hava Qüvvələrinin sözçüsü Tanya Daunsvort bildirib: "ABŞ Kosmik Qüvvələrində Generativ AI və Böyük Dil Modellərinin istifadəsinə strateji fasilə verilib. Süni intellekt modellərinə inteqrasiya üçün ən yaxşı yol müəyyən edilənədək bu qadağa davam edəcək".

***AYTƏN***
***XQ***

# "SpaceX"in baza stansiyalarına ehtiyacı yoxdur



**"SpaceX" şirkəti yeni xüsusiyyətini təqdim edib. Artıq baza stansiyalarına ehtiyac olmayacaq. Belə ki, "Starlink Direct to Cell" xidməti istifadəçilərə hər yerdə zəng etmək, mesaj göndərmək və internetə qoşulmaq imkanı verəcək.**

Şirkət "Starlink Direct to Cell" xidmətini bu cür təsvir edir: "Səmanı görə bildiyimiz hər yerdə mövcud LTE telefonları işləyəcək. Aparat, proqram təminatı və ya xüsusi proqramlarda heç bir dəyişiklik tələb olunmayacaq və mətnə, səsə, məlumatlara qüsursuz çıxış təmin ediləcək."

Qeyd edək ki, "SpaceX" şirkəti bu özəlliyi tanıtmaq üçün "direct.starlink.com" internet səhifəsini artıq yayımlayıb.

***ƏFSANƏ***
***XQ***

# Köhnə videolar təzələnəcək



**Bir neçə kliklə köhnə videoların və GIF fayllarının keyfiyyətini yaxşılaşdıran texnologiya yaradılıb. Texnologiya obyektlərə detallar da əlavə edə bilir.**

Bildirilir ki, fotoşop tərtibatçısı olan "Adobe" şirkətinin yaratdığı bu texnologiya "Project Res-Up" adlanır. Bu, videoların və GIF-lərin keyfiyyətini yaxşılaşdırmaq məqsədi daşıyan süni intellektlə işləyən bir vasitədir.

Videolardan əlavə "Res-Up" GIF-lərlə də işləyə bilər. Belə ki, bu texnologiya sayəsində köhnə illüstrasiyalara yeni nəfəs vermək mümkün olacaq.

Qeyd edək ki, digər şirkətlərin də oxşar süni intellekt alətləri var. Məsələn, yüksək səviyyəli "NVIDIA" və "AMD" videokartlarının sahibləri videolara real vaxt rejimində "YouTube" və digər xidmətlərdə təkmilləşdirilmiş keyfiyyətlə baxa bilərlər.

***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4818
SİFARİŞ 2626
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00